Bu bir xalq qəzetidi

ƏDALƏT

## "Azərbaycanla Türkiyə arasında hərbi əməkdaşlıq qarşıdakı dövrdə daha da inkişaf edəcək"




**"Türkiyə ilə Azərbaycan arasındakı əməkdaşlıq müxtəlif sahələri, sektorları əhatə edir və çox dərindir. Hərbi əməkdaşlıq da bunlardan biridir. Bu çərçivədə münasibətlər yalnız birgə hərbi təlimlərlə məhdudlaşmır".**

Bunu "Report"a eksklüziv müsahibəsində Türkiyənin Azərbaycandakı yeni fövqəladə və səlahiyyətli səfiri Cahit Bağçı deyib.

"Hərbi sahədə əlaqələr birgə təlimlərdən müdafiə sistemlərinin istehsalına qədər bir çox sahəni əhatə etməkdədir. Bu əməkdaşlıq həm də strateji əhəmiyyətə malikdir.

Əməkdaşlığımızın qarşıdakı dövrdə daha da inkişaf edəcəyini və dərinləşəcəyini söyləmək yanlış olmaz", - diplomat bildirib.

## Əli Əsədov Rusiyaya rəsmi səfərə gedir



*Bu gün Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Rusiyaya rəsmi səfərə gedəcək. Nazirlər Kabinetindən Adalet.az-a verilən məlumata görə, mayın 20-də Baş nazirin və nümayəndə heyətinin Rusiya hökumətinin sədri M.V.Mişustinlə və Rusiya hökumətinin üzvləri ilə görüşü keçiriləcək.*

## Raket və artilleriya bölmələri təlimlərdə iştirak edir

**Azərbaycan Ordusunda müxtəlif qoşun növlərinin cəlb edilməsi ilə keçirilən təlimlər davam edir.**



Bu barədə Adalet.az-a Müdafiə Nazirliyindən məlumat verilib. Təlimlərin planına uyğun olaraq qərargahlarda vəziyyətin qiymətləndirilməsi aparılır və müvafiq tapşırıqlar verilir. Qəbul edilmiş qərarlara müvafiq olaraq raket və artilleriya bölmələri tapşırıqları icra edir.

## 6 mindən çox şəhid və qazi ailəsinə məşğulluq dəstəyi göstərilib



**Postmüharibə dövründə icra olunan sosial dəstək paketi çərçivəsində şəhid ailəsi üzvləri, qazi və yaxınlarından ibarət 6 mindən çox şəxsin məşğulluğuna dəstək göstərilib.**

Bu barədə Trend-ə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən bildiriblər.

Qeyd edilib ki, onlardan 4666 şəxs özünüməşğulluq proqramı ilə əhatə olunub. Seçdikləri iqtisadi fəaliyyət növləri üzrə həmin şəxslərin kiçik ailə təsərrüfat və müəssisələrini qurmaları üçün proqram əsasında aktivlərlə təminatı işləri aparılır.

Bu kateqoriyalardan olan 430 nəfərə münasib işlərə göndəriş verilib, 930 nəfər isə haqqı ödənilən ictimai işlərə cəlb edilib.

## Yol polisi rayonlara gedən sürücülərə müraciət etdi

Bax:səh-2

*İradə TUNCAY*

## Görmədiyim şəhər



*Qəribədi, heç getmək istəmədiyim bir yer idi ora... Amma ağrısını çox çəkdiyim. Yəqin ağrıdan bezmişəm. Ağrıdan qorxuram - başlayan kimi ağrıkəsici dərmanla qorunuram.*

*Səhər ayıldım, hazırlaşmağa başladım. 40 ili qeyd etmək, 40 ilin sərgərdanlığın silmək, 40 ilin olan-keçənlərini, ya da keçməyənlərini xatırlamaq... Ordan keçib harasa getdiyimi yadıma salıram. Sonra beynim imtina edir xatirələrdən.*

*Körpənin birini qucağıma götürüb,o birini arabaya otuzdurub dalan uzunu getdiyim də gəlir gözümün qabağına, qonşunun qapını açıb mənə baxdığı da.*

*Bayaq bu dağılmış küçənin, dağılmış dalanın, dağılmış barının, divarların yaxınlığında yol boyu gördüyüm şəhid şəkillərini də göz önünə gətirirəm. Üşəndirir bu mənzərə... Olmayan küçələr, olmayan evlər, olmayan şəhər. Adı qalıb ancaq... Bir də 40 illik ömür, toy günümüzdən bu günə qədər yaşatdığım, ya da içimdə dəfn etdiyim.*

*Əslində bu təsvirləri çox gördük, çox oxuduq. Olmayan olanlar...*

*Olanı sevməyə nə var ki? Olmayanı nə edək??? Yenidən yaranacaq, amma bu yeni şəhər olacaq. Yeni insan nəslinin yeni şəhəri. Hələlik isə dünyanın hər yerindən gələn qonaqlara köhnədən qalan türbələri, məbədləri göstərə bilirik. Deməli, tarix vacibdi. Tarixdə boşluq yarananda elə viranə evlərin boşluğundan bir fərqi yoxdu. Ağrı verir bu boşluq. Tarixin ağrısın kəsmək üçün qanın torpağa qarışmağı gərəkir... Ağ damır gözlərə ağrı çoxalanda...*

*16 may 2021-ci il,*
*Ağdam*

Bu bir xalq qəzetidi

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 52 (5884) 20 may 2021-ci il | Qiyməti 30 qəpik

## Səhiyyə Nazirliyindən əhaliyə çağırış

**Peyvəndlərin müxtəlif ölkələrdən gətirilməsinin birinci səbəbi əhaliyə seçim imkanının verilməsidir. Adalet.az-ın məlumatına görə, bunu Səhiyyə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Pərviz Abubəkirov deyib. O bildirib ki, hər bir vətəndaş xəstəliyə yoluxmadan orqanizmində anticismlərin yaranmasını təmin edə bilməlidir:**

**"Vətəndaşlara müraciət edirik ki, peyvəndləmə prosesində aktiv iştirak etsinlər.**

**Qeyd edək ki, mayın 2-də Azərbaycanın Rusiyadan aldığı "Sputnik V" vaksininin ilk partiyası - 40 min doza peyvənd ölkəyə gətirilib.**

**Azərbaycanda koronavirusla mübarizə məqsədilə peyvəndləməyə yanvarın 18-dən start verilib. Hazırda ölkədə "Sputnik V" ilə yanaşı, Çin istehsalı olan "Sinovac", Böyük Britaniya-İsveçrə şirkətinin istehsal etdiyi "AstraZeneca" vaksinindən də istifadə olunur".**

# XİN rəhbərləri sərhəddəki vəziyyəti müzakirə etdi

**19 may 2021-ci il tarixində Azərbaycan Respublikası xarici işlər naziri Ceyhun Bayramov ilə Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlu arasında telefon danışığı baş tutub.**

**Xarici İşlər Nazirliyindən verilən məlumata görə, nazirlər bölgədəki cari vəziyyəti, o cümlədən Azərbaycan-Ermənistan sərhədində baş verən gərginliklə bağlı məsələləri müzakirə etdilər.**

**Telefon danışığı zamanı tərəflər, həmçinin Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi, Fələstində baş verənlər ilə bağlı fikir mübadiləsi apardılar.**





## Bu tarixdə bütün müavinət, təqaüd və kompensasiyalar ödəniləcək

**Mayın 24-də bütün müavinət, təqaüd və kompensasiyaların ödənilməsi nəzərdə tutulub.**



Adalet.az-ın məlumatına görə, bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu məlumat yayıb.

Qeyd edək ki, may ayı üzrə pensiyaların ödənişini qarşıdan gələn Ramazan bayramı ilə əlaqədar vaxtından əvvəl başa çatdırılıb.

Güzəştli şərtlərlə pensiya hüququna malik şəxslər də daxil olmaqla respublika üzrə bütün pensiyaların ödənişi mayın 8-ə qədər tam yekunlaşıb.

## Qarabağa keçmək istəyən daha 6 nəfər saxlanılıb

**Mayın 17-də saat 17 radələrində Füzuli rayonunun Alıxanlı kəndi ərazisində "Toyota" markalı avtomobilin sürücüsü işğaldan azad olunmuş əraziyə qanunsuz keçməyə cəhd etdiyi üçün Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən saxlanılıb.**



Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən Adalet.az-a verilən məlumatına görə, avtomobildə olan sürücü, Sumqayıt şəhər sakini E.Qasımov və 5 sərnişini Füzuli RPŞ-yə gətiriliblər. Onlar barəsində İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə protokol tərtib olunaraq inzibati tənbeh tədbiri tətbiq olunub.

## Bakı-Şamaxı yolunda ağır qəza



**Bakı-Şamaxı yolunda xəsarətlə nəticələnən yol nəqliyyat hadisəsi baş verib.**

**İki avtomobilin toqquşması nəticəsində 1986-cı il təvəllüdlü Çələbiyev Müşfiq Rafiq oğlu və 1947-ci il təvəllüdlü Bağırov Elşad Əsədulla oğlu xəsarət alıblar.**

**Yaralılar təcili tibbi yardım briqadasının köməkliyi ilə xəstəxanaya çatdırılıblar.**

**M.Çələbiyevə sol bazu nahiyəsinin əziyi, E.Bağırova isə boyun nahiyəsinin əziyi diaqnozu qoyulub.**

**Faktla bağlı araşdırma aparılır.**

## Daha bir əsgərimizin şəhid xəbəri gəldi



**Azərbaycan Respublikası Baş Prokurorluğunun və Respublika Hərbi Prokurorluğunun rəhbərliyinin nəzarəti ilə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin itkin düşmüş hərbi qulluqçularının tapılaraq, şəxsiyyətinin müəyyən edilməklə, doğmalarına təhvil verilməsi istiqamətində intensiv əməliyyat-istintaq hərəkətləri həyata keçirilir. Bu barədə Adalet.az-a Respublika Hərbi Prokurorluğunun Mətbuat xidmətindən məlumat verilib.**

Hərbi prokurorluq orqanlarının və Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşlarının iştirakı ilə Silahlı Qüvvələrin hərbi qulluqçularından ibarət axtarış qrupları tərəfindən itkin düşmüş hərbi qulluqçularımızın axtarılması istiqamətində müntəzəm iş aparılır.

"Bundan əvvəl verilən məlumatlara əlavə olaraq bildirilir ki, Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşları ilə birgə həyata keçirilən əməliyyat-istintaq tədbirlərinin nəticəsində itkin düşmüş daha bir hərbi qulluqçunun - müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər İbrahimov Təbriz İsmayıl oğlunun meyiti tapılaraq, şəxsiyyəti müəyyən edilməklə aidiyyəti üzrə verilməsi üçün zəruri tədbirlərin görülməsi təmin olunub. İtkin düşmüş digər hərbi qulluqçuların olduqları yerlərin müəyyən olunması məqsədilə əməliyyat-istintaq tədbirlərinin icrası davam etdirilir, eləcə də axtarış qrupları tərəfindən hazırda intensiv işlər aparılır.

Allahdan bütün şəhidlərimizə rəhmət, doğmalarına səbir diləyirik", - Mətbuat xidmətindən bildirilib.

## Saatlıda həyətdən narkotik plantasiyası aşkarlandı

**Saatlı rayonunda həyətyanı sahədə narkotik plantasiyası aşkarlanıb.**

**DİN-in Mətbuat Xidmətinin Şirvan şəhərində regional qrupundan Trend-ə verilən məlumata görə, Saatlı Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən həyata keçirilmiş əməliyyat tədbirləri ilə narkotik tərkibli bitkilərin kultivasiyası ilə məşğul olmaqda şübhəli bilinən rayonun Mircəlal kənd sakini Mirəli Kazımov saxlanılıb. Ona məxsus fərdi yaşayış evinə keçirilən baxış zamanı evin həyətyanı sahəsindən xüsusi aqrotexniki qaydada qulluq edilərək yetişdirilmiş 18 ədəd çətənə bitkisi aşkarlanıb. Faktla bağlı Saatlı Rayon Polis Şöbəsində cinayət işi açılıb, araşdırmalar aparılır.**



## Ağdamda 3 177 hektar əkin sahəsi minalardan təmizlənib



**İşğaldan azad edilən ərazilərin minalardan təmizlənməsi prosesi davam etdirilir.**

Ağdam rayon İcra Hakimiyyətindən verilən məlumata görə, artıq rayon ərazisində 3177 hektar əkin sahəsi mina və partlamamış sursatlardan təmizlənib. Təmizlənmiş ərazilərin 2195 hektarına buğda əkilib. Hazırda əkin sahələrinin təmizlənməsi davam etdirilir.

## Magistraturaya ikinci qəbul imtahanının tarixi açıqlandı



**Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarına qəbul imtahanının II cəhdi mayın 26-da keçiriləcəkdir.**

Dövlət İmtahan Mərkəzindən Adalet.az-a verilən məlumata görə, "İmtahana buraxılış vərəqəsi" və "İmtahan iştirakçısının sağlamlığı haqqında bəyannamə"ni çap etmək üçün https://www.e-gov.az/az/services/read/2516/0?tqdk_xdm=8 linkinə daxil olmaq lazımdır. Qeyd olunub ki, bakalavrlar imtahana gələrkən özləri ilə şəxsiyyəti təsdiq edən sənədin əsli, "İmtahana buraxılış vərəqəsi" və "İmtahan iştirakçısının sağlamlığı haqqında bəyannamə"ni mütləq gətirməlidirlər. Göstərilən sənədlərdən hər hansı biri olmazsa və ya sənədlər arasında uyğunsuzluq olarsa, bakalavr imtahana buraxılmır.

## "Ermənistanın daxili siyasi arenasında vəziyyət qeyri-sabitdir"



**Ermənistanın daxili siyasi arenasında vəziyyət qeyri-sabitdir və əsasən gələn ay keçiriləcək parlament seçkiləri ərəfəsində baş verən proseslərlə əlaqəlidir. Bunu Trend-ə rusiyalı ekspert Stanislav Pritçin deyib.**

S.Pritçin bildirib ki, ölkədəki əsas müxalif qüvvələr Nikol Paşinyana qarşı vahid cəbhədə çıxış etmək niyyətindədir:

"Hələlik bu, tam şəkildə alınmır, müxalifət daxilində ziddiyətlər kifayət qədər çoxdur".

Ermənistan parlamentinin baş nazir seçməməsini şərh edən ekspert deyib ki, bu texnoloji prosesdir:

"Bu, onunla əlaqədardır ki, Paşinyan baş nazir vəzifələrini icra edən olaraq seçki kampaniyasını aparsın. Parlamentin buraxılması üçün hökumətin dəstək görməməsi lazımdır və bu da baş verdi".

## GÜNÜN LƏTİFƏSİ

Bir gün bir nəfər aptekə girir:

-Sizdə çörək var?

Satıcı:

**- Aptekdə çörək olmur. Kişi satıcının gözünü partladır. Səhəri gun yene girir həmin aptekə:**

- Sizdə çörək var?

Satıcı:

**- Yox.**

Kişi vurub o biri gözünü də partladır. Satıcı bundan bezib aptekə çörək qoyur. Kişi yenə gəlir, satıcı kişini qabaqlayır ki, çörək var. Kişi deyir ki, mənə indi çörək yox, xama lazımdı.

# Naxçıvanda suya tələbatın ödənilməsi üçün vəsait ayrılıb



**Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasında əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, Naxçıvan Muxtar Respublikasının ərazisində əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün 20 ədəd subartezian quyusunun layihələndirilməsi və qazılması məqsədilə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.38.3-cü yarımbəndində göstərilmiş 1 milyon manat Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə ayrılsın.

Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin edəcək.

Nazirlər Kabinetinə tapşırılır ki, bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

# XİN: Azərbaycan hərbi əsir statusu olan bütün erməniləri geri qaytarıb

**Azərbaycan hərbi əsir statusu olan bütün erməniləri sərbəst buraxıb və geri qaytarıb.**

Bunu Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Ermənistan tərəfindən "hərbi əsirlər" ilə bağlı iddiaları şərh edərkən deyib.

L.Abdullayeva bildirib: "Ermənistanın Azərbaycanı erməni "hərbi əsirlərin" saxlanmasında davamlı ittiham edən yalan və iftira dolu iddiaları tərəfimizdən mütəmadi qaydada cavablandırılır.

Vurğulamaq istərdim ki, Azərbaycan beynəlxalq hüququn aliliyinə, o cümlədən məhbusların saxlanma əməliyyatları və onlarla rəftara aid olan beynəlxalq humanitar hüquq və beynəlxalq insan hüquqları üzrə öhdəliklərinə riayət etməyə sadiqdir. Üçtərəfli bəyanatda




nəzərdə tutulduğu kimi və beynəlxalq humanitar hüquqa əsasən üzərinə götürdüyü öhdəliklərə uyğun olaraq, Azərbaycan hərbi əsir statusu olan bütün erməniləri sərbəst buraxıb və geri qaytarıb".

XİN rəsmisi bildirib ki, hazırda Azərbaycanda, bütün hərbi əməliyyatların dayandırılmasını nəzərdə tutan 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın imzalanmasından bir neçə həftə sonra Azərbaycan ərazisinə qanunsuz göndərilən erməni təxribatçıları həbsdə saxlanılır:

"Azərbaycanın topladığı məlumatlar və dəlillərə əsasən, noyabr ayının son 10 günündə döyüş əməliyyatları bitdikdən sonra Ermənistanın Şirak bölgəsindən 60 nəfərdən çox dəstə Azərbaycan ərazilərinə göndərildi. Bu dəstə 2020-ci ilin noyabr ayının sonu və dekabr ayı da daxil olmaqla, Azərbaycan mülki şəxslərinə və hərbi qulluqçularına qarşı terror hücumları həyata keçirərək 4 azərbaycanlı hərbçini öldürdü və erməni işğalı illərində dağıdılmış bölgədəki rabitə xətlərinin bərpası üçün sadəcə öz işini görən və mobil rabitə şirkətinin əməkdaşı olan bir mülki şəxsi isə ağır yaraladı.

Azərbaycan bu şəxsləri həm beynəlxalq, həm də daxili hüquqa uyğun olaraq qanuni əsasda həbsdə saxlayır, onlar Azərbaycan qanunvericiliyinə uyğun olaraq, törədilmiş qətl, təxribat və digər cinayətlərə görə mühakimə olunurlar.

Qanunlara uyğun olaraq hazırda Azərbaycan, 44 gün davam edən Vətən Müharibəsindən sonra tutulan bütün şəxslərlə bağlı onlara qarşı olan dəlilləri qiymətləndirməklə ətraflı araşdırma aparır. 4 may 2021-ci ildə ölkəmiz humanitar addım qismində, saxlanılan şəxslərdən 3-nü ittihamlar irəli sürmədən Ermənistana qaytardı.

Ermənistanın davamlı şəkildə məsələni yanlış təqdim etdiyini nəzərə alaraq, ölkəmiz saxlanılan şəxslərin saxlanma səbəbləri, şəraiti və onlarla rəftar ilə bağlı daha çox şəffaflığı təmin edərək, araşdırmanı davam etdirir. Azərbaycan, o cümlədən məhbuslara insani münasibət göstərilməsi və onlarla ədalətli və qanuni şəkildə rəftarı təmin etməklə, bu xüsusda üzərinə götürdüyü beynəlxalq öhdəliklərini yerinə yetirməyə sadiq qalır".

# Azərbaycan sərhədçilərini qətlə yetirən iranlı zərərsizləşdirildi

**Azərbaycan sərhədçilərini qətlə yetirərək qaçan İran vətəndaşı zərərsizləşdirilib.**

Dövlət Sərhəd Xidmətinin (DSX) iki hərbçisini öldürən şəxslər hadisə yerindən qaçaraq, Yardımlı rayonu ərazisində dağlarda gizləniblər.

Mayın 18-də Daxili İşlər Nazirliyinin (DİN) Daxili Qoşunlarının əməkdaşlarının keçirdiyi əməliyyat zamanı dağlarda gizlənən İran vətəndaşının birinin yeri müəyyən edilib. Həmin şəxs təslim olmayaraq silahlı müqavimət göstərib. Bu zaman Daxili Qoşunların əməkdaşları silah tətbiq etmək məcburiyyətində qalıb və həmin şəxsi zərərsizləşdirib.

Hüquq-mühafizə orqanları "Report"a faktı təsdiqləyib.

Qeyd edək ki, mayın 15-də DSX Sərhəd Qoşunlarının "Göytəpə'" sərhəd dəstəsinin xidməti ərazisində Yardımlı rayonunun Gendərə kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində 3 nəfər naməlum şəxs Azərbaycan Respublikasının mühafizə olunan dövlət sərhədini nəzarət-buraxılış məntəqələrindən kənarda qanunsuz olaraq keçərkən DSX-nın əməkdaşlarının qanuni tələblərinə tabe olmayaraq onlara odlu silahdan atəş açıb və nəticədə xidməti vəzifələrini icra edən baş leytenant Samir Eyvazov və kiçik gizir Fərid Alimov həlak olublar.



Keçirilən əməliyyat tədbirləri nəticəsində sərhəd pozucularından biri saxlanılıb, saxlanılan şəxsin İran İslan Respublikasının vətəndaşı Bərgi Həsənəli Novruz oğlu olması müəyyən edilib.

Faktla bağlı Hərbi Prokurorluq tərəfindən Cinayət Məcəlləsinin 120.2.1 (qəsdən adam öldürmə), 206.3.2 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən narkotik vasitə və psixotrop maddələrin qaçaqmalçılığı), 234.4.1 və 234.4.3 (satış məqsədi ilə qanunsuz olaraq külli miqdarda narkotik vasitə və psixotrop maddələri əldə etmə, saxlama, daşıma və satma), 318.1-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) və digər maddələri ilə cinayət işi başlanılıb.

Hadisə yerinə baxış zamanı sərhəd pozucularının qanunsuz yolla ölkə ərazisinə gətirdikləri narkotik vasitə hesab olunan 3840 qram marixuana və 95 qram metamfetamin, güclü təsir edən maddə olan 17715 ədəd preqabalin həbi, eləcə də odlu silaha aid gilizlər və digər maddi subutlar aşkar olunaraq götürülüb.

İstintaq zamanı Bərgi Həsənəli Novruz oğlu şübhəli şəxs qismində tutularaq istintaqa cəlb olunub.

**Cinayət işinin istintaqının aparılması Baş Prokurorluğunun rəhbərliyinin göstərişinə əsasən, Baş Prokurorluğun İstintaq İdarəsinə həvalə edilib.**

# Yol polisi rayonlara gedən sürücülərə müraciət etdi

**Daxili İşlər Nazirliyinin Baqş Dövlət Yol Polisi İdarəsi rayonlara gedən sürücülərə xəbərdarlıq edib. İdarənin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis polkovnik-leytenantı Namidan Piriyev mətbuata açıqlamasında bildirib ki, yay mövsümünün yaxınlaşması ilə əlaqədar havaların isinməsi pandemiya şəraitində uzun müddət evdə qalmış vətəndaşların istirahət, gəzinti məqsədilə paytaxtdan rayonlara səfər etmələrinə zəmin yaratmışdır. Bu səbəbdən istər paytaxtdan bölgələrə, istərsə də əks istiqamətdə nəqliyyat axınının artması müşahidə edilir.**

Avtomobil yollarında son vaxtlar baş vermiş yol-nəqliyyat hadisələri üzrə təhlil aparılarkən bir çox hallarda sürücülərin gün ərzində yuxu və istirahət rejiminə əməl etmədən, yorğun formada nəqliyyat vasitələrini idarə etmələrinin ağır nəticəli qəzalara səbəb olduğu müəyyən edilmişdir. Hətta bəzən bu kimi vəziyyətlərdə avtomobilin idarə olunması nəticəsində eyni istiqamətdə qarşıda hərəkətdə olan nəqliyyat vasitəsinin arxa hissəsinə, yol kənarında yerləşən maneələrə toxunulmaqla qəza baş vermişdir ki, sürücü və ya sərnişinlər həlak olmuş yaxud müxtəlif dərəcəli bədən xəsarəti alıb.

Yol-nəqliyyat hadisələrinin qarşısının alınması, yollarda rahat və təhlükəsiz hərəkətin təmin olunması üçün Baş Dövlət Yol Polisi İdarəsi sürücülərə çağırış edərək uzaq məsafələrə səyahət edərkən yorğun, yuxusuz halda sükan arxasına əyləşməməyi, tələskənliyə yol verməməyi, hər 2-3 saatlıq fasiləsiz hərəkətdən sonra qısa müddətə avtomobili saxlayıb istirahət etməyi, eləcə də yollarda sürət rejiminə ciddi əməl olunmasını xahiş edir.



Məlumat üçün bildiririk ki, respublikanın avtomobil yollarında olan bütün stasionar postlarda vətəndaşların əl-üzünü yuması, onların qısa müddət istirahət etməsi müvafiq şərait yaradılıb.

Unutmaq olmaz ki, istirahət rejiminə əməl edilmədən, uzun müddət, fasiləsiz nəqliyyat vasitəsinin idarə olunması sürücülərin özləri ilə yanaşı avtomobildə olan sərnişinlər və digər hərəkət iştirakçıları üçün potensial təhlükədir.

# Azərbaycanlı jurnalist Fransa portalında "Xarıbülbül" festivalından yazıb

**"Turquie News": Ermənilər Qarabağda Azərbaycanın tarixi abidələrini dağıdıblar**

Azərbaycanın yeganə fransızdilli mətbu orqanı "Le Carrefour" (Yol qovşağı) qəzetinin təsisçisi, www.lecarrefour.az saytının rəhbəri, fransızdilli jurnalist Zeynab Kazımovanın Fransanın "Turquie-news.com" xəbər portalında "Ermənilər Qarabağda Azərbaycanın tarixi abidələrini dağıdıblar, "Xarıbülbül" - Şuşa Azərbaycan ruhunu qoruya bildi" (Les armeniens ont detruit les monuments historiques de l'Azerbadjan au Karabakh, " Kharybulbul " - Choucha a pu preserver l'esprit azerbaidjanais ) sərlövhəli məqaləsi yayımlanıb.

Məqalədə ermənilərin təxminən 30 ilə yaxın müddətdə Qarabağdakı bütün tarixi, mədəni, dini abidələri dağıtdıqları, Azərbaycan tarixini silməyə çalışdırqları bildirilir.

Müəlif yazır ki, şəhərlər, kəndlər, qəbiristanlıqlar tamamilə yerlə yeksan edilib, ermənilər Azərbaycanın maddi mədəniyyət abidələrini vəhşicəsinə dağıdıblar. Prezident İlham Əliyevin 29 oktyabr 2020-ci il tarixli "Azərbaycan Respublikasının azad edilmiş ərazilərində xüsusi müvəqqəti idarəetmənin təşkili haqqında" fərmanına diqqət çəkən jurnalist Mədəniyyət Nazirliyinin nümayəndələrinin ərazilərdəki abidələrin və mədəniyyət müəssisələrinin monitorinqini apardıqlarını və sarsıdıcı nəticələr əldə olunduğunu yazır. Müəllif təəssüflə yazır ki, son 30 ildə beynəlxalq təşkilatlar, o cümlədən Birləşmiş Millətlər Təşkilatının ixtisaslaşmış qurumları tərəfindən heç bir faktaraşdırıcı missiya həyata keçirilməyib.

Qarabağdakı məscid və ibadətgahlar nəinki dağıdılıb, əksər hallarda Azərbaycan xalqının milli mənəvi dəyərləri təhqir edilib. Müəllif dağıdılmış bir sıra məscidləri sadalayaraq, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təsdiq etdiyi siyahıya əsasən, işğal olunmuş ərazilərdə 403-ə yaxın tarixi dini abidə olduğunu, onlardan 67-nin məscid, 144-nün məbəd və 192-nin ziyarətgah olduğunu bildirib. O, vurğulayıb ki, Ermənistan Respublikası azərbaycanlılara qarşı nifrətini ev heyvanlarını, o cümlədən donuzları məscidlərin içərisində saxlayaraq nümayiş etdirdi. "İşğal olunmuş ərazilərin zəngin mədəni irsinə, eləcə də xüsusi əhəmiyyət daşıyan misilsiz abidələrə bu cür münasibət Ümumdünya İrsi üçün təhlükə yaradır" - deyə jurnalist yazır. Eyni zamanda, müəllif bildirir ki, Ermənistanın vandalizmi özünü yalnız müsəlman tarixi və dini abidələrində deyil, həm də xristian tarixi və dini abidələrində büruzə verib. Kəlbəcər bölgəsindəki Xudavəng və Gəncəsar monastırları da daxil olmaqla Qafqaz Albaniyasına aid bir çox məbədin ermənilər tərəfindən saxtalaşdırılaraq mənimsənilməsi və dağıdılmasına diqqət çəkən Zeynab Kazımova aparılan qanunsuz təmir işləri nəticəsində bu abidələrin qədim görünüşünün zədələndiyini qeyd edir. Jurnalist bildirir ki, ermənilərin əsas məkrli niyyətlərindən biri Azərbaycan ərazilərində olan Qafqazdakı alban irsini ələ keçirmək olub.




"Keçən il noyabrın 10-da imzalanmış üçtərəfli bəyannaməyə görə, ermənilər Kəlbəcəri 25 noyabr tarixinə qədər təhvil verməli idilər. Ancaq bu dövrdə ermənilər tarixi abidələrə zərər verməyə davam etdilər. Xudavəng monastırı da bu vandalizmin qurbanı oldu. Beləliklə, ermənilər zəngləri, xaçları və digər qiymətli əşyaları monastırdan qanunsuz olaraq çıxarıb Ermənistana apardılar" - müəllif yazır. Ermənistanın Şuşadakı Gövhər Ağa məscidinin tarixini də "bərpa" adı altında saxtalaşdırdığını qeyd edən müəllif ermənilərin törətdikləri bu vəhşiliklərin "Silahlı münaqişələr zamanı mədəni mülkiyyətin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasının 1999-cu il Protokolunun və 1992-ci il Avropa Arxeoloji İrsin Qorunması Konvensiyasının tələblərini pozduğunu diqqətə çatdırıb. Ermənistandan fərqli olaraq, Azərbaycanın əsrlər boyu müxtəlif mədəni və dini irs və ibadət yerlərini qoruyub saxladığını bildirən Zeynab Kazımova yazır ki, bunlar Azərbaycanın çoxmədəniyyətli və dini tərkibinin, həmçinin tarixinin ayrılmaz hissəsidir. Buraya müxtəliflik, multikulturalizm, tolerantlıq və dialoq dəyərləri daxildir.

Azərbaycan hökumətinin azad edilmiş ərazilərdə tezliklə bütün tarixi və mədəniyyət abidələrinin bərpa ediləcəyi genişmiqyaslı tikinti işlərinə başlayacağını qeyd edən müəllif Prezident İlham Əliyevin 12-13 may tarixlərində Azərbaycanın mədəniyyət paytaxtı Şuşada, Cıdır düzündə onun təşəbbüsü və Heydər Əliyev Fondunun dəstəyi ilə təşkil olunan "Xarıbulbul" musiqi festivalında dediyi fikirlərə iqtibas edərək yazır ki, ermənilər cəhd etdilər, amma Şuşadan Azərbaycan ruhunu silə bilmədilər. Şuşa Azərbaycan ruhunu qoruya bildi.

"Dövlət başçısı Şuşanın Azərbaycan xalqının milli sərvəti olduğunu vurğulayıb. Şuşanın bu yaxınlarda Azərbaycan mədəniyyət paytaxtı elan edilməsi bunu bir daha göstərir. Şuşa qədim Azərbaycan şəhəridir. Gələn il Şuşanın 270 yaşını qeyd edəcəyik. Pənahəli xan 1752-ci ildə Şuşanı qurdu və o zamandan işğala qədər azərbaycanlılar həmişə bu şəhərdə yaşayırdılar. Ermənilər nə qədər çalışsalar da, Azərbaycan ruhunu Şuşadan silə bilmədilər. Bəli, binalar, məscidlər və abidələr düşmən tərəfindən dağıdıldı. Ancaq Şuşa Azərbaycan ruhunu qoruya bildi. Şuşa 28 il yarımdır işğal altındadır, amma əyilmədi, ləyaqətini, milli ruhunu, Azərbaycan ruhunu qorudu"- deyə məqalədə qeyd olunur.

**Sonda müəllif Şuşadakı musiqi festivalında Azərbaycanda yaşayan müxtəlif etnik qrupların nümayəndələrinin - ləzgilər, talışlar, ruslar, yəhudilər və digərlərinin musiqi qruplarının iştirakından söz açaraq, hamının bir ruh - milli ruh, Azərbaycan ruhu ətrafında birləşdiyini yazır. Jurnalist yazır ki, bu həm də Azərbaycanın çoxmədəniyyətli və ləyaqətli bir ölkə nümunəsi olduğunu bir daha göstərdi!**

# Cahillik

**Düşünürəm ki, Mahir Abbaszadə haqqında yayılmış saxta və mantaj olunmuş şəkillərdə qəbahət axtarıb əxlaqsız yazılar yazmağa dəymir. Tutalım uzaq yol qət edərək, uzun illərin həsrətindən sonra yurduna qovuşan laçınlı bulaq başında bir loxma çörək kəsib. Kimə nə.... İnsan illər sonra doğulduğu, boya-başa çatdığı kəndinə, evinə gəlib, bunun nə demək olduğunu bilirsənmi ey dilibilməz. Adam uşaqlıq xatirləri ilə üz-üzə qalıb, başa düşürsənmi. Bu vəziyyətdə insanın nələr düşündüyü və nələr edəcəyi bəlli olurmu. Məncə başa düşüb dərk eləsəydin belə çirkin yolun yolçusu olmazdın. Burda nə var ay məxluqat. Adamlar deyir ki, içki olmayıb. Vəssalam!!! Bu, bəs eləmir? Məncə bu kampaniya çox çirkin və əxlaqsız kampaniyadır.**



**Bunu aparanlardan biri görəsən döyüş vaxtı ortalığa çıxdımı, və ya vətəni qorumağa, cəbhəyə getməyə can atdımı. Şəhidlərin xatirəsinin əbədiləşdirilməsi ilə bağlı, hətta deyərdim qazi və döyüşçülərin döyüş yolunu əhatə edən kitab və jurnalların dərci, həmçinin digər zəruri ehtiyacların ödənilməsi ilə bağlı nə müraciət olunubsa Mahir müəllim daima dəstək verib. Bunun şəxsən özüm şahidiyəm. 44 günlük Vətən müharibəsi dövründə döyüşlərdə iştirak edən oğlum barədə demək olar ki, hər gün əlaqə saxlayıb vəziyyəti ilə maraqlanıblar. O cümlədən mənim tanıdığım digər əsgər ailələri ilə də müntəzəm əlaqə saxlanılıb. Bu bir həqiqətdir. Hesab edirəm ki, bugünkü aparılan kampaniya ən çirkin kampaniyadır. Mövzuya bax, bulaq başında çörək yeyiblər. Bu, qaragüruhçuluqdur, qarayaxmadır, nadanlıqdır, cahillikdir. Bulaq üstə nə edərlər, ay dili bilməz. Biz ötən illərdə ağlayırdıq. İndi qürur duyuruq, sevinirik, gülürük. Bunu hər kəs bilir ki, Şəhidlərimiz başımızın tacıdır. Bu birmənalıdır. İndi onu tirajlayana baxın, guya onlar bulaq başında içki içmirlər. Axı məlumat verilir ki, bu bulaq Şəhid adına deyil. Bunu tirajlayanları hər kəs yaxşı tanıyır.**

**44 günlük Vətən savaşı dövründə hər gün başı araq stolundan yuxarı qalxmayan, ailəsinin qədrini bilməyən, özünün kimliyi bəlli olmayanlar indi sosial şəbəkə qəhrəmanlarına çevriliblər. Nə isə, Allah qəlbinə şeytan girmiş insanları hifz eləsin. Şər və böhtan atmaqdan çəkindirsin. Belə kampaniya aparmaq nə kişiliyə, nə də insanlığa sığmaz. Şəhidlərin adından aparılan belə piyarlar yolverilməzdir. Ən azından bunu tirajlayanlar da bilə-bilə şeytanın quluna çevrilmiş olurlar.**

**Sübut Mehdiyev**

# FHN Cəlilabad və Qobustanda qanunsuz obyekt tikintisi aşkarladı

**Fövqəladə Hallar Nazirliyinin (FHN) Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi tikintidə təhlükəsizliyin təmin olunması istiqamətində üzərinə düşən vəzifələrin icrasını davam etdirir.**



FHN-dən verilən məlumata görə, Agentliyin mütəxəssisləri tərəfindən Qobustan şəhəri, Bakı-Şamaxı yolunun 91-ci km-də yerləşən "Koneç" adlanan ərazidə vətəndaşa məxsus torpaq sahəsində qanunsuz olaraq qeyri-yaşayış obyektinin tikintisinin aparılması faktı aşkar edilib.

Göstərilən məsələ ilə əlaqədar FHN Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi və Qobustan Rayon İcra Hakimiyyətinin həyata keçirdiyi birgə tədbirlər nəticəsində qanunsuz tikinti işləri dayandırılıb və obyekt nəzarətə götürülüb. Bundan əlavə, Agentliyin mütəxəssisləri tərəfindən Cəlilabad şəhəri, Qurtuluş küçəsində vətəndaş tərəfindən müvafiq sənədlər olmadan qeyri-yaşayış obyektinin tikintisinin aparılması faktı aşkar edilib.

Məsələ ilə bağlı Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi tərəfindən həyata keçirilən tədbirlər nəticəsində qanunsuz tikinti işləri dayandırılıb və obyekt nəzarətə götürülüb.

# İctimai nəqliyyatda tibbi maskadan istifadə etməyənlər cərimələnib




**Koronavirus (COVID-19) pandemiyası ilə mübarizə məqsədilə ölkəmizdə tətbiq edilmiş xüsusi karantin rejiminin tələblərinə ictimai nəqliyyatda riayət olunmasına nəzarət məqsədilə Lənkəran Rayon Polis Şöbəsinin Dövlət Yol Polisi Bölməsinin əməkdaşları tərəfindən nəzarət-profilaktiki tədbirlər davam etdirilir.**

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən verilən məlumata görə, keçirilən növbəti tədbirlər zamanı rayondaxili marşrutlarda sürücü və sərnişinlərin gigiyenik vasitələr və sosial məsafə ilə bağlı müəyyən edilmiş qaydalara riayət etməsi yoxlanılıb. Sərnişinlərlə profilaktik söhbətlər aparılıb və tibbi maskalardan istifadənin zəruriliyi diqqətə çatdırılıb.

Əksər qism insanların tibbi maska ilə bağlı tələbə riayət etdiyi müşahidə edilsə də hələ də qaydalara və sağlamlığına biganəlik nümayiş etdirənlərə rast gəlinib.

Həmin şəxslər barəsində qanunamüvafiq tədbirlər görülüb.

Eyni zamanda, Lənkəran Şəhər Rayon Polis Şöbəsinin Dövlət Yol Polisi Bölməsinin əməkdaşları tərəfindən taksi fəaliyyəti ilə məşğul olan şəxslərin və sərnişinlərinin də gigiyenik vasitələrdən istifadə etməsi yoxlanılıb, tibbi maska ilə bağlı tələblərə riayət etməyənlər barəsində inzibati protokollar tərtib edilib.

# "BORC VƏ ŞƏRƏF"İN BORCU VƏ ŞƏRƏFİ

## Və ya Azərbaycan Nəqliyyat Polisinin keçdiyi yolun bələdçisi

*(Polis general-mayoru Oktay Əliyevin"Borc və şərəf" kitabı haqqında düşüncələr)*

***Polis peşəsi ağır peşədir, o, bir tərəfdən cəsarət, şəxsi mətanət, ikinci tərəfdən dərrakə, elm, təhsil, təcrübə tələb edir.***

***HEYDƏR ƏLİYEV***
***Ümummilli lider***

**İşlədiyim Goranboy rayonu Səfikürd kənd orta məktəbinin kitabxanasında məktəbimizin məzunu olmuş Polis general-mayoru Oqtay Cəlil oğlu Əliyevin müəllifi olduğu "Borc və şərəf" kitabı bir neçə ildən sonra yenidən diqqətimi çəkdi. Uzun illər pedaqoji işlə məşğul olduğum üçün hər bir gəncin ömür yolunun müəyyənləşdirilməsinə örnək ola biləcək bu kitabı bir daha mütaliə elədim.**

Kitab Azərbaycan polisinin 85 illiyinə və nəqliyyat polisinin keçdiyi inkişaf yoluna həsr olunur. O, elmi, publisistik, tatixi (salnamə), bədii, bir üslübda yazılmış, illüstrasiyalarla zəngin, nəfis tərtibatla hazırlanmış və 2003-cü ildə "Şuşa" nəşriyyatında nəşr olunmuşdur.

"Ön söz"dən sonra iri formatda ulu dağların fonunda kimsəsiz yollarla baş alıb gedən dəvə karvanı təsvir olunmuşdur. Şəklə baxdıqca adamın xəyalı uzaq keçmişlərə uçub gedir. Yollar kimsəsiz, uzaq, enişli-yoxuşlu, təhlükəli... Karvanlar Güneyə, Quzeyə, Məğribə, Məşriqə yollanır. Sarbanlar bu qərib yolların ən qədim yolçularıdır. Zəngin karvanları təkcə onların taleləri qorumur. Müəllifin təbirincə desək: "İlk nəqliyyat vasitəsi insan özü olduğu kimi, ilk polis də elə insanın özü olmuşdur".

Bu uzaq yollara bələdçilik edən "Borc və şərəf" kitabı öz borcunu şərəflə yerinə yetirən polis əməkdaşlarının həyatına güzgü tutur.

***Müəllif kitaba zəngin tarixi faktlar, elmi mülahizələr, rəvayət və xatirələr, əməliyyat tarixçələri əlavə etməklə onu asayiş mütəxəssislərinin, hüquq-mühafizə işçilərinin, tarixçilərin və geniş oxucu auditoriyasının maraq dünyasını təmin edən yetkin və mükəmməl bir əsər səviyyəsində təqdim edir.***

***Kitab polis orqanlarında ən kiçik pillədən ən uca pilləyə yüksəlmiş peşəkarın qələmindən çıxmış bir əsərdir.***

Kitab Azərbaycan polisinin 85 ildə keçdiyi şərəfli yolun zəngin salnaməsidir.

Kitab nəqliyyat polisinin - karvan mühafizəçisindən quruda, suda, havada, kosmosda nəqliyyat-kommunikasiya sisteminin real zəmanəti kimi fəaliyyət göstərən etibarlı bir qüvvəyə çevrilmiş bir qurumun təkamül tarixinin xronologiyasını çox dəqiq, obyektiv və incəliklə əks etdirir.

Kitab böyüməkdə olan gənc nəslin Azərbaycançılıq və dövlətçilik ideyaları ruhunda tərbiyələnməsinə istiqamət verən bir bələdçidir.

Kitab kriminal hadisələrin qarşısının alınması və açılması istiqamətində gənc polis işçilərinə yol göstərən ustad nəsihətəri toplusudur. Kitab oxucuya kriminal roman təsiri bəxş edən oxunaqlı əsərdir.

***"ƏDALƏT" qəzetinin baş redaktoru***
***İradə xanım Tuncaya***

***Hörmətli redaktor, işlədiyim Goranboy rayonu Səfikürd kənd orta məktəbinin məzunu Polis general-mayoru Oqtay Cəlil oğlu Əliyevin nəsillərə örnək ola biləcək ömür yolunu vərəqləyərkən cənab generalın müəllifi olduğu "Borc və şərəf" kitabı diqqətimi çəkdi.***

***Kitabda Azərbaycan polisinin 85 illiyinə və nəqliyyat polisinin keçdiyi inkişaf yoluna güzgü tutulur. Müəllif kitabına elmi, publisistik, bədii, illüstrativ çalarlar verməklə onu yetkin bir əsər səviyyəsində təqdim edir.***

***Hörmətli İradə xanım, kitab haqqında öz xırda mülahizılırimi jurnalist qayğıkeşliyinizə arxayın olaraq adınıza ünvanlayıram. Ondan qəzetinizin saylarından birində istifadə olunması ümidindəyəm.***

***Əvvəlcədən Sizə öz dərin təşəkkürlərimi ifadə edirəm.***

***İsgəndər Səklikov***
***Azərbaycan Respublikasının***
***Əməkdar müəllimi, Goranboy rayonu***

Kitaba, kitab nəşr olunan zaman Azərbaycan Respublikası Daxili İşlər naziri olmuş general-polkovnik R.İ.Usubov, Azərbaycan Respublikası Nəqliyyat naziri omuş Z.A.Məmmmədov, Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Hacı Allahşükür Paşazadə, Daxili İşlər nazirinin müavini olmuş general-leytenant Ə.Ələkbərov və general-leytenant O. Zalov, Azərbaycan Dövlət Dəmir Yollar İdarəsinin rəisi əvəzi olmuş M.Mehdiyev, həmçinin müəllif özü "Ön söz" yazmışdır.

Ümumiyyətlə, kitab "Ön söz"dən, "Son söz"dən və 3 hissədən ibarətdir.

Birinci hissə "Nəqliyyat polisi - ən qədim xidmət..." adlanır.

Bu hissədə VII əsrdən başlamış 1917-ci ilədək olan zaman kəsimində nəqliyyat polisinin keçdiyi tarixi yol xronoloyi ardıcıllıqla əks olunur.

Kitabın ikinci hissəsi "Azərbaycan Xalq Cümhuriyyəti, Azərbaycan SSR və Müstəqil Azərbaycan Respublikası dövrləri" başlığı altında təqdim olunur. Bölmə yeni stil ilə 10 noyabr 1917-ci il tarixdən - Sovet fəhlə-kəndli milisinin yarandığı vaxtdan günümüzə qədər olan dövrü əhatə edir. Burada çox nadir və əhəmiyyətli məlumatlar toplanmışdır.

***Həmin hissədə qeyd edilən tarixi zamanda nəqliyyat polisinin keçdiyi şərəfli dövrün ən əlamətdar məqamları qısa və dolğun şəkildə, xronoloji ardıcıllıqla xatırlanır. Müəllif əsərini dəqiq tarixi faktlara əsaslanaraq çox səmimi və oxunaqlı dildə qələmə almışdır. Əsas diqqət bütün Azərbaycan vətəndaşlarının ən ümdə arzusu olan müstəqillik dövrümüzün mühafizə tədbirlərinin təsvirinə yönəlmişdir.***

Müəllif Ümummilli liderimiz Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycan Polisinin qazandığı nailiyyətləri böyük qürur və məhəbbət hissi ilə təsvir edir və bu dövrün Azərbaycan polis sisteminin intibahı dövrü olduğunu tarixi faktlarla əsaslandırır. Kitab Azərbaycan Nəqliyyat Polisinin tarixinə həsr olunmuş ilk kitab olduğu üçün tarixin heç də hamıya məlum olmayan bir sıra qaranlıq məqamlarına işıq salır.

***Müəllif Ümummilli liderimiz Heydər Əliyev ideyalarına sadiq qalaraq əsərdə ana xətt kimi insan amilini ön plana çəkir.***

***General Oqtay Əliyev nəqliyyat polisinin keçdiyi tarixi yolu işıqlandırdıqca Azərbaycanda və dünyada baş vermiş ən mühüm tarixi hadisələri özünəməxsus üsullarla şərh edir. O, tarixçi, tədqiqatçı, təhqiqatçı, əməliyyatçı və hüquqşünas səriştəliliyi ilə tarixin keçməkeşli dolaylarında baş vermiş hadisələrin bir-biri ilə üzvi əlaqələrini çox incə və inandırıcı şəkildə təsvir və təqdim edir.***

Kitabda diqqət çəkən məqamlardan biri də nəqliyyat polisi sistemində qədim dövrlərdən günümüzə qədər çalışan işçilərin vəzifə və rütbələrinin xatırlanmasıdır. Bu terminlərin çoxusu tarixin səhifələrində qalaraq unudulmuşdur. Müəllif belə terminləri xatırlamaqla onlara sanki yeni həyat verir. Bu baxımdan əsər polisin tarixi ilə məşğul olan alimlər, tədqiqatçılar, müəlliflər və ədiblər üçün geniş əhatəli bir mənbə ola bilər. Məlum olduğu kimi Azərbaycanımız Şərq ilə Qərbin, Cənub ilə Şimalın qovuşduğu ərazidə yerləşir. Onun bu coğrafi mövqeyi vətənimizə bir çox həyati əhəmiyyətli dəniz, quru, hava yollarının qovşağı olmaq imkanı verir. Təbii ki, bu da nəqliyyat polisi əməkdaşlarımızın məsuliyyətini xeyli artırır. Müəllif öz zəngin həyat və peşə təcrübəsinə əsaslanaraq vətən polisinin nəqliyyat-kommunikasiya təhlükəsizliyi istiqamətində




apardığı ən mühüm əməliyyatları təsvir edir.

Əsərdə nəqliyyat vasitələrinin sadədən-mürəkkəbə doğru inkişafı (təkamülü) fonunda nəqliyyat-mühafizə sisteminin mükəmməlləşməsi ardıcıllığı da çox dəqiqliklə təqdim olunur. Bu zaman dünyanın inkişaf etmiş ölkələrində nəqliyyatın və onun polis sisteminin özəlliklərini dəqiq tarixi faktlara əsaslanaraq təsvir edilir.

Nəqliyyat polisi gecə-gündüz quruda, suda, havada yolçuların təhlükəsiz səfərlərini təmin edir.

***Kitaba nəqliyyat polisinin tarixini əks etdirən bir sıra fotoşəkillər də daxil edilmişdir. Bu fotoların bəziləri ilk dəfə çap olunur. Onlar uzun fəaliyyət dövrünün əyani yadigarları, tarixin kiçik və mənalı anlarını özündə yaşadan və əks etdirən sənədlərdir. Fotoşəkillər çox, xatirələr zəngin, xəyallar sevinc qanadlı...***

"Şəhid ailələri ilə görüş", "Nazirlik kollegiyasında hesabat", "Azərbaycanın Milli Qəhrəmanı Ə.Hacıyevin dəfn mərasimi", "İstintaq əməliyyat qrupu hadisı yerində", "Veteranlarla görüş" və ya başqa kadrlar... Fotolar çoxdur. Sanki onlar dil açıb danışır...

Budur Ümummilli liderimiz Heydər Əliyev Oqtay Əliyevə general paqonu və orden təqdim edir.

O isə öz növbəsində Ümummilli liderimizə və cənab nazir Ramil Usubova öz minnətdarlığını ifadə edir. Qürurlu anlardır. Şərəfli əməyə layiqli qiymət...

Ümummili liderimiz belə demişdir: "Azərbaycan polisi, daxili işlər oranları daim xalqla olmuş, xalqına, dövlətinə sədaqətlə xidmət etmişdir".

Müəllif əsərinə nə qədər təvazökar libas biçsə də, özü haqda nə qədər az söz açsa da bu qədər zəngin məlumatın zəngin bir həyat yolu keçmiş mütəxəssisin qələm məhsulu olduğu aydın görünməkdədir.

Zamanın qanunların tam formalaşmadığı dövrlərində nəqliyyat mühafizəçilərinin çətin və təhlükəli iş şəraitləri sənədlərin və rəqəmlərin dili ilə, mütəxəssis səriştəliliyi ilə təsvir olunur.

Müəllif Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyəti dövründə Azərbaycan polisinin təşəkkül mərhələlərini böyük məhəbbət və qürur hissi ilə qələmə almışdır.

O yazır: "...Azərbaycan Xalq Cümhuriyyəti (Azərbaycan Demokratik Respublikası) yarandıqdan sonra, 1918-ci il iyunun 25-də hökumətin qərarı ilə ilkin tarixi təcrübə kimi Azərbaycan ərazisində bütün dəmir yollarının mühafizəsi Daxili işlər Nazirliyinin sərəncaməna verildi. İyunun 30-da Azərbaycan polisinin səlahiyyətlərinin artırılması barədə qərar qəbul edildi..."

***Oqtay Əliyev həmin vaxtdan başlayaraq Azərbaycan Daxili İşlər orqanlarında aparılan islahatlardan və yeniləşmələrdən söz açır. O, bu sahədə Ümummilli lider Heydər Əliyevin qayğısını xüsusi ilə qeyd edir. O yazır: "... 1969-cu ildən başlayaraq Azərbaycan polisinə arxa olmuş Heydər Əliyev cənabları şəxsi heyətin əməliyyat-xidmət fəaliyyətinin yüksək səviyyədə keçməsinin və onların peşəkarlığının artırılmasının qayğısına qalmışdır..."***

Kitabın üçüncü hissəsi "Azərbaycan nəqliyyat polisi həmişə döyüş postunda" adlanır.

Müəllif buraba nəqliyyatda törədilən və açılan spesifik və xarakterik cinayətlərin materiallarından fraqmentlər də təqdim edir. Bu bölmə oxucuya təcrübəli müəllif qələmindən çıxmış sənədli və bədii kriminal bir əsərlər təsiri bağışlayır.

Bu hissədə də müəllif öz yaradıcılıq ənənələrinə sadiq qalaraq hadisələri çox səmimi şəkildə təsvir edir.

Kitaba "1990-2003 illər ərzində baş vermiş və Nəqliyyat polisi orqanlarında qeyd olunmuş cinayətlər haqqında müqayisəli məlumat cədvəli, DİN NBPİ orqanlarının strukturlarını zonalar üzrə əks etdirən qrafik də daxil edilmişdir.

Bundan əlavə kitabın sonunda iki hissədən ibarət tarixi materialların qısa xülasəsi verilmişdir.

***"Son söz" olaraq general cəmi iki səhifədə öz hisslərini çox səmimiyyətlə bölüşdürür: "...Vaxt necə də tez keçir..."***

***Sonra o, bu əsərin yaranması səbəblərini belə ifadə edir: "...Mən bu kitabı ona görə ərsəyə gətirdim ki, hər bir polis əməkdaşı, serjant və zabit onu oxuduqdan sonra öz qohumlarına və dostlarına fəxrlə deyə bilsin ki, mən peşəmi seçməkdə yanılmamışam! Mən nəqliyyatda polis idarəsinin əməkdaşıyam! İnanıram ki, bu belə olacaqdır".***

***Oqtay Əliyevin "Borc və şərəf" kitabı böyüməkdə olan gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində və gənc polis işçilərinin peşə hazırlığının yüksəldilməsində çox mühüm əhəmiyyətə malik olan bir əsərdir. Müəllif deyir: "Polis həm də tərbiyəçidir".***

O, bu əsərində özünün tərbiyəçilik və nəsillərə nümunə olmaq amalına sadiq qalmışdır.

Oktay Əliyev sadə polis əməkdaşından general zirvəsinə qədər çox mənalı bir ömür yolu keçmişdir.

Bu ömür yolu şagirdlik, tələbəlik cığırlarından başlanğıc almış, müxtəlif vəzifələrdə bərkimiş, Birinci Qarabağ müharibəsində və ondan sonrakı dövrdə vətənpərvərlik nümunəsinə çevrilmiş, xalqımız, dövlətimiz, Ümummilli liderimiz Heydər Əliyev və möhtərəm prezidentimiz İlham Əliyev tərəfindən dəfələrlə dəyərləndirilmişdir. Bir sözlə, Oqtay Əliyev fəaliyəti dövründə sıravilikdən generallığa yüksələrək öz borcunu şərəflə yerinə yetirən ustad polis mütəxəssisidir.

**Biz oxucular Polis general-nayoru Oqtay Əliyevə cansağlığı, uğurlar diləyir və ondan yeni-yeni əsərlər gözləyirik. Oktay Əliyev özünü polis peşəsinə həsr etmiş pedaqoq təbiətli, tərbiyəçi generaldır.**

**İsgəndər Səklikov**
**Əməkdar müəllim,**
**Goranboy rayonu**

# Məzuniyyətə çıxa bilənlərdənsinizmi?..

## Özəl sektorda çalışanların çox az qismi ödənişli məzuniyyət hüququndan istifadə edə bilir

**Araşdırmalar göstərir ki, istirahət etmədən, bir ildən artıq işləyənlərin əmək məhsuldarlığı təxminən 20-25 faiz azalır. Nəticədə isə belə işçilərin çalışdığı müəssisələrdə görülən işin keyfiyyəti aşağı düşür. Bu hesablamanın nəticələrinə inansaq, hazırda Azərbaycandakı əksər müəssisələrdə çalışanların məhsuldarlıq göstəricisindən heç danışmağa dəyməz. Çünki ölkədəki özəl müəssisələrin çoxunda illərlə çalışan işçilərə istirahət vermək müəssisə rəhbərlərinin yadına düşmür. İşçilər isə çətinliklə tapdıqları iş yerini itirməmək üçün məzuniyyət hüquqularının təmin olunmasını tələb etmirlər. Belə fasiləsiz iş rejimi ya işçilərin səhhətinə zərbə vurur, ya da onlar üzərlərinə düşən işi lazımi şəkildə yerinə yetirmirlər.**

Avtobus sürücüsü 59 yaşlı Aslan Məmmədov bizimlə söhbətində bildirdi ki, sonuncu dəfə Sovet dövründə məzuniyyətdə olub: ”Oğul, Sovet hakimiyyətini pisləyirlər. Amma vaxtlı-vaxtında məzuniyyətə çıxırdıq, 13-cü maaş verirdilər. Avtobus sürücüsünün işi ağır olduğu üçün növbəli sistemdə işləyirdik. Amma indi səhər obaşdandan 6-da işə çıxırıq, bir də gecə saat 2-də qayıdırıq. Elə vaxt olur ki, planı verə bilmirik. Hə məzuniyyət, nə istirahət, oğul, plan dərdindəyik.”

Çörək sexində çalışan 46 yaşlı Lalə Mirzəyeva isə məzuniyyət sözünü unutduğunu bildirdi: ”Sizin ”nə vaxt məzuniyyət olmusunuz?” sualınız məni çaşdırdı, elə bildim analıq məzuniyyətini deyirsiniz. Sonuncu dəfə məzuniyyətdə olmağım yadıma gəlmir. Ümumiyyətlə, indi məgər işçilərə məzuniyyət verirlər ki? Babat pul versinlər, məzuniyyətləri özlərinə qalsın...”

Yeri gəlmişkən, Əmək Məcəlləsinə görə, əmək şəraiti və əmək müqaviləsininin müddətindən asılı olmayaraq bütün işçilərə məzuniyyət verilməlidir. Məzuniyyətdə olduğu müddət ərzində işçinin iş yeri, vəzifəsi və orta aylıq əmək haqqı saxlanılır. İşçilərə əsas məzuniyyət 21 təqvim günü müddətində verilir. Rəhbər işçilərə 30, pedaqoji işçilərə isə 56 günlük məzuniyyət müəyyən olunub. Uşaqlı qadınlara əsas məzuniyyətdən başqa əlavə məzuniyyət də düşür. 14 yaşına qədər 2 uşağı olan qadınlara 2 gün, bu yaşda 3 və daha çox uşağı olanlara və yaxud 16 yaşınadək əlil uşağı olanlara isə 5 günlük əlavə məzuniyyət verilməlidir. Amma arzu edənlər öz hesabına məzuniyyət də götürə bilərlər. İşçilərə qohumluq borcunun yerinə yetirilməsi, ailə-məişət problemlərinin həlli, təhsil almaq, yaradıcı, elmi işlə əlaqədar işdən ayrılma zərurəti yarananda ödənişsiz məzuniyyətə çıxmağa icazə verilir.

Yeni işə başlayan şəxslər isə yalnız 6 ay çalışandan sonra məzuniyyət hüququndan istifadə edə bilərlər. Ştatda olmayan, müqavilə yolu ilə çalışan işçilərin müəssisə ilə bağladıqları müqavilədə də mütləq məzuniyyət müddəti göstərilməlidir.

Bundan başqa, Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda xəsarət (yaralanma, travma, kontuziya) alan işçilər, Azərbaycanın Milli Qəhrəmanları, Sovet İttifaqı Qəhrəmanları, 1941-1945-ci illər müharibəsində döyüş əməliyyatlarında iştirak etmiş, habelə hərbi xidmətdə olmuş, lakin döyüş əməliyyatlarında iştirak etməmiş hərbi qulluqçular, İstiqlal ordeni ilə, habelə Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün müdafiəsi ilə bağlı digər dövlət təltifləri ilə təltif olunmuş işçilər də bu kateqoriyalara aiddir.

Amma əksər hallarda işəgötürənlər işçilərinin nəinki qanunda nəzərdə tutulduğu kimi 21 gün, heç bircə həftə də istirahət etmələrinə şərait yaratmırlar. Sosioloq Ruslan Amaşovun sözlərinə görə, bu sahəyə nəzarət zəif olduğundan, indi yalnız dövlət sektorunda işləyənlər məzuniyyətə çıxa bilir. Özəl sektorda işləyənlərin isə əksər hallarda məzuniyyət hüququ tanınmır.



R.Amaşov deyir ki, işəgötürənlərin işçilərə məzuniyyət verməməkdən ötrü cürbəcür üsullara əl atır: ”Əksər təşkilatlar qeyri-qanuni olaraq müvəqqəti müqavilə sisteminə keçib. Məsələn, işçilərlə bir illik kontrakt bağlayıb, onlara bildirirlər ki, işə müvəqqəti götürüldüyünüzə görə, sizə məzuniyyət düşmür. Halbuki müqavilə müvəqqəti bağlansa belə, yenə də işçilərin məzuniyyətə çıxmaq hüququ var. Və yaxud, ticarət şəbəkəsində işçilərin qeydiyyatı aparılmır. Bu yaxınlarda bir gülünc rəqəmlə qarşılaşdım. Guya, Azərbaycanda restoran və şadlıq evlərində işləyənlərin ümumi sayı 6 min nəfərdir. Bu hesabla, Azərbaycanda gərək cəmi 10-15 restoran olsun. Halbuki ən xırda kafedə azı 6-7 nəfər işləyir. Böyük restoranların isə 400-500 işçisi var. Amma bu müəssisələrdə rəsmi işçi kimi neçə nəfərin qeydiyyat olduğu ilə maraqlansaq, məlum olar ki, yalnız 5-6 belə işçi var. Qalan işçilər isə qeyri-rəsmi çalışır. Aydın məsələdir ki, bu halda məzuniyyətdən söhbət gedə bilməz”.

Sosioloq bildirir ki, işəgötürənlər məcəlləyə sözügedən dəyişikliklərdən sui-istifadə edərək, işləyənlərin məzuniyyət hüququnu bir az da məhdudlaşdıra bilərlər.

Onun sözlərinə görə, dəyişikliyin həm müsbət, həm də mənfi tərəfləri var:

”Əmək qanunvericiliyinə görə, işləyənlərin məzuniyyət müddəti bir ildən o biri ilə müstəsna hallarda keçə bilər. O da yalnız bir dəfə. Amma bizdə illərlə məzuniyyət götürməyən işçilər var. Deməli, qanunvericiliyin bu hissəsi praktikada özünü doğrultmur. Ona görə də bu problemi hər hansı bir qaydada həll etmək zərurəti ortaya çıxmışdı. Bunun yeganə yolu isə məzuniyyətin pul əvəznin verilməsi idi. Məsələnin mənfi tərəfi ondan ibarətdir ki, hər bir işçi gündəlik, həftəlik və illik istirahət hüququna malikdir. Bu işçilərin sağlamlığı və əmək məhsuldarlığı baxımından çox vacibdir. Ona görə də məzuniyyətin pulla əvəzlənməsi yalnız müstəsna hal kimi nəzərdə tutulmalı, qaydaya çevrilməməlidir. Çünki insan uzun müddət istirahət etmədən çalışsa, sağlamlığını itirə bilər. İşəgötürənlər bu dəyişiklikləri əllərində əsas götürüb, işçiləri məzuniyyətə göndərməyəcəklər. Digər tərəfdən, işçilər özləri sağlamlıqlarını 2-ci plana keçirib, daha çox pul qazanmaq üçün məzuniyyətə çıxmaq istəməyəcəklər. Məsələn, mənim tanıdığım həkimlərin hamısı məzuniyyət dövründə işdə olurlar. Çünki onların iş vaxtı maaşdan əlavə qazancları da olur. Belə iş yerləri çoxdur”.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən bildirdilər ki, beynəlxalq konvensiyaların tələblərinə görə, hər bir halda işçiyə faktiki məzuniyyət verilməlidir:

**”Bəzi işçilər əmək məzuniyyətini öz istəklərinə uyğun şəkildə, əlverişli saydıqları vaxt götürə bilərlər. Bunlar 14 yaşınadək iki və daha çox uşağı olan və ya sağlamlıq imkanları məhdud uşağı olan qadınlar, 16 yaşınadək uşaqları təkbaşına böyüdən valideyn və ya qəyyumlar, hərbi qulluqçunun xanımları (əri), əlillər, müharibə veteranları, Çernobıl AES-də qəzanın nəticələrinin aradan qaldırılması zamanı radioaktiv şüalanmaya məruz qalaraq sağlamlığı pozulmuş və ya şüalanma xəstəliyinə düçar olmuş şəxslər, yaşı on səkkizdən aşağı olan işçilər, işləməklə yanaşı, təhsil alan şəxslərdir”, - deyə nazirlikdən bildirdilər.**

**İLTİFAT**

### *Ömər Çelikdən ABŞ-a çağırış*



**ABŞ Dövlət Departamentinin prezidentimizi hədəf almasını kəskin şəkildə qınayırıq.**

Bunu Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının (AKP) sözçüsü Ömər Çelik Tvitter hesabında qeyd edib.

"Prezidentimizi antisemitizmdə ittiham etmək əsassız və yanlış bir yanaşmadır. Bu, Prezidentimiz haqqında söylənən yalandır. ABŞ Dövlət Departamentini prezidentimizin fikirlərini diqqətlə dinləməyə dəvət edirik. Bu açıqlama edənlər Prezidentimizi diqqətlə dinləsələr, ədalət və sülh üçün addım atmış olacaqlar", - Çelik bildirib.

### *“Forbes”: Amerikalılar Yaxın Şərqdə zəiflədi*



**Rusiya, yaxud Çin ilə mümkün toqquşmada ABŞ Hərbi Hava Qüvvələri (HHQ) ciddi problemlər yaşayacaq.**

Bu barədə yazar Devid Eksin "Forbes" üçün qələmə aldığı məqalədə deyilir. O bildirib ki, onillər ərzində qiyamçıların böyük və rahat bazalardan bombardmanları ABŞ HHQ-ni eyni gücdə rəqiblərinə qarşı açıq konfliktdə hazırlıqsız vəziyyətə salacaq qədər zəiflətdi. "Əgər Rusiya, yaxud Çin hərəkətə keçsə, raketlər uçsa, o zaman amerikan qüvvələri onlara adekvat reaksiya vermək üçün uyğun baza tapa bilməyəcəklər. Amerikan pilotlarının ağır vəziyyətə düşməsinə səbəb onların Yaxın Şərqdə aşağı intensivlikdə döyüşmələri olub. Amerikalılar çevik reaksiya verməyə hazır deyillər",- deyə D.Eks bildirib.

### *NATO-dan Ukraynaya: İslahatları davam etdir!*



**Rusiya Ukrayna və Gürcüstanın suverenliyi və ərazi bütövlüyünü pozmaqla yanaşı, sabit bir davranış sərgiləməyə davam edir.**

Bunu NATO-nun Hərbi Komitəsinin sədri, general Stüart Piç deyib. NATO generalı Ukraynanı islahatları davam etdirməyə çağırıb: "Hərbi Komitə Ukraynanı böyük islahatları davam etdirməyə, bütün ukraynalılar üçün təhlükəsizliyi və inkişafı gücləndirməyə dəvət edir".

**MEHRİBAN**

# DEYİRLƏR Kİ, TOY OLACAQ...



**Yazının sərdövhəsi mənə məşhur bir filmimizin - "O olmasın, bu olsun" kinosunda Məşədi İbadın dostlarını xatırlatdı. Məşədi İbadın dostları çox səbirsizliklə onun toyunu gözləyirlər. Çünki dostlar bilirlər ki, Məşədi İbad varlı adamdır və bu ortada yeyib qıraqda gəzənlərə çoxlu pul xərcləyəcək. Ona görə də Məşədi İbadı görən kimi çiçəkləyir çırtlayır və hamısı bir ağızdan dillənirlər: "Deyirlər ki toy olacaq, Məşədi İbad qız alacaq".**

İndi biz uzun müddətdir ki, pandemiya ilə əlaqədar olaraq toy-düyün, hətta nişan mərasimi belə keçirmirik. Təbii ki, belə bir durumda sanki insanların əli-qolu bağlanıb və dərd üstündən dərd gəlir. Minlərlə, on minlərlə adam çox böyük səbirsizliklə Nazirlər Kabineti yanında Operativ Qərargahın çıxaracağı qərarı gözləyirlər. Zarafat deyil ey, düz bir ildən çoxdur ki, ölkədə heç kim balasına toy edə bilmir Düz bir ildən çoxdur ki, insanları dərd-kədər basıb Düz bir ildən çoxdur ki, hamı səbirsizliklə toyların keçirilməsi ilə bağlı çıxaracaq qərarı gözləyir...

Ancaq hələ ki bu qərar verilməyib. Cəmiyyət və ictimaiyyət arasında belə bir fikir var ki, iyunun əvvəllərində ölkədə müəyyən məhdudiyyətlərlə toyların keçirilməsinə icazə veriləcək. Ancaq elə adamlar var ki, bu məhdudiyyətlər vaxtında da kimlərinsə bığının altından keçəndən sonra toy eləməyi bacarıblar. Babalı deyənlərin boynuna, kimlərisə görməlisən və onlar "hə" deyəndən sonra gedib toyunu edə bilərsən. Bu nə dərəcədə həqiqətdir, həqiqət deyil, bu barədə dəqiq fikir söyləyə bilmərik. Dəqiq fikir bundan ibarətdir ki, hələ ki, ölkə ərazisində toyların keçirilməsi ilə bağlı heç bir dəqiq fikir yoxdur.

Təbii ki, iyun ayında toy eləmək üçün əlverişli şərait olur.




Ən azından şadlıq saraylarının salonlarında deyil, onların genbol həyətlərində bu toyu eləmək mümkündür. Üstəlik də rayon yerlərində açıq havada toy eləmək daha asandır. Ən azından ona görə ki, kənd yerlərində əksər adamların həyətyanı sahəsi bir hektara yaxındır və bu bir hektarda dədə-baba qaydası ilə çadır qurub çox qəşəng bir toy eləmək olar. İnanın, camaatın dədə-baba toyları üçün lap burnunun ucu göynəyib. Üstəlik də açıq havada olan toylarda heç virusa yoluxmaq da mümkün deyil. Təki tezliklə Operativ Qərargah razılıq versin, camaat da öz toy-düyününü eləsin.

Toylarla yanaşı iyun ayında metronun açılmasını da deyənlər var. Artıq Bakı şəhərində ictimai nəqliyyatdan istifadə edənlər lap boğaza yığılıblar. Çünki şəhərin bütün küçələrində avtomobil sıxlığı olduğu üçün yarım saatlıq yolu 2-2,5 saata getmək olur . Az qala Bakıda bütün günü tıxaclardı. Və bu tıxacların əziyyətini çəkən sürücülər və sərnişinlərdi. Deyilənlərə görə, bu gün Bakıda 4 milyona yaxın insan var. Onların hamısı ictimai nəqliyyatdan və şəxsi avtomobillərdən istifadə edirlər.

Deməli, metronun da yükü dediyimiz o nəqliyyat vasitələrinin üzərinə düşür.

**Bizim millətin sevinməyə və rahat yaşamağa mənəvi haqqı var. Necə ki otuz ildən sonra torpaqlarımız geri qaytarıldı və ağır yük çiynimizdən götürüldü. İndi də pandemiya şəraitindən Allahın köməkliyi ilə tezliklə çıxacağıq. Çünki xəstəliyə yoluxanların sayı günbəgün azalır və bir çox məhdudiyyətlər aradan qaldırılır. Və tezliklə eşidəcəyik ki, toylara da icazə verilir, metropoliten də işləyir. Və onda bir daha sevinəcək, çiynimizdən ağır yük götürüləcəkdir.**

**Faiq QİSMƏTOĞLU**

## *Avşar kəndində xatirə bulaq kompleksinin açılış mərasimi keçirilib*




*18 may 2021-ci il tarixdə Ağcabədi rayonunun Avşar kəndində Qarabağ müharibəsi şəhidlərinin xatirəsinə həsr olunmuş bulaq kompleksinin açılış mərasimi keçirilib. Açılış mərasimində rayon icra hakimiyyətinin nümayəndələri, hüquq-mühafizə orqanlarının əməkdaşları, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Ağcabədi rayon şöbəsinin rəisi polkovnik Ramil İsmayılov, ziyalılar, müəllimlər, kənd sakinləri, şəhidlərin yaxınları və mətbuat işçiləri iştirak ediblər.*

*Xatirə bulaq kompleksinin üzərində Vətən müharibəsi qəhrəmanı şəhid Azad Tapdıqovla yanaşı, Avşar kəndindən olan Birinci Qarabağ müharibəsinin şəhidləri, Azərbaycanın Milli Qəhrəmanı Namiq Abdullayev, Habil Qasımov, Fehruz Hüseynov, Cəbrayıl Vəliyev, Hafiz Mamedov, Xaqani Quliyev və Əhliman Ağayevin mərmər üzərində həkk olunmuş şəkilləri əksini tapıb. Sözügedən bulaq kompleksinə içməli su xətti çəkilmiş, ətrafı abadlaşdırılmış, gül-çiçək kolları və həmişəyaşıl ağaclar əkilmişdir.*

*Açılış mərasimində Nizami adına Avşar kənd tam orta məktəbinin şagirdləri vətən, torpaq və şəhidlərə həsr olunmuş şeirlər səsləndirmişlər. Tədbirdə kənd ağsaqqalı Elqayıt Kərimov, şair Zahid Eloğu, Avşar Eyvaz, kənd müəllimləri Güleyşə Quliyeva, Bəstəgül Cəfərova, Yasin Cəfərov, kənd icra nümayəndəsini əvəz edən Nizami Cəfərov, bələdiyyə sədri Bulud Quliyev və şəhid Azad Tapdıqovun döyüş yoldaşı Kamran Sadıqov çıxış edərək, şəhidlərin keçdikləri qəhrəmanlıq yolundan danışmış və xatirələrini bölüşmüşlər.*

***Adil MİSİRLİ***

# Vətən üçün döyüşən, dost üçün özünü fəda edən oğul - Çingiz Mikayılov zirvəsi

**Onu kəndimizdə hamı tanıyırdı... Çingiz Cəmil oğlu Mikayılov 1963-cü il avqustun 5-də Ağdam rayonu Şıxlar kəndində (Baş Qərvənd ) anadan olub. Atası kolxozda traktorçu, anası isə kolxozçu olaraq çalışırdılar. Ailənin böyuk oğlu idi, deyə, evin yükünü hələ kiçik yaşlarından çiyinlərində hiss etdi.**

Digər yandan da zəhmətkeş eyni zamanda çoxuşaqlı, bir az da kasıb ailədə böyüyürdü və zəhmətə erkən yaşlarından qatlaşdı. Bu azmış kimi o xarabaya çevrilmiş yurd-yuvanın sahibləri elindən-obasından pərən-pərən salınırdı.

Bu balacaboy, çəlimsiz , amma yurdsevər oğlan ermənilərin törətdikləri vəhşiliklərə dözmədi. Silaha sarılıb cəbhəyə yollandı. Azərbaycanın Milli Qəhrəmanı Şirin Mirzəyevin başçılıq etdiyi 836 saylı alayın kəşfiyyat rotasında döyüşlərə atıldı. Fərrux, Umudlu, Sırxavənd və bir sıra yaşayış məntəqələrimiz uğrunda etdik, atası Cəmil kişiyə, qardaşları Etibara və Ehtirama dərin hüznlə başsağlığı verib, igidlərimizin qisasını almaq üçün yenidən cəbhəyə yollandıq"

Bir dəfə Çingizin bacısı Xanabərlə söhbətimizdə o bildirdi ki, qardaşı şəhid olduqdan sonra ona layiq olduğu təltif verilmədi:" Çingizin komandiri Şirin Mirzəyev şəhidin sənədlərinin səlahiyyətli qurumlara verilməsini və onun təltif olunmasının vacibliyini söyləmişdi. Əmr də hazırlanmışdı. Təəssüf ki, bu əmrdən bir həftə sonra Mirzəyev də şəhid oldu və qardaşımın adı bu günə qədər heç bir təltiflə anılmayıb".







Çingiz həyətyani sahələrində, şəxsi təsərrüfatlarında nəinki anasına- bacısına kömək olardı. Həm də atasına çöl işlərində arxa - dayaq idi. Bütün günü tarlada çalışar, mal-qaranı otarar, ot çalar barama qurdlarını yemləmək üçün çəkil (tut) yarpaqları toplayardı. Ətrafdakılar -bəzi sinif yoldaşları, dostları onun evə bağlılığını, özünü ailəsinin problemlərinə həsr etməsinə görə, ona yuxarıdan aşağı baxardılar. Çingiz onlara fikir verməzdi, başını aşağı salıb işini görər, atmacalara cavab verməzdi. Beləcə qayğısız uşaqlıq illərinin əvəzinə qayğılarla yüklənmiş bir uşaqlığının nə vaxt gəlib kecdiyindən də xəbəri olmadı. Zaman tələsik keçirdi sanki...Artıq böyümüşdü. Şıxlar kənd orta məktəbini bitirdi. Qarşıda hərbi xidmət vardı. Iki illik əsgərliyini başa vurdu. Doğma kəndinə döndü. Zəhmətsevərlik canında vardı. Yurduna geri dönəndə də dinc əməklə məşgul olmaq istəyirdi. Əvvəl "Gülçülük" sovxozunda sonra isə şəhərdəki zavodların birində fəhlə kimi işə başladı. Amma dinc əməklə məşğul olmağın zamanı deyildi. Bunu Çingiz aydın görürdü, anlayırdı.

Zaman o zaman idi ki, dinc, günahsız soydaşlarımız dişinə qədər silahlanmış erməni terror dəstələrinin və Ermənistan silahlı qüvvələrinin hücumu nəticəsində faciəli şəkildə qətl edilir, əsir və girov götürülür, minbir əziyyətlə tikib qurduqları evləri dağıdılır, yurd yuvaları xarabaya çevrilirdi. xüsusi rəşadət göstərdi. Onun döyüş dostlarının dediklərinə görə, təbiətcə sakit və mülayim olan Çingiz döyüş zamanı tamamilə başqalaşar, düşmənə nifrəti ilə, cəsarəti ilə seçilərdi. Döyüş yoldaşı Rafiq Kərimov Çingiz Mikayılov şəhid olduqdan sonra onun nəşini Şıxlar kəndinə gətirdiyi günü belə xatırlayır: 1992-ci ilin may ayının əvvəlləri idi. Fərrux uğrunda qanlı döyüşlər gedirdi. İsmayıllı rayon Kürdmaşı kəndindən olan döyüşçü İlqar Məmmədov ermənilərin mühasirəsinə düşür.

Çingiz bunu görür və həyatını təhlükəyə ataraq dostunu mühasirədən çıxartmaq üçün tələsiyir. Yaralı İlqara çatar-çatmaz snayper gülləsi Çingizi məqsədinə tərəf irəliləməyə imkan vermir. Sonradan ordumuzun əsgərləri hər iki əsgərin nəşini oradan götürür.

Yaralı İlqarın başı əzilib öldürülmüş, Çingiz isə qanaxmadan ölmüşdü. Çingizin nəşini kəndinə apardıq, yas mərasimində iştirak

Kəndin ilk şəhidiydi. O vaxt- Çingiz Mikayılovun şəhadətə yüksəlməsindən sonra şəhidimizin təhsil aldığı orta məktəbə onun adı verildi. Çox heyf ki, Şıxlar kəndi də 1994-cü il 26 apreldə ermənilər tərəfindən işğal olunduqdan sonra əhali pərən-pərən düşdü, məktəbin adı da unuduldu.

44 günlük müharibədən sonra Azərbaycanın rəşadətli ordusu torpaqlarımızın böyük bir hissəsini, o cümlədən AğdamınŞıxlar və digər kəndlərini işğaldan azad etdi. Əminik ki, tezliklə pərən-pərən düşmüş Şıxlar camaatı öz yurd -yuvasına dönər, kənddə salınacaq yeni məktəb binası inşa edər və həmin məktəbə yenidən igid eloğlumuz Çingiz Mikayılovun adını verərlər.

**Bütün şəhidlərimizin müqəddəs ruhu qarşısında baş əyirik!**

**Əntiqə Rəşid**

# Əsgər-millət yaradan "problem"

**(əvvəli ötən sayımızda)**

**Onun üçün siyasət təbliğat idi. Ən əsası isə alovlu çıxış etmək idi. Detallarıyla məşğul olmağa vaxtı yox idi. Bu tipli işləri ətrafındakı birinci halqadan olan adamlara tapşırmışdı. 1936-cı ildəki 4 illik inkişaf planıyla Almaniyanı hərbi sənaye ölkəsinə çevirən Herman Göring bunlardan biri idi. Onun səy və iradəsiylə Almaniya ağlagəlməz dərəcədə inkişafa daxil olmuş, xüsusilə silah istehsalını hədəfləyən ağır sənaye həmləsiylə Almaniyadakı işsizlik buxarlanmışdı. Almanların belə bir rejimi dəstəkləməsinin cavabı isə bu ilk illərdəki tabloda yatırdı. Artıq Fürer adını alan Hitler onlara vəd etdiyi şeyi - gücü vermişdi. Küçədəki alman gələcəyə inamla baxırdı. Böyük bir millət olduqlarını yenidən hiss etməyə başlamışdılar. İşsizlik aradan qalxmışdı. Üstəlik kəlmələriylə dinləyənləri hipnoz edən liderləri var idi. Daha nə istəyərdilər ki?**

## *Əsgər-millət yaradılır*

Hitler də hər diktator kimi kütləni sehrləməyindən istifadə etdi. İlk dəfə yaşadığını, bir kimsə olduğunu ordunun sıravisi olanda hiss etmişdi. O halda bu hər kəs üçün keçərli olmalı idi. Almaniyanın mülki üzünü müharibəyə çevirən Hitler almanları qısa zamanda əsgər-millətə çevirdi. Başda gənclər olmaqla toplumun hər bir üzvü Nasional Sosialist ideologiyasına sadiq formada təşkilatlandı. Hitler Jugend (Hitler Gəncliyi) şüarı altında qız və oğlanları tipləşdirməyə başladı. Madam ki, gənclər rejimin təminatıydı, o halda onlara diqqət ayrılmalı idi. Dövlət bütün imkanlarını yeni bir Nasist Gəncliyi yaratmağa səfərbər etdi. Idman salonlarından festivallara, nəhəng stadion nümayişlərinə qədər "birlik və bərabərlik bütü"nün yaradılması üçün hər şey edildi. Bu baş tutacaqdı...

1936-cı il olimpiya oyunlarına ev sahibliyi edən Berlin eyni zamanda Hitlerin də `Yeni Almaniya`sını dünyaya tanıtmasına platforma oldu. Oyunlar ərzində yəhudilərə qarşı təzyiq və hücumlara fasilə verildi. Nasistlər `yaxşı uşaq` oyunu oynayırdı. Hər şey mükəmməl şəkildə təşkil olunmuşdu. Saat kimi işləyən bir cəmiyyət Fürerin ardınca yürüyürdü.

## *Bu qədər danışmaq yetər, indi işə keçmək vaxtıdır*

***Hitler işğalçı siyasətini göstərməyə gecikmədi. Öncə silahsızlaşdırılmış Reyn bölgəsini, ardınca isə doğulduğu Avstriyanı ilhaq etdi. Persepolisə girən Böyük İsgəndər kimi bir kortejlə Avstriyaya girən Hitler böyük coşquyla qarşılandı. Hitlerin ardından SS-lər gəldi. Onlar avstriyalı yəhudilərə qan udduracaqdılar...***

Rur və Avstriyadakı `asan qollar` Hitlerin iştahını itiləmişdi. Bu dəfə o, gözünü Çexoslovakiyadakı almanların yaşadığı Sudet (Sudentenland) bölgəsinə çevirdi. Münhendə görüşdüyü fransız və ingilislər `bəlkə buranı da alıb dayanar` düşüncəsiylə bölgənin almanlar tərəfindən işğalına yaşıl işıq yandırdı. Fərqində deyildilər ki, Hitler balıq vermir, balıq tutmağı öyrədir. Nasistlər Çexoslovakiyanı tam işğal edəndə onların gözü açılacaqdı. 1930-cu illər ərzində Hitler `Bax başımı ağrıtmayın, yoxsa müharibəyə çıxarıq!` taktikasıyla bir mərmi belə atmadan istədiyi torpaqları idarəçiliyinə qatır, digər super güclər isə müharibə çıxmasın deyə bunlara göz yumurdu. Nasistlər şərqə doğru genişlənməyə davam edirdi. Hədəfdə bu dəfə Polşa var idi. Elə bu vaxt səhnəyə yeni bir aktyor çıxdı: Stalin və onun nəhəng Qırmızı ordusu. Hitler Stalinə və təbii ki, kommunizmə ən azı yəhudilərə etdiyi qədər nifrət edirdi. Buna baxmayaraq qəzəbini içində boğdu və vaxt qazanmaq üçün SSRİ ilə hücum etməmək paktını imzaladı. Iki diktator müqaviləni qeyd etmək üçün Polşanı aralarında bölüşdürəcəkdilər. Avropa, `Müharibələrin anası` olmağa hazırlanırdı...

## *Avropa "İldırımsürətli müharibə"ylə ildırımla vurulana döndü*

***Hitler yeni bir müharibə planı üzərində işləyirdi. Bu plana əsasən düşmənə nə olub-bitdiyini bildirmədən ani hücum edəcək və bir anda müharibəni qurtaracaqdı. Bu taktika tarixə Blitzkrieg(İldırım sürətli müharibəsi) adıyla düşdü. Ilk qurbanı isə Polşa oldu. Polşa təyyarələrini səmaya qaldırmağa belə vaxt tapmadı. Nasistlərin Polşanı mədəsinə endirməsiylə dünya oyandı. Ingiltərə və Fransanın Almaniyaya müharibə elan etməsiylə II dünya müharibəsi başlanmışdı. Polşanın ardından Danimarka, Norveç, Hollandiya, Belçika və Lüksemburqu da alman ildırımı vurdu. Hitler amansız müharibə gücüylə lunaparkdakı hədəflərə atəş açan adam rahatlığıyla qurbanlarını devirirdi. Bu isinmə hərəkətlərinin ardından almanlar əsl loxmanı, Fransanı uddu. Fransızlar da nə olub-bitdiyini anlamağa vaxt tapa bilməmişdi. Iki ölkə arasında atəşkəs imzalandı. Hitlerin istəyinə uyğun olaraq bu müqavilə Fransanın şimalında bir qatar vaqonunda imzalandı. I dünya müharibəsində almanların məğlubiyyətindən sonra almanlarla imzalanan atəşkəs sazişinin imzalandığı eyni yerdə, eyni vaqonda. Hitler düşməni sadəcə məğlub etməklə kifayətlənməmiş, eyni zamanda alçaltmışdı da...***

Fransızlarla imzalanan atəşkəsin ardınca Hitler həyatındakı ilk və eyni zamanda sonuncu Paris ziyarətini gerçəkləşdirdi. Muzeyləri gəzdi. Eyfel qülləsi önündə şəkillər çəkdirdi. O, Parisin gördüyü ən qəribə turist idi.

Fransanın məğlubiyyətindən sonra Hitler gözünü İngiltərəyə çevirdi. Min illik nasist imperatorluğunun ayrılmaz bir hissəsi olaraq görürdü buranı. Ingiltərəni hədəfə alan `Dəniz Aslan`ı əməliyyatı başladı. Lakin alman hava qüvvələri ingilis hava müdafiəsini yara bilmirdi. Ingiltərəni bir müddət bombaladıqdan sonra diş batıra bilməyəcəyini anlayıb özlərinə yeni bir hədəf seçdilər: SSRİ. Alman baş qərərgah rəisi Moskvanı hədəfləyən müharibə planlarını Fürerin qarşısına qoymuşdu. Lakin Rusiyadan öncə cənubun təhlükəsizliyini təmin etmək üçün Yuqoslaviya işğal ediləcəkdi.

## *Hitler Napoleonun iziylə*

Hitlerin Rusiyanı hədəfə alan Barbarossa əməliyyatı zamanı ilk mərhələdə ruslar qəfil ovlandı. Almanlarla imzaladıqları paktı ciddiyə alan rusları nasistlərin əlindən xilas edən illər öncə Napoleonun işğalından qurtaran qış mövsümü olacaqdı. Alman orduları öncə qışın ağır şərtləri, daha sonrasa özünə gələn Qırmızı Ordu tərəfindən məğlubiyyətə uğradı. Şərq cəbhəsində aldıqları məğlubiyyət bəs etmədi. Müttəfiqlərin Normandiyaya ordu çıxartması ilə iki od arasında qalan almanlar ağ bayraq qaldırmaq məcburiyyətində qalacaqdılar. Hitler heç bir zaman məğlub olmağı ağlına gətirmədiyindən əlindəki gücü son ana kimi cəbhəyə göndərib qırdırdı. Amerikalıların silahıyla, rusların insan potensialının kəsişməsi Almaniyanın dağıdılmasına səbəb oldu. Hitlerin min il ömür planladığı dünya



imperatorluğunu qurmaq üçün çıxdığı yolun son metrlərində Berlində gizləndiyi sığınacağı qorumaq üçün nəhəng alman ordusundan bir ovuc uşaq qalmışdı. Bu da çılğın diktatorun ehtirasının qəbzindən başqa bir şey deyildi. Hitler şəxsi hesabını isə başına söykədiyi silahla ödədi. Həm nasist imperatorluğu, həm də özü həyata vida etdi.

## *Və... Pərdə enir*

***Müharibə Almaniyanı dağıntılar altına qoydu, alman xalqı da uzun müddətdən sonra bu kabusdan oyandı. İnandıqları fürerin sıradan bir cinayətkar kimi ölməsi hamısını şoka salmışdı. Bu şokun şiddətini yəhudilərə qarşı soyqırım planının müharibədən sonra üzə çıxması daha da artıracaqdı. Hitler arxasınca böyük bir dünya müharibəsiylə yanaşı, 60 milyon insan itkisi və "Aman Allahım, biz nə etdik?" deyən milyonlarla yorğun alman buraxmışdı...***

Sözlərin yeri gələndə ən təsirli bombalardan belə daha çox öldürücü olduğunu kəşf etmişdi. Yetər ki, dodaqlarından necə çıxardığını biləsən. Onunçün ələ keçirilməyəcək heç bir beyin yox idi. Nitqinin harasında hansı hərəkət edəcəyini saatlarla məşq edirdi. Nasistlər hakimiyyətə gələr-gəlməz ağla gəlməyən təbliğat bombardmanıyla 7-dən 77-yə hər kəsi tək bir səbətdə əritməyə başladı. `Mən` yox idi artıq, `Biz` vardı. Hitlerin şəxsində bu kəlmələr ət-sümük kimi olmuşdu.

Rejimin snayperi: Heinrich Himmler. SS-lərin və Məxfi Polisin (Gestapo/ Geheime Staatspolizei) rəhbəri olan adam o idi. Yəhudilərin düşərgələrdə məhv edilmə cavabdehliyini daşıyırdı. Hətta ilk düşərgə olan Dacha-nu da o açmışdı. Göringdən aldığı əmrlə yəhudilərin qaz kameralarında məhv edilməsinin memarı o idi. Müharibənin sonlarına doğru müttəfiqləriylə razılıq əldə etməyə çalışmasına görə Hitler edam olunmasını istəmişdi. Ingilis ordusunun əlində əsir olarkən kamerasında intihar etmişdi.

***Nürnberg nümayişləri: Duyğusal enerji reaktoru. Hitlerin həm özü, həm də alman xalqının içindəki duyğusal enerjini ortaya çıxara biləcəyi tək yer kütləvi nümayişlər idi. Diktatorluğun bünövrəsini yaradan bu fəaliyyətlərdə yüz minlərlə insan Fürerin qarşısında tək vücuda çevrilirdi. Dini ritualları xatırladan bu tip nümayişlər cəmiyyətin tipləşdirilməsinin ən diqqət çəkən nümunəsi idi.***

Hitler Jesse Ovens-ın əlini sıxmadımı? Hitlerin Berlində keçirilən 1936-cı ildəki Olimpiya oyunlarında fırtına kimi əsən amerikalı atlet Jesse Ovensın uğurundan sonra qəzəblə olimpiya stadionunu tərk etdiyi deyilir. Lakin bu sadəcə uydurmadır. Ovensın medal taxma mərasiminin olduğu gün Hitler heç stadiona da getməmişdi. Digər tərəfdən oyunlar boyu alman idmançılar daxil olmaqla stadionu dolduran bütün almanlar hər fürsətdə nasist salamı verirdilər.

Fransızlarla imzalanan atəşkəsin ardınca Hitler həyatındakı ilk və eyni zamanda sonuncu Paris ziyarətini gerçəkləşdirdi. Muzeyləri gəzdi. Eyfel qülləsi önündə şəkil çəkdirdi. O, Parisin gördüyü ən qəribə turistiydi.

Mənim mübarizəm` dən aldığı qonorarla milyoner olmuşduBəşəriyyəti ikinci dəfə dünya müharibəsinə sürükləyən ideologiyasının müqəddəs kitabı olaraq qəbul olunan `Məmin mübarizəm` Hitleri milyoner etmişdi. Ilk dəfə 1930-cu ildə 54 min tirajla dərc olunan kitab 1933-cü ildə 854 min 127 ədəd satılmışdı. Kitab Hitlerə 1933-cü ildə 1 milyon 250 min marka qazandırarkən 1944-cü ildə yayım şirkətində 5, 5 milyon markalıq alacağı qalmışdı. Kitabın 2005-ci ildə Türkiyədə ən çox satılanlar siyahısına daxil olduğunu da qeyd edək...

## *Rejimin sehrbazı: Jozef Goebbels*

Adolf Hitlerin ən sadiq tərəfdarı idi. Nasist rejimində təbliğat naziri olaraq xidmət etdi. Rejimin alman xalqını hipnoz etməsini təmin edən bütün təbliğat fəaliyyətləri onun şeytani düşüncəsinin məhsulu idi. Siyasətə gəlməzdən öncə 18-ci əsr romantik teatr ədəbiyyatı üzrə doktorluğu müdafiə etmiş, sonra qəzet müxbiri, bank müdiri olaraq çalışmışdı. Çoşğulu və enerjili nitqləriylə partiyada qısa müddətdə yüksəldi. Müharibənin ilk və ən öndə gələn dəstəkçilərindən idi. Son ana kimi Hitlerin yanında idi. Hitlerin ölümündən sonra uşaqlarını zəhərlədi. Sonra arvadını və özünü öldürdü. Cəsədləri vəsiyyətinə uyğun olaraq yandırıldı. Hər yöndən olan adam onun təbliğat sənətindəki dühasını qəbul edər.

## *Sui-qəsddən xilas olmaq rekordu vurmuşdu*

Hitler törətdiyi demokratik qiyamla sadəcə höküməti deyil, dövləti və ordunu da ələ keçirmişdi. Ordu həmişə nasistlərə qarşı məsafəli dayandı. Alman zabitləri bir yandan fürerin əmrlərini yerinə yetirərkən, o yandan da baş komandanlarını aradan götürmək planlarından vaz keçmədi. Ən ciddisi polkovnik Kont Claus Graf Schenk von Stauffenberginki olmaqla nasist lideri bir başa alman zabitləri tərəfindən gerçəkləşdirilən 17 sui-qəsd cəhdindən xilas olmağı bacarmışdı.

Hitlerin xələfi, nasist imperatorluğunun rəhbər imzalarından biri idi. I dünya müharibəsində pilot idi. II dünya müharibəsində Alman Hava Qüvvələrinin komandanı oldu. Yəhudiləri hədəfə alan soyqırım əmrini özü vermişdi. Müharibədən sonra qurulan Nürnberq məhkəmələrində müharibə cinayətləri və insanlığa qarşı işlətdiyi cinayətlərdən dolayı edam cəzasına məhkum edildi. Asılmasına fürsət vermədən kamerada içdiyi zəhərlə özünü öldürdü.

Hitlerin fikirlərinin məhsulu olan soyqırım 6 milyon yəhudinin həyatı bahasına başa gəldi. Həm də qaraçılar, polyaklar, slavyanlar, dindarlar, homoseksuallar, intelektuallar və ruhi xəstələrlə yanaşı onlarla etnik, dini və sosial qrup da payını almışdı. Qurbanlar öncə gettolara, sonra nasist işğalı altında olan Avropa ölkələrindəki 250-yə qədər düşərgələrə yığılmış, zorla işlətdirilmiş, üzərlərində ağla gəlməyən sınaqlar keçirilmiş və ən sonda qaz kameralarında öldürülmüşdü. Qaz kameralarından çıxarılan cəsədlər peçlərdə yandırılaraq məhv edilmişdi. Bütün bunlara qarşı Hitlerin soyqırım əmrini birbaşa verdiyinə dair heç bir yazılı sənəd ələ keçirilməyib.

## *Xalqa qadağan etdiyi mahnıları özü dinləyirdi*

**Nasist lideri Almaniyada və işğal etdiyi ölkələrdə dinləməyi qadağan etdiyi Rahmaninov, Çaykovski və Borodin kimi rus və yəhudi bəstəkarlarını özü dinləyirdi. Hitlerin kolleksiyasında rus bəstəkar Kirill Kondrasjin, rusiyalı pianist Emil Gilels, yəhudi əsilli polşalı kamançı Bronislav Huberman və əfsanəvi rus opera sənətçisi Fyodir Sjaljapin kimi adlarla yanaşı Bethovenin məşhur doqquzuncu simfoniyası, Vaqnerin uçan hollandiyalısı və Brahms, Schumannın əsərləri də var idi. Halbuki, Hitlerin `mənim mübarizəm` də `heç bir zaman yəhudi sənəti olmamışdır` deyirdi.**

**Tərcümə: Emin Piri**

# Çimnaz Əliyeva ilə ötənlərə baxış: Ağdam Çörək Muzeyi - Çörəkli Ağdam

**Sovet dönəmiydi. O vaxt səkkizinci sinifdə oxuyurdum. Bir gün kolxozumuzun 2-3 avtobusunun məktəb darvazasında dayandığını pəncərədən seyr etdik. Hamı maraqdaydı ki, qışın bu soyuğunda təsərrüfatda iş də yox, görəsən, bu avtobuslar niyə gəlib?Düzü öyrənmişdik, ilk dərs günündən qar yağana qədər tarlalarda alaq təmizləməyə, pambıq yığmağa... Amma qışın bu ”oğlan çağında” kolxoz avtobusu niyə gəlmişdi deyə ”tənəffüs”ümüzü ”baş sındırmaq”la keçirdik. Sinif rəhbərimiz Roza müəllimə sinifə girib: Ağdama gedirik, çörək muzeyinə”- deyəndə ürəyimiz yerinə düşdü. Bir-birimizi itəliyə -itəliyə sürətlə avtobusda yer tutmağa tələsdik.**

### *Ağdamın çörək muzeyi*

Agdamı dünyada tanıdan Çörək Muzeyi! Dünyada ikinci, MDB-də isə birinci və yeganə hesab edilən Ağdam Çörək Muzeyinin yaradılması ideyası 1982-ci ildə rayon partiya komitəsinin birinci katibi işləmiş Sadıq Murtuzayevə məxsusdur. Həmin il dəyirmanda başlanan təmir-bərpa işləri növbəti ildə başa çatdırılır və 1983-cü il noyabrın 25-də muzey ilk ziyarətçilərini qəbul edib. Məlumatlara görə, Çörək Muzeyinin yerləşdiyi dəyirman XIX əsrin sonlarında rayonun tanınmış nəsllərindən olan Məhəmməd Qarayev tərəfindən inşa edilmişdi. Yerli mədəniyyət abidəsi kimi dövlət tərəfindən qorunurdu. Kompleksə karvansaray da daxil idi. Sovet dönəmində ”Dəyirman həyəti” adlanan ərazidəki karvansaray yaşayış üçün uyğunlaşdırılaraq yerli sakinlərə verilir. Dəyirman 1987-ci ildə tam işlək vəziyyətə gətirilir.

***Yeri gəlmişkən, muzeyin ilk direktoru telejurnalist Allahverdi Əsədov olub. 1984-cü il sentyabrın 1-də muzeyin direktoru Az TV -də şöbə redaktoru işləmiş Niyazi Quliyev oldu. Niyazi Quliyev muzeyə az müddət ərzində rəhbərlik etdi və səhhəti ilə əlaqədar o vəzifəsini tərk ertməli oldu. Ondan sonra ”Bilik” Cəmiyyətinin rayon şöbəsinin müdiri işlmiş Ofelya Zeynalova muzeyə rəhbər təyin edildi. Ofelya Zeynalovadan sonra isə muzeyə Hafiz Əliyev təsdiq olundu. Yeddi nəfərlik ştat cədvəlində iki elmi işçi, üç bələdçi, bir dəyirmançı vəzifəsi var idi.***







Muzeydə aparılan tərtibat işlərini mədəniyyət nazirliyin bədii tərtibat idarəsinin əməkdaşı Eduard Krupkinin rəhbərlik etdiyi qrup həyata keçirir. Nümayəndə heyətinə isə muzeylər idarəsinin rəisi Səriyyə İsmayılova rəhbərlik edir.

### *Qısa müsahibə*

Həmin illərdə Ağdam Mədəniyyət şöbəsinin müdiri olmuş Çimnaz Əliyeva ilə söhbətimizdə o bildirdi ki, muzey Ağdamın ən qaynar küçələrindən biri olan ”20 yanvar” küçəsindəydi:”Elə bir gün olmurdu ki, muzey ziyarət olunmasın. Ən az 30-40, çoxu 100-150 arası. Təhsil ocaqları, dövlət idarə və müəssisələrinin zəhmətkeşləri.. Ağdam erməni işğalçıları tərəfindən bombalanana qədər muzeyin ziyarətçi sarıdan kəsiri olmayıb.

**- Çimnaz xanım, o vaxt Ağdamda başqa muzeylər və tarixi abidələr də vardı. Niyə məhz Çörək Muzeyi hamının maraq dairəsindəydi? Görməyənlər görməyə can atırdı. Görənlər də bir daha görmək istəyirdilər?**

-Əvvəlcə qeyd edim ki, yer kürəsində ilk çörək muzeyi Almaniyanın Ulm şəhərində açılıb. SSRİ-də də hər növ muzey vardı: tarixi, incəsənət. diyarşünaslıq. Amma belə bir muzey ilk dəfə Ağdamda yaradıldı. Muzeyə çox qısa müddət ərzində 1500-dən çox eksponat toplandı. Ən əsas qiymətli eksponatlardan biri Ağdamın Çalağantəpə ərazisindən tapılan, eramızdan 7 min əvvələ aid olan yanmış buğda dənələri idi. Respublikaların, zonaların ayrı-ayrı lavaşları, çörək nümunələri, taxıl növləri, qədimdən qalma əkinçilik alətləri nümayiş olunurdu. 3 ekspozisiya zalımız var idi.

**-Çimnaz xanım, mən də məktəbli olanda, muzeyi ziyatət etmişdim. Orda bizə qapqara, kərpic formasında bir çörək göstərdilər, dedilər ki, Böyük Vətən Müharibəsindən qalıb. Nə çörəyi idi o?**

- Leninqrad blokadası dövründə bir qadın övladının sutkalıq çörək payını saxlamışdı. Gəlib 3 yaşlı övladının çörək payını almağa, uşaq ölüb. O çörəyi yeyə bilməyiblər, 40 ilə yaxın saxlayıblar. Rusiya kanalında bizim muzey haqqında süjet gedəndən sonra bu qadın bizə məktub yazdı. Biz onu Ağdama dəvət etdik. Qadın çörəyi muzeyimizə təqdim etdi. Yadımdan çıxmamış qeyd edim, Moskvanın ”Zvezdnıy Qorodok” şəhərciyindən göndərilən və kosmosu dolanıb gələn çörək nümunələri də elə o müharibədən qalmış çörək qədər dəyərli və maraqlı eksponatımız idi.

**- Yəqin ki, Almaniyada çörək muzeyindən söhbət düşəndə orda da deyirlər ki, dünyada 2 belə muzey var, biri Ulmda, biri də Ağdamda. Heyf ki, düşmənlərimiz çox vandal və acgöz bir xalqın nümayəndələridir. Elə bir şəhərin, elə bir muzeyin daşını daş üstə qoymayıb. Sizcə, Ağdam yenidən qurularkən Çörək Muzeyinin də tikintisini təşkil etmək olarmı?**

- Ora gözümüzün qarşısında yandı... 12 avqust 1992-ci ildə Ağdam şəhəri keçmiş Əsgəran rayonunun Xanabad və Naxçivanik kəndləri tərəfdən güclü raket və top atəşinə tutulmuş, nəticədə raketlərdən biri Çörək Muzeyinə düşmüşdü. Məhz bu mərmi muzeyin varlığına birdəfəlik son qoydu. Yanğını söndürməyə cəhd göstərilsə də, bu, mümkün olmadı. Nəticədə muzeydə olan 1500-dək eksponat yanaraq məhv oldu

Allah ordumuza da, prezidentimizə də can sağlığı versin! Artıq onların sayəsində Ağdam da bizdədir, digər yurdlarımızda. İnanıram ki, uzaqgörən və diqqətli ölkə başçısı bu məsələni də düşünüb. O muzey nəiniki tək Ağdamın, həm də respublikamızın adını dünyaya tanıtdı.Yenidən belə olacağına əminəm. O muzeyin hər daşında, hər çınqılında, eksponatında əziyyətim var. Bərpa olunmasını çox arzu edirəm. Elə həmin binada bərpa edəcəyik. Yenisi mütləq olacaq!

### *Hər zaman çörəyi bol, çörəkli Ağdam...*

Muzeyin dördüncü direktoru Hafiz Əliyevbir açıqlamasında deyir: ”1987-ci il ildə ölkədə başlayan ”perestroyka”nın ilk acıları hiss edilməkdə idi. İlin sonunda çörək qıtlığı hiss edilirdi. Məhz bu çətinlyin aradan qaldırılmasına öz töhvəsini vermək məqsədi ilə Mədəniyyət şöbəsinin müdiri Çimnaz Əliyevaya Un dəyirmanının istismara vermək üçün icazə istədikdə heç bir problemin olmadığı bildirdi. ”RTS”-ə yaxın olan ”Dəzgahqayırma zavodu”nda çalışan dostlara müraciət etməli oldum. Dostlar təmənnasız olaraq mühərrikin işə salınması üçün lazım olan bütün avadanlığı dəzgahlarda yonub hazır vəziyytə gətirdilər. İki ay ərzində dəyirmanın işlək vəziyyətə gətirildi. Dəyirman daşını isə Astan kişi dişədi. Düzdür, muzeyin əməkdaşı olan Astan kişi ilə Cinli və bir neçə Agdama bitişik kəndlərdəki dəyirmanlarda olan daşlara baxsaqda, onların vəziyyəti qənaətbəxş olmadığından elə öz daşından istfadə edəsi olduq. İlyarimadək müddətdə dəyirman həm rayon sakinlərinin, həm də qonşu rayonların sakinlərinə xidmət göstərdi. Özüdə təmənnasız olaraq.”

Əsas olan odur ki, artıq Ağdam torpağından düşmənlər qovulub və o gözəl yurd bizdədir, necə deyərlər, nəyi, necə tikmək də öz əlimizdədir! Allah xeyirli- uğurlu eləsin!

**Əntiqə Rəşid**

*Orxan Saffari*

## "Hanı? Gorbagor oldu, yoxdu tədbir-kvo!"



***Müharibədən əvvəl də, sonra da ortada olan bəzi məsələlər adamı elə diksindirir, elə diksindirir ki...***

***Heç bilmirsən, hansının dərdini çəkəsən, hansını deyəsən. Bəzi məsələlər var idi, deyirdik, düzələcək, filan şey olsun, yaxşı olacaq. Oldumu?! Olmadı. Bəzən daha da gərginləşdi hələ. Qalqı bu vətənin ortasında təmtək!***

***Fikir verdinizsə, qələbədən sonra ortaya çıxan "maskalı" adamlar nə günə qaldı. Həqiqətən də bunları istəməyən, "içimizdəki ermənilər" dediyimiz adamlar var imiş. Vallah, mən əvvəl elə bilirdim ki, kimsə kimdənsə xoşu gəlməyəndə belə deyirmiş. Demə, bu, həqiqət imiş.***

***Səd-əfsus.***

***Qarabağın işğaldan azad olunması, Azərbaycanda həm də nə qədər adamı "çörəksiz" qoydu. 30 ildir ki, dolanışığı "Vazgen, anoovuu" təbirindən çıxmayan "qalstuklu elitanın" indi qanı qaralıb. Hər nə olmasa da, adamlar 30 illik "iş yerlərini" itiriblər...***

***Təsəvvür edin, Qarabağ münaqişəsinin bitməyi Rusiyaya sərf etməməyi ilə yanaşı, bizim ermənibaşlara da sərf etmir. O adamlar ki, onları hamınız tanıyır, görür və bəlkə də elə siz özünüzsünüz. O adamlar ki, hər birimiz onların oyununa zaman-zaman alət də olmuşuq. Əvvəl uşaq olub bilməmişik, sonra da bilib məcbur olmuşuq.***

***Həqiqətən də belə şeylər baş verirmiş. Elə adamlar, elə hadisələr var ki, onlara əvvəlcə bilməyib inanırıq, biləndə də görürük ki, artıq gecdir, sən demə, biz bir az da bu yalana məcburuq.***

***Bu 30 ildə Hökumət və Qeyri-hökümət təşkilatlarının tədbirlər fonunda ayırdığı qrantları bəh-bəhlə tıxan pafos vətənpərvərlərinin çıxmadığı hoqqa qalmadı. Üzdə görüntü olaraq xarici, yerli layihələrlə guya iş görür, guya faciənin tanınma arealını böyüdürdülər və başqa nələrsə. Hanı? Gorbagor oldu, yoxdu tədbir-kvo!***

***Amma 44 günlük müharibə siyasəti, indi olanlar həm də onu göstərdi ki, Azərbaycanda bu fonda görülən heç bir iş effektiv olmayıb. Təbii ki, bunu hər il faciə günlərində akt zallarında gözümüzün içinə baxaraq mənasız-mənasız şablon danışıqlar aparan qalstuklar özləri də yaxşı bilirdilər, amma neyləsinlər, "bir tikə çörək" var idi.***

***Təki pul ayrılsın, təki yalandan bir layihə təqdim edək. Bunun Xocalısı var, işğal günlərində "maarifləndirməsi" var, məcburi köçkünlərlə üzdə görülən işlər var. Var da, var. Nə desən var. Pul varsa, bu adamlar üçün vətəndən başqa nə istəyirsənsə, var. Heç nə yox, adicə müharibə dönəmində də, əvvəl də "sülh quşları" dediyimiz adamların əksəriyyəti bilirsiniz kimlərdir? Beyinlərə bunu yeritmək üçün qrant alan "haxçıxlar". Məhz onlar da istəmir ki, bu münaqişə tam bitsin. Əbədi çörəkdir də.***

***Elə müharibə vaxtı da öz maskalarını özləri salmalı oldular. Kimisi "sülh quşu" adı altında, kimisi də vətənsizlik iddiasında. Guya bəşəri dəyəri var imiş, kosmopolit imiş.***

***Hələ müharibə vaxtı bunu yazmışdım ki, "müharibə vaxtı sülh göyərçinləri etmək quşbeyinlikdən başqa bir şey deyil." Həqiqətən deyilmiş. Deyilmiş ki, o adamların etdikləri də, dedikləri də özlərinə qaldı. Yox oldu o adamlar, yox olacaq o adamlar. Geriyə isə böyük bir vətən qalacaq.***

***Axxx, səni çörəkli Qafqaz. Kim idik, kim olduq, kim olacayıq?!***

# Yeseninşünaslığa daha bir tohfə: "Yesenin ensiklopediyası"



*İsaxan İsaxanlı*
*Beynəlxalq Yesenin mükafatları laureatı*

**Son 20-25 il ərzində həyata keçirdiyi bir neçə böyük layihələrlə (Polnoe sobranie soçineniy S.A. Esenina i Letopisğ jizni i tvorçestva S.A. Esenina) dünya yeseninşünaslığına öz əvəzedilməz töhfəsini verən Rusiya Elmlər Akademiyası M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutu və burada fəaliyyət göstərən Yeseninin həyat və yaradıcılığını öyrənən ”Yesenin qrupu”nun iştirakı ilə daha bir fantastik layihə həyat keçirilməyə başladı - çoxcildli ”Yesenin ensiklopediyası”nın 1-ci buraxılışı işıq üzü gördü. Bu kitab dahi rus şairi Serqey Yeseninin anadan olmasının 125 illiyi münasibətilə buraxılmış və şairin həyat və yaradıcılığı ilə bağlı xatirə yerlər, məkanlar və ədəbi toponimlərə həsr edilmişdir.**

Yesenin səyahət etməyi çox sevirdi. Onun əsərlərindən az qala hər birinin öz taleyi, öz tarixçəsi olduğu, hər bir şeirin şairin həyatının bir epizodu olduğu məlumdur. Təsadüfi deyil ki, 1925-ci ilin oktyabrında yazdığı tərcümeyi-halında öz həyat tarixçəsini təsvir edən şair sonda deyir: ”Avtobioqrafik məlumatların qalanına gəlincə, onlar mənim şeirlərimdədir”.

Amma nə qədər səyahət etsə də, çoxlarının Avropaya, Amerikaya həmişəlik can atdığı bir zamanda, özünün dediyi kimi, İspaniyadan başqa bütün Avropanı və Amerikanı dolaşan şair oralarda çox yüksək səviyyəli həyat şəraiti, şan-şöhrət vəd edən müxtəlif təkliflərə baxmayaraq, onu maqnit kimi özünə çəkən vətəninə döndü. Şairin ən böyük məhəbbəti elə vətəninə olan sevgisi, təbiətə olan vurğunluğu idi.

Azərbaycan-rus ədəbi əlaqələrinin yorulmaz tədqiqatçısı S.Turabov Yeseninin vətən sevgisi ilə dopdolu şeirləri haqqında yazır: ”Şairin ən böyük məhəbbəti - vətənə olan məhəbbətidir. Bu məhəbbəti şair elə təsirli, elə valehedici ifadə edib ki, Puşkinin özü belə, onun şeirlərinin altında öz imzasını qoyardı”.

Elə buna görə də dahi rus şairinin istər öz vətənində, istərsə də başqa ölkələrdə olduğu, gördüyü şəhərlər, kəndlər, yaşayış məntəqələri, dənizlər, çaylar, göllər və s. haqqında, şairin əsərlərinin poetikası ilə bağlı ədəbi toponimlər, eləcə də Yeseninin yaradıcılığında və bioqrafiyasında yer alan real çoğrafi toponimlər haqqında dolğun məlumatları özündə birləşdirən bir əsərin meydana gəlməsi bu böyük söz ustasının ədəbi-poetik irsinin qavranması və öyrənilməsi baxımından müasir yeseninşünaslığın qarşısında duran həddindən artıq vacib məsələlərdəndir.

Ensiklopediyanın bu buraxılışında məhz bu məsələlərlə bağlı ümumilikdə 442 toponim haqqında 357 məqalə ilə ərtaflı məlumat verilir.

Bütövlükdə ”Yesenin ensiklopediyası” layihəsi çərçivəsində 2500-dən çox məqalənin yazılacağını nəzərə alsaq, bu layihənin nə qədər əhəmiyyətli olduğunu əlavə sübut etməyə ehtiyac qalmır. Bu layihə həm sadə poeziyasevərlər üçün, həm də Yeseninin ədəbi-poetik irsini öyrənən mütəxəssislər, tədqiqatçılar, yeseninşünaslar üçün böyük önəm daşıyır.

Burada verilən hər məlumat böyük şairin həyatının bir məqamını, onunla bağlı hadisələri və bəzən də həyatının müəyyən bir dövrünü özündə əks etdirir, şairin həyatı ilə bağlı müxtəlif hadisələrin daha doğru, dolğun verilməsi və obyektiv anlaşılmasına kömək edir. Bu kitab vasitəsilə dahi rus şairinin vətəni olan Rusiyada və ondan kənar coğrafiyada bütün həyatını addım-addım izləmək mümkündür və kitabda yer alan



materiallar ayrı-ayrı ədəbiyyat və mədəniyyətlərin şairin dünyagörüşünə və yaradıcılığına təsirinin və əks prosesin öyrənilməsi baxımından da çox faydalıdır.

Bu kitab Azərbaycan yeseninsevərləri və yesenenşünasları üçün də böyük hədiyyədir. Məlumdur ki, Yesenin bir neçə dəfə Bakıda olmuş, burada yaşayıb-yaratmışdır, onun iştirakı ilə tədbirlər, görüşlər, poeziya gecələri keçirilmiş, Bakı mətbuatında onun şeirləri dərc olunmuş, yaradıcılığı ilə bağlı materiallar verilmişdir. Yeseninin öz əsərlərini ən çox dərc etdirdiyi mətbu orqan məhz Bakıda nəşr edilən ”Bakinsiki raboçi” qəzetidir ki, 1924-25-ci illərdə bu qəzetdə onun 45 şeiri dərc edilmişdir.

Yeseninin həyat və yaradıcılığının Bakı dövrü onun yaradıcılığının ən məhsuldar və ən maraqlı dövrü olmaqla, şairin ümumi yaradıcılığında xüsusi yer tutur və ümumilikdə kifayət qədər zəngin olan Yesenin yaradıcılığı, şairin Bakı dövrü olmadan, bir qədər natamam görünərdi. Ümu-miyyətlə, Yeseninin həyatının kənddə keçən illəri (əsasən, uşaqlıq və bir az da yeniyetməlik dövrü) şairin həyatında nə qədər dərin izlər buraxmışdırsa, Bakı dövrü də onun həm həyatında, həm də yaradıcılığında ən az elə o miqyasda iz buraxmışdır və bu mənada, bu dövr Yeseninin həyat və yaradıcılığının heç bir digər dövrü ilə müqayisəyə gəlmir.

Ensiklopediyanın bu buraxılışında dahi şairin, ”hər bir şair gərək mütləq Bakıya getsin, onun ətrafları həddindən artıq şairanədir” dediyi, ”mən and içməyə hazıram ki, Bakının işıqları ulduzlardan gözəldir” deyə vəsf etdiyi Bakı haqqında, burada olarkən ən gözəl əsərlərini yaratdığı, indi ”Serqey Yesenin adına Azərbaycan-Rusiya Ədəbi Əlaqələr Mərkəzi”nin və şairin ev muzeyinin yerləşdiyi gözəl Mərdəkan haqqında, şeirlərindən birində ”Xəzər çətin gündə dost və arxadır” deyərək güvəndiyi və sevgisini qəlbində ölənəcən yaşadacağına söz verdiyi Xəzər dənizi və Balaxanı haqqında, yaradıcılığının şah əsərlərindən hesab olunan ”Persidskie motivı” şeirlər silsiləsində vəsf etdiyi Şərq, Persiya, Bağdad, Bosfor, Şiraz, Xorasan, Tehran haqqında məlumat verilir.

Böyük məmnuniyyətlə onu da qeyd etmək istəyirik ki, tarixdə Yeseninin ilk poeziya bayramı məhz Azərbaycanda, 1972-ci il oktyabrın 4-də Rusiya Federasiyası mədəniyyət günləri çərçivəsində, Mərdəkanda keçirilmişdir. Onu da qeyd edək ki, Mərdəkandakı Yesenin muzeyi şairin doğma vətəni Rusiyadan kənarda fəaliyyətə başlayan ilk rəsmi muzeydir. Bu da böyük şairin adının əbədiləşdirilməsi yolunda Azərbaycanda atılan ən mühüm ədəbi-mədəni hadisələrdən biri olaraq Azərbaycan xalqının bu böyük rus şairinə olan səmimi sevgisinin bariz nümunəsidir.

”Yesenin ensiklopediyası” üzərində M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutunda fəaliyyət göstərən ”Yesenin qrupu” ilə birgə şairin doğulduğu Ryazan Vilayəti Konstantinovo kəndində yerləşən Serqey Yesenin Dövlət Muzey-Qoruğunun əməkdaşları da böyük həvəs və enerji ilə işləmişlər. Kİtabda verilmiş maraqlı illüstrasiyalar və məhz Muzeyin fondunda olan, amma geniş kütləyə məlum olmayan maraqlı şəkillərdən istifadə edilməsi kitabı daha da canlandırır və onun rahat və yorulmadan, bir bədii əsər kimi oxunmasını təmin edir. Kitab nəfis şəkildə hazırlanmış və poliqrafik baxımından da ən yüksək standartlara cavab verir.

Bütün dünyada, ucsuz-bucaqsız bir coğrafiyada Yesenin yaradıcılığı ilə məşğul olanlara, yeseninşünaslara, yeseninsevərlərə çox dəyərli, qiymətsiz bir hədiyyə olan bu əsər üzərində işləyən hər kəsə - kitabın elmi və məsul redaktoru, Yeseninin həyat və yaradıcılığının öyrənilməsində fövqəladə rolu olan ”Yesenin qrupu”nun rəhbəri N. İ. Şubnikova-Qusevaya, qrupun elmi katibi, bu buraxılışın redaktoru, mənim səmimi dostum Maksim Skoroxodova, qrupun bütün üzvlərinə, redaksiya heyətinə, texniki işçilərə, Serqey Yesenin Dövlət Muzey-Qoruğunun bütün əməkdaşlarına, bir sözlə bu layihənin həyata keçirilməsi yolunda can yandıran bütün insanlara Azərbaycan yeseninsevərləri və yeseninşünasları adından dərin təşəkkür edirəm.

**Bu layihənin həyata keçirilməsini maliyyələşdirən Ryazan Vilayəti Hökumətinə də təşəkkür etməyi unutmayaq.**

## *Xallı pələng libaslı Məhəmməd son nəfəsinə qədər mərdliklə vuruşub*

**Vətənə tuşlanan güllələri sinəsi ilə qarşılayan oğullarımızdan biri də Səmədov Məhəmməd Niman oğludur. O, 13 iyun 2001-ci ildə Pirşağı qəsəbəsində anadan olub. 10 saylı sanatoriya tipli internat məktəbini bitirdikdən sonra peşə məktəbində təhsil alaraq xəzinədarlıq sənətinə yiyələnib. Məktəbi fərqlənmə şəharətnaməsi ilə tamamlayıb. Arzusu stomatoloq olmaq idi. İdmanın güləş növü ilə məşğul olurdu. Bir neçə uğurlara imza atmışdı. İki dəfə yarışların yüksək pilləsində qərarlaşmış və diplomla mükafatlandırılmışdı.**



Anası Gülçöhrə xanım deyir ki, Məhəmməd böyüyün-kiçiyin yerini bilən, ağıllı, vətənpərvər, səmimi, mehriban övlad kimi tərbiyə almışdı. O, düzlüyü, doğruluğu, mənəvi saflığı həyatının mənası hesab edirdi.

Məhəmməd 2019-cu ildə həqiqi hərbi xidmətə çağırılıb. Cocuq Mərcanlıdakı "N" saylı hərbi hissədə xidmət edirdi. 2020-ci il sentyabrın 27-də işğalçı Ermənistan ordusunun təxribatları genişlənəndə xallı pələng libaslı Məhəmməd hirsindən yerə-göyə sığmır, "qana qan", "savaşa savaş" deyərək özləri ilə ölüm-qan gətirən mənfur düşmənlərə qarşı döyüşə atılıb. Özü kimi qeyrətli oğullarımızla birlikdə düşmənlərin başına od ələyib. Füzuli və Cəbrayılın rayonunun bir sıra kəndlərinin işğaldan azad edilməsində fəal iştirak edib.

Döyüşlərdə göstərdiyi rəşadətə görə komandiri tərəfindən 2 tərifnamə alıb və döyüşçü qardaşı Bəylər ilə birliokdə qısamüddətlı ezamiyyətə buraxılıb.

Atası qurban kəsib. Ən böyük arzusu Şuşanın işğaldan azad olunmasında şəxsən iştirak etmək olub. Lakin namərd düşmən gülləsi onun arzusunu gözündə qoyub. Məhəmmədin son döyüşü Hatrut uğrunda gedən savaş olub. Ölümündən qabaq evlərinə qısa məktub yazıb. Məktubda yazılır: "Atama, anama, qohumlara salam gönrərirəm. Mən yaxşıyam. Düşmən bizim qarşımızda tab gətirməyib geri çəkilir. İnşaallah sağ-salamar gələrəm. Vətən torpağının azad olunmasında iştirak etməyimdən şərəf duyuram. Kişinin birinci vəzifəsi Vətənini qorumaqdır".

Məhəmməd 7 oktyabr 2020-ci ildə Hadrutda düşmən hücumunun qarşısını almaq üçün son nəfəsinə qədər vuruşub. Qarşı tərəf böyük itki verərək geri çəkilməyə məcbur olub. Düşmən mərmilərindən biri ürəyi vətən məhəbbəti ilə döyünən bu igid əsgərimizin həyatına son qoyub. O, vətən torpağının hər yerindən görünən şəhidlik zirvəsində qərarlaşıb. Məzarı Pirşağı qəsəbəsindəki Şuşa qəbiristanlığındadır.

**Cəsur, qorxmaz döyüşçü Məhəmməd Səmədov Füzulinin, Cəbrayılın, Hadrutun işğaldan azad edilməsi medalları ilə, həmçinin Vətən uğrunda medalı ilə təltif olunub.**

**Faiq Şükürbəyli,**
**AJB-nin üzvü**

# Zübeydənin bilərziyi və müftünün kəfən pulu ilə qurulan Türkiyə

*İnsanın ruhunu sıxan boz bir günün axşamı idi.*

*Hardasa yatmaq vaxtı idi.*

*Mustafa Kamal evinə gəldi.*

*Qapını açan bacısı Makbuləyə narahat-narahat baxdı.*

*Şəfqətlə yanağını oxşadı.*

*"Süfrəni anamın yatağının qabağında yerdən hazırla, Makbuş, bu gecə səninlə bir az dərdləşmək istəyirəm" - dedi.*

*Zübeydə xanımın otağında yer süfrəsi salındı.*

*Nimdərləri, yastıqları düzdülər.*

*Kartof püresi və ispanaq çığırtması bişirmişdilər. Bir az sonra Mustafa Kamal otağa girdi.*

*Uniformada idi, əynini dəyişməmişdi.*

*Həmişəki kimi anasının əlindən öpdü.*

*Bardaş quraraq oturdu.*

*Birbaşa "gedirəm" - dedi.*

*Otağa sanki qəfildən bomba düşmüşdü.*

"Buralar da Selanikin gününə düşə bilər, gedərkən gözüm arxada qalmasın, məmləkət üçün çalışarkən sizdən ötrü narahat olmaq, kədərlənmək istəmərəm" - dedi.

Zübeydə xanım eşidər-eşitməz böyrü üstə özündən getdi.

Həkim Rasim Fəridi çağırdılar, Zübeydə xanım yavaş-yavaş özünə gəldi.

Həyəcan, gərginlik, kədər...

Yorğun ruhu bitib-tükənməyən ayrılığı daşıya bilməmişdi.

Çünki bir qadının yaşaya biləcəyi ən ağır üzüntüləri yaşamışdı.

Dörd övladını və ərini itirmişdi.

Oğlunun üstündə əsim-əsim əsirdi.

Səhərə qədər yatmadı.

Quran oxudu.

Günəşin ilk şəfəqləri görünürdü, vidalaşmaq üçün qapıya gəldilər.

Mustafa Kamalın əlində Qurani-Kərim var idi.

Trablusgarp müharibəsində Derne komandiri ikən Liviyalı mücahid şeyx Ahmet Sünusi tərəfindən hədiyyə edilmişdi.

Səkkiz il idi ki, hara getsə, özü ilə aparırdı.

Sofiyada, Çanaqqalada, Şamda, Hələbdə, Fələstində...

Anasına verdi.

"Haqqını halal elə"- dedi.

Makbulə xanım ağlayırdı.

Zübeydə xanım ağır səs tonu ilə qızına təpindi: "Sən əsgər bacısısan, niyə ağlayırsan? Ayıb deyil?".

Sanki dünən gecə kədərindən ürəyi gedən o deyilmiş kimi heykəl misalı dimdik durmağa çalışırdı.

Qızını təsəlli edərkən əslində öz hisslərini basdırırdı.

"Məmləkət üçün gedən insan ölsə belə arxasınca ağlanmaz, bir azdan qonaqlar gələcək, qaç, onlara şərbət əz" - deyə qışqırdı.

Sonra da oğluna kiçik bir boğça uzatdı.

"Lazımın olar"- dedi.

Cehizindən qalma qızıl bilərziklər idi.

Uzağı üç-beş dənə.

Selanikdən əlində-ovcunda yalnız bunlar qalmışdı.



Mustafa Kamal boğçanı aldı, pencəyinin iç cibinə qoydu.

Üç il öncə Vanda ordu komandiri ikən övladlığa götürdüyü və anasına əmanət etdiyi yetim Abdürrahimin arxasınca su atdı.

Qalata limanından motorlu qayığa mindi.

Kız Kulesinin yanında lövbərlənmiş Bandırma gəmisinə gəldi.

İstanbula son dəfə baxdı, kabinetinə girdi.

1920…

Həqiqətən lazım oldu.

Ankarada puldan sıxıntıları vardı.

Çörək almağa belə pulları qalmamışdı.

Mustafa Kamal köməkçisini çağırdı.

"Çemodanda anamın bir-iki zinət əşyası var, banka girov qoy, pul götür" - dedi.

Ali çavuş yataq otağına getdi, çarpayının altındakı çemodanı açdı.

Bilərzikləri tapdı.

Osmanlı bankına getdi, bir söz demədən masaya qoydu, 200 liranı sayıb verdilər.

Az da olsa nəfəs alacaqdılar.

Zübeydənin cehiz bilərzikləri…

Milli Mübarizə xəmirinə qarışmışdı.

Təbii, 200 lirə nədir ki? Gözünü açıb-yumdun tükəndi.

Süfrəyə qoymağa bulqurdan başqa yemək qalmamışdı.

Mustafa Kamal banklara borclu qalmağı rədd edirdi.

Katibi Mazhar Müfit bəyin kürklü paltosu vardı, onu satdı, satıla biləcək bircə o qalmışdı.

Bir neçə gün də bununla yola verəcəkdilər. Qara-qara fikirləşirdilər. Ki, qapının zəngi çalındı.

İçəri girən əsgər "müftü əfəndi gəldi" - dedi.

"Eyvaaah" - dedi, Mazhar Müfit. Çəkməcəni dartdı, qəhvə var idi, amma sadəcə iki diş qənd qalmışdı, siqaret qurtarmışdı, qonaq qarşılamaq üçün uyğunsuz vaxt idi.

Çarəsiz, kədərli bir ifadə ilə "buyursunlar" - dedi.

Börəkçizadə Rıfat əfəndi otağa girdi.

Masanın kənarındakı stulda oturdu.

Mazhar Müfit Mustafa Kamal üçün saxladığı iki diş qəndə qıymadı, "səhv etmirəmsə, sadə qəhvə içirsiniz, deyilmi?" - deyə soruşdu.

Müftü əfəndi təbəssümlə "zəhmət çəkməyin, qəhvə içmirəm" - dedi.

- Siqaret də mi çəkmirsiniz?

- Xeyr, siqaret də çəkmirəm.

Halbuki həm qəhvə içdiyini, həm də siqaret çəkdiyini, hamı kimi Mazhar Müfit də yaxşı bilirdi.

"Vaxtınızı çox almayım" - deyərək sözə başladı müftü əfəndi. "Bir az çətin vəziyyətdə olduğunuzu eşitdik" - dedi.

Mazhar Müfit sərt şəkildə əl işarəsilə müftünün sözünü yarımçıq qoydu, "pulumuz var" dedi, masanın arxasındakı kiçik kassanı göstərdi.

Biruzə vermək istəmirdi, amma kassada cəmi-cümü 48 quruş var idi.

Paltodan qalan bu qədər idi.

Müftü əfəndi məsciddən kənarda sarıqcübbə ilə gəzmirdi.

Çoxları kimi pencək geyinirdi.

Əlini sol döşünün iç cibinə saldı, yaylıq çıxardı.

Büzüşüb, yığılın kiçik boğça halına düşmüşdü.

Masaya qoydu.

Açdı.

Min iki yüz lirə var idi.

Övladlarına yük olmamaq üçün arvadı Samiyə xanımla birlikdə topladıqları cənazə pulu idi.

***

***Bu gün Türkiyədə Atatürkü Anma Gənclik və İdman Günüdür.***

***1919-cu il mayın 19-da Milli İstiqlal Müharibəsinin başladığı tarix.***

***Bu mübarək məmləkət Zübeydə xanımın cehiz bilərziyi, Kuvayı Milliyecinin əynindən çıxarıb satdığı paltosu, yurdsevər müftünün kəfən pulu ilə quruldu.***

**Dilimizə uyğunlaşdırdı:**
**Eminquey**

# Xatirəyə dönmüş ömür...

***Burdan bir atlı keçdi,***
***Atın oynatdı , keçdi,***
***Gün kimi şəfəq saçıb,***
***Ay kimi batdı keçdi.***

Ürəyimdən keçən fikirləri qələmə alanda yadıma düşən ilk söz böyük şairimiz Səməd Vurğunun aşağıdakı misraları oldu:

***Bir də baxırsan ki, açılan solur,***
***Düşünən bir beyin bir torpaq olur.***
***Əldən-ələ keçir vəfasız həyat,***
***Biz gəldi - gedərik, sən yaşa dünya!***

Bəli, doğrudan da belədir! Dünyanın vəfaslzlığı insan ömrünü yolun yarısında kəsir. Dünyaya gəlirik, yaşayırıq, qurub - yaradırıq və birdən də qürub edib batan günəş kimi yox oluruq.Əbədi qalan isə vəfasız dünyadı. Aşıq Bəsti demişkən: dünya vəfasız, hiyləgər və "cadugər" dir.

***Məleykə boyludu, şirin ləhcəli,***
***Əzəldən tamaşa olan bu dünya.***
***Qoca cadugərdi aldadar səni,***
***Cavanlıq donunda qalan bu dünya.***

Bu fikirləri bütün insanların ömür yoluna şamil etmək olar. İnsanlar gəlib - gedir dünya isə öz yerində, öz məhvərində hərəkət edir. Kimin gəlib - getməsi onun üçün önəmli deyil. O öz hayında, nizamını pozmadan irəliyə doğru hərəkətindən qalmır. Hey gedir, gedir...Sonu görünməyən bir yolla rəvan və ahəstə.

İnsan taleyi enişli - yoxuşlu, şirinli - acılı dolanbac yollara bənzəyir. Bu yolların hər bir cığırında insan ömrünün təlatümlü anları canlanır. Bəzən bu anlar sevincli və bəzən də kədərli olur.

Ziyəddin müəllimin də ömür yolu o qədər də xoş keçməmişdir. Ömrünün xoşbəxt çağlarında erməni cəlladları bir milyon iki yüz mindən artıq Azərbaycanlılarla bərabər onu da yurd - yuvasından didərgin salmış, tale yüklü ömür yolu onun da qəm - qüssə içərisində yaşamasına səbəb olmuşdur. Nə qədər çalışsa da, doğma yurduna qayıda bilmədi. Vətən - Qarabağ həsrəti ilə gözlərini əbədi yumdu.

Həyat yollarından söz açdığımız Qarabağ həsrətli ziyalımız Respublikamızın əməkdar jurnalisti, Qarabağ müharibəsi veteranı, "Qızıl qələm", Zərdabi adına, Osman Mirzəyev adına, "Dan ulduzu", Araz Ali Ədəbi, Ali Media mükafatlarına layiq görülmüş Ziyəddin Kamal oğlu Sultanovdur. O Kolanı elində Zallar dağının ətəyində yerləşən Ağdam rayonun füsnükar təbiətli Almədətli nümayəndəliyinin Mollalar kəndində ziyalı ailəsində, dünyaya göz açmışdır. Bakı Dövlət Universitetinin (Keçmiş S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin) jurnalistika fakültəsini bitirdikdən sonra "Gənclik" nəşriyyatında, "Azərbaycan gəncləri" və "Kommunist" qəzetlərində müxtəlif vəzifələrdə çalışmışdır. 1984-cü ildən əvvəlcə "Kommunist", sonra isə "Xalq qəzeti" nin 2020-ci ilə qədər Qarabağ üzrə bölgə müxbiri kimi fəaliyyət göstərmişdir. 50-ilə yaxın bir dövrdə yazıb - yaradan Z.Sultanov olduqca maraqlı bir yaradıcılıq yolu keçmişdir. Bu uzun illər ərzində onun bir - birindən gözəl, rəngarəng, mövzu cəhətdən müxtəlif səpkili qələmə aldığı əsərləri oxucuların ürəyinə sərinlik, xoş əhval-ruhiyyə və bəzən də kədərli anlar gətirmişdir. Onun "Məni də sevən var", "Ömür keçdi, gün keçdi", "Qarabağ gündəliyi","Qarabağın qara günləri", "Xocalı faciəsi", "Burdan bir atlı keçdi", "Ağdərədən gələn var", "Əsirlər, itkinlər, girovlar", "Kəklik", "Ölüm sevinməsin qoy", "Xatırla məni", "Qarabağ müharibəsi: faktlar, hadisələr, düşüncələr...", "Gəlin gedək Qarabağa" və sair kitabları işıq üzü görmüşdür. Yarım əsirə yaxın yaradıcılıq yolu keçən Z.Sultanovun peşəkar jurnalist - publisistik yazıçı imzası həmişə mətbuatda yer almış və bir - birindən maraqlı yazıları ilə nəzər - diqqəti özünə cəlb etmişdir. Yaralı Qarabağın yaralı övladı olan Z.Sultanov ömrünün 30 ilə yaxın bir dövrünü Vətən həsrətilə keçirmişdir.



Mən Ziyəddin müəllimi gənclik illərindən tanıyıram və biz bir eloğlu kimi bir - birimizlə yaxın dost olmuşuq. Xalqımızın müdrik bir deyimi var: "Qardaşını tanıyırsanmı deyir, yoldaş olmamışam". Bu deyim olduqca sərrast və yerində söylənilmiş fikirdir. Mən Ziyəddin müəllimlə 2005-ci ildən 2020-ci ilə qədər ADPU-nun Ağcabədi filialında müəllim kimi çiyin - çiyinə birlikdə çalışmışam. Bu on beş il ərzində daha da yaxından qaynayıb - qarışdıq və ən yaxın dost olduq. Bir - birimizə Xalaoğlu deyərək müraciət edirdik. Z.Sultanovun səmimiliyi dostların, yoldaşların, tanışların, qohumların qayğısına qalması və hətta hər an onların hayına çatıb dayaq durması məndə ona qarşı xüsusi məhəbbət yaratmışdı. Onu da söyləyim ki, biz həm də qonşu kəndliyik və elə demək mümkünsə, biz bir çayda çimmişik, bir bulaqdan su içmişik. Birimiz Xaçın çayının sağ sahilindən o birimiz isə sol sahilindənik. Xaçın çayı da bizi bir - birimizə bağlayırdı. Maraqlı söhbətləri ilə həmişə məni özünə cəlb edərdi. Onun mətbuatda çap olunan bütün yazılarını hər zaman maraqla izləyər, oxuyar və fikirlərimi ona bildirərdim. Deyərdi ki, Xalaoğlu sənin fikirlərin mənə yazıb - yaratmaq stimulu verir.

Mən düşünürəm ki, Z.Sultanov hansı bir mövzunu qələmə almışdırsa, onu can yanğısı, alovlu bir dillə danışmışdır. Hər bir detalı xüsusi yanaşma tərzi ilə canlı lövhə kimi vermişdir. Yaralı Qarabağla bağlı yazdığı bütün əsərlərin mövzusunu həyatın özündən almışdır. Sadəcə o hadisələri yeni poetik ruhda, yeni biçimdə canlı nəfəs verərək səmimi, şirin duyğularla nəql edir. Bu da oxucuda yeni mənəvi oyanış yaradır. Qələmə aldığı Vətən övladlarının həyat səlnaməsi onun qələmindən süzülüb gələn şəffaf bulaq suyu kimi dupduru, təmiz, incə təravəti ilə süzülərək insanların ürəyinə məlhəm olur, onları özlərinə məftun edə bilir. Səmimi hissilərini aydın şəkildə göstərir. Z.Sultanovun yaradıcılıq ampulasının genişliyi, mövzu dairəsinin rəngarəngliyi onun əsərlərinin xarakterik xüsusiyyətləridir. Doğma Qarabağ üçün hərarətlə döyünən ürəyi hər an yurddaşlarını oraya səsləyir. "Gəlin gedək Qarabağa" əsəri də onun Vətənə məhəbbət həsrətinin haray səsidir. Bu haray Z.Sultanov ürəyində qövr edən ürəkləri parçalayan ah - naləsindən qopan qəmli mahnıların sədası Qarabağ səmasına yayılır. Kükrəyən bu Vətən həsrətli nisgil ürəkləri qəm alovuna qərq edir, onları sarsıdır.

El - obasında iz qoyub gedən sənətkarlarımızdan olan Ziyəddin Sultanov öz əsərlərində xalqının həyatından yaratdığı müəyyən fraqmetlərlə yeni səhifələr açaraq getdi. Aşağıdakı el bayatısında deyildiyi kimi:

***Əzizim bizim qala,***
***Həmişə bizim qala.***
***Tikmədim özüm qalam,***
***Tikdim ki, izim qala.***

Bizə bir həqiqət də məlumdur ki, Z.Sultanov Qarabağ torpağının hər daşında, hər qayasında izi görünən söz ustadlarındandır. Yaradıcılığında yaralı Qarabağa erməni cəlladlarının gətirdiyi bütün fəlakətləri sadə xalq dilində sənətkarlıqla oxucularına söyləyir. Hər kəsi Qarabağ olayları ilə yaxından tanış edir, yaddaşları təzələyir: Özü, isə yaddaşların fonunda torpağa qovuşur.

İnsan dünyada qızıl gül kimi açılır və solub gedir. Ziyəddin müəllimin ömrü də qızıl gül kimi açdı və soldu:

***Qızıl gül olmayaydı,***
***Saralıb solmayaydı.***
***Bir ayrılıq, bir ölüm,***
***Heç biri olmayaydı.***

Yerin behişt olsun Xalaoğlu! Dünya durduqca səni sevənlərin qəlbində əbədi yaşayasan. Amin! Sənin Qızıl gül ətri verən arzuların Zallar torpağının səmalarını hər zaman bürüsün, ürəklərə təravət bəxş etsin. Fikirlərimi bitirə bilmirəm, sözlər getdikcə çözələnir, xatirələr baş qaldırıb oyanır, hey yazmaq, yazmaq istəyirəm. Sözlər bitib tükənmir ki, tükənmir... Ötən anlar qövr edərək baş qaldırıb məni səsləyir, hey səsləyir... Haraya bilmirəm...

Qızıl gül kimi dünyaya ətir səpən insanların bu dünyadan köç etməsi ürəklərə süstlük, qəm - kədər gətirsə də, onlar ölümləri ilə ölümsüzləşirlər. Ötən illərə boylanarkən onlar xoş xatirələrlə yad edilir... Düşünürsən ki, nə yaxşı silinməz iz qoymuş insanlar var, yaxşı həyat sönüb külə dönmüş ocağa bənzəyər. Ancaq onu da demək olar ki, Qızıl gül solub getsə də, onun kökündən yenisi pöhrələyir, xoş ətri ilə səmalara yeni həyat bəxş edir. Ayrılıq insanlara kədər gətirsə də, amma bu kədər fonunda Qızıl gülün qoyub getdiyi ətir insanlar yaşadıqca yaşayır, ayrılıq və ölümün sevinməyə haqqı olmur...

Sözümü ölməz şairimiz Hüseyn Cavidin aşağıdakı misraları ilə bitirirəm:

*Fələyin yazdığını mən poza bilsəydim həmən,*
*Onu arzumla məramımla yazardım təzədən,*
*Dünyadan sürgün edərdim əzabı, dərdi, qəmi,*
*Şadlığı, nəşəni bayraq tək asardım göyə mən.*

**Sabir Rüstəmoğlu (Məmmədov),**
**ADPU-nun Ağcabədi filialının**
**dosenti, AYB və AJB üzvü**

# "Kəssə hər kim tökülən qan izini, Qurtaran dahi odur yer üzünü!"

## Şəhidlərimizi ehtiramla anırıq!



*Əlibala Rəhimov,*
*yazıçı-publisist*

**Bütün parametrlərdə qədim və gözəl diyarımız, qəlbən sevdiyim Biləsuvarın tarixində Əli Bədir oğlu Babayevin yaşayacağına əminəm. (Hazırda Əli müəllim Biləsuvar rayon Ağsaqqallar Şurasının sədridir.) O, sözün əsl mənasında idarəetmənin bənzərsiz şəxsiyyəti idi, hamını yaxşı tanıyırdı, ağzını açma, gözlərinə baxan kimi ürəyini, niyyətini "oxuyurdu", necə deyərlər, lap onluğa vururdu... Vəzifədə olan kadrların heç biri, bu və ya başqa yolla onu aldada bilməzdi, siyasətdə həmişə şanslı, mümkün ola biləcək mövqedə dayanırdı.**

Onun yaddaqalan, unudulmaz xarakter cizgilərindən ən maraqlısı: rayonda baş verə biləcək yeniliklər zamanı H.Əliyevin hakimiyyətə gəlişi, Qurban bayramı, Əhmədağa Muğanlının, Əlibala Hacızadənin, Yusif Məmmədovun, Telman Şirinovun...yubileylərinin keçirilməsi vaxtı aparat işçiləri ilə məsləhət-məşvərəti yaddaş cədvəlimdən silinməyib hələ.

Budur, ikinci mərəbədən birinci mərtəbəyə hay-haray, çağırış: "Tez-tez gəlin, Başçının yanında iclas. Qapının önündə vəzifə böyük-kiçikliyinə görə dayanmışıq. Nə olub? Nə baş verib? Qaş-gözlə danışırıq, müavinlər başlarını yelləyirlər, yəni heç nə bilmirik".

Qapını açıb, asta-asta hər kəs öz yerində, əlində bloknot və qələm əyləşir. Yenə intizarlı baxışlarımız dikilib Başçıya. O, özünə məxsus təmkinlə bizi süzür, sonra əlindəki vərəqə baxa-baxa hər şeyi açıqlayır, bizim intizarımıza son qoyur:

-Doğma Azərbaycanımızda son illərin siyasi situasiyaları haqqında geniş danışmayacam. Bakıda, ölkənin baş şəhərində, rayonumuzda baş verən olaylar hamınızın yaddaşından təzə-tərdir. Biz müstəqillik uğrunda haqq səsimizi başqa respublikalardan qabaq ucaltmış və buna görə yüzlərlə qeyrətli oğul-qəzlarımız qanına qəltan edilmişdir. 20 yanvar-Bakı qətliamında rayonumuzdan iki nəfər- Baba Xammədov və Əlimərdan Hüseynov şəhidlik zirvəsinə yüksəlmişdir. Sonrakı qısa zaman kəsiyi, Qarabağda, onun ətrafında onun ətraf rayonlarında qanlı döyüşlər, havadarlarının köməyi, müasir silahı hesabına erməni vandallarının qədim şəhər və kəndlərimizi işğal etməsini, yüzlərlə soydaşımızın qətliamını, Xocalı soyqırımını, yaddaşımızın qanla yazılan həyat gerçəkliklərini unutmağa haqqımız yoxdur. Bakıda gedib görübsüz, cavanlı-qocalı, uşaqlı-böyüklü həmyerlilərimizin əbədi ziyarətgahı Fəxri Xiyaban... Dərindən düşünürsən, ayağının altında yer silkələnir, göylər sanki başına uçur: niyə belə ağlasığmaz, faciələr baş versin, niyə bizimlə bir süfrədə əyləşib, çörək kəsmiş ermənilər yağı düşmənə çevriliblər, niyə onların alçaq xislətini, hiyləgərliyini hiss etməmişik?..

Vaxtınızı çox almaq istəmirəm. Yuxarının tapşırığı var: bütün rayon mərkəzlərində hamının görə biləcəyi, tez-tez qarşılacağı yerdə Fəxri Xiyabanlar inşa olunmalıdır. Yer müəyyənləşdirmişik. Cənub zonasına gedən magistral yolun sağ tərəfində, sıralanmış şam, küknar, palıd ağaclarının əhatəsində şəhidlərin ruhuna hörmət əlaməti kimi xiyaban tikməliyik. Ağlay daşından divar hörüləcək, qara və ağ mərmərdən üzlük vurulacaq, sonra bütün biləsuvarlı şəhidlərin şəkli, adı, soyadı, doğum-ölüm tarixləri orda həkk ediləcək. Güllü-çiçəkli park salınması da öz yerində... Biz heç, qoy gələcək nəsilər bilsin ki, Azərbaycanımızın müstəqilliyi, ərazi bütövlüyü uğrunda onlar cavan yaşlarında öz həyatlarını, arzu və istəklərini qurban vermişlər.

Nəfəs dərdi, sonra qısaca tapşırığını verdi.

-O xiyabana nə ad verək? Hamınızın əlində bloknot, qələm var. Elə buradaca beş-on dəqiqənin içində hər kəs öz fikrini, vəzifəsini yazsın, ötürsün mənə. Baxaq, götür-qoy edək, yekun nəticəyə gələk.

Başımızı saldıq aşağı. Elə dizimizin üstündə qələmlə ağ kağıza, kim nə düşünürsə başladı yazmağa. Vaxt məhdudiyyəti olsa belə götür-qoy elədim, xəyal məni gələcək zamana apardı. Böyüklər bir yana, bayramlarda, şəhidlərin doğum və ölüm günləri əllərində gül-çiçək buketləri tutmuş və sıra ilə, dəstə-dəstə gəlib bu xiyabanın ziyarətçisi olacaq baxça, məktəb uşaqları gözlərim önündə canlandı. Deməli, başlıq, orjinal, mükəmməl, hamını narahat edən, silkələyən olmalıdı.

Tez-tələsik olsa belə, hər kəs öz fikrini yazıb ötürür Başçıya. Mən də eləcə... Ə.Babayev özünə məxsus təmkinlə, səbrlə qısaca qeydləri tək-tək oxuyur və yığır qovluğa... Bir-birinə bənzər cümlələr, sözlər:

***"Biləsuvar şəhidləri"***
***"Biz onlarla fəxr edirik"***
***"Şəhidlik ən uca zirvədir"***
***"Onları unutmayacağıq"***
***"Məscidlərdə onlara dua edək"***

Beləcə, trafaret, şablon cümlələr və mənim yazıma Ə.Babayev baxır, baxır, önündəki qutudan bir gilə siqaret çıxarıb iki barmağı ilə yumşaldır onu, sonra nə fikirləşirsə yandırmır, qaytarıb qoyur qutuya... Qaşlarını yuxarı dartır, dodağını büzür, mənə zənnlə diqqət eləyir, sanki ilk dəfə qarşılaşırıq, birdən bərkdən gülür o, buna bəndmiş kimi, hammı şaqqanaq çəkir. Pərt oluram, sifətim alışıb yanır. Sağımda oturan, dostlardan "biri əlini alnıma qoyur, gülə-gülə" deyir:

-Hə, o söz, qızdırması var, sayıqlayıb...

Nə yazmışdım mənciyəz? Əvvəl S. Vurğunun atoristik misrasını: Tarix unutmayır qəhrəmanları! "Onu pozdum, belə yazdım: "Vətən can istədi, can verdi onlar!" Bu da xoşuma gəlmədi. Xətt çəkdim üstündən... Dünən axşam mütaliyə etdiyim H. Cavidin "iblisi" xatirəmdə boy verdi. Gecikmədim və...

Necə də qəribə, xəyalım gəlməyən baışlar, düşüncələr silsiləymiş bu həyat. O günün səhərisi sanki əzablı, ağrılı, sözlə ifadə edilməyən situasiya girdabına atdılar mənciyəzi. Həmişə oturub-durduğum, bir süfrədə çörək kəsdiyim iş yoldaşlarımın, "dostlarım"ın mənimlə münasibəti 180 dərəcə dəyişmişdir. O gün qapının aralı, açıq yerindən üzbəüz otağa yığışan aparatçiklərin qeyri-adi mülahizə, böhtan, şayiə dolu "bəzəmələri"ni eşidərkən, hövlləndim, baay, doğurdan caykeş, sətəm-seyrək, ağlını küləyə verən vücud, bir kimsənə imişəm mən? Niyə məndən üz çevirib qaçırlar. Hansı günahın sahibiyəm? Evdə xanimima nəsə çatdırıblar. Alma-salma, o gün nə desə yaxşıdır: kişi hirslənmə, düz sözümdü: gəl səni Cəlilabada "baxıcı Məlahətin üstünə aparım. Bəlkə Beyləqana Cərliz peyğəmbərin qəbri üstünə ziyarətgaha gedək, hə?"

Polisdə işləyən oğlum da heç nə deməsə belə məni qəribə baxışlarla süzür... Yəqin ki, orda-burda gəzən şayiələrin ucundan-qulağından nəsə eşidib o...

Birisi Başçıya çatdırıb ki, mən artıq dəlilik həddindəyəm, yol gedərkən öz-öümə danışıram, "iblis", "ibliş" deyirəm. Onu qanmıram, bəlkə həqiqətən deyirmişəm ki:

"Nədir iblis?!- Cümlə xəyanətlərə bais. Bəs bütün insanlara xain olan insan nədir?!- "iblis". Son günlər mütaliə etdiyim H.Cavidin "iblis" pyesindən bir beyt...

Ay-ay-ay, Ə. Babayevin kiçik qeydimə dodaq büzməsi, ucadan gülməsi geniş rezonans, assossasiya doğurubmuş. Neyləməli üzdə mələk, daldada kələk xislətli adamcıqlardan fərqli olaraq, canım qədər sevdiyim, həmişə həqiqətin tərəfində dayanan, dönməz əqidəli, sözü bütöv dostum Əlizadə müəllimin (onun böyük ürəyi var) bu fikri, bu düşüncəsi könül dünyamdan boy verir:

"Şərq yaltağı iyrənc, qorxulu, çoxüzlüdür. Əgər rəhbər qımışırsa, əzizi yenicə rəhmətə getsə belə o, şaqqanaq çəkib, gülür. Yox, əgər rəhbər qəmlidirsə o, dəsmalını gözünə basıb, hıçqırtı vurur, ağlayır."

...Və, nəhayət 5 günlük ağrı -əzablarıma son qoyulur. O kiçik qeydlərimiz toplanan qovluğu Ə.Babayev rayona gəlmiş Respublika Nazirlər Kabinetinin məsul işçisi şair Ramiz Məmmədzadənin qonaq otağında qoyur qabağına və xahiş eləyir ki, tikintisi artıq davam eləyən Fəxri Xiyaban üçün burdan bir başlıq seçsin. Əhsən sənə Ramiz müəllim, ancaq mənim qeydimi oxuyur, bəyənir və Başçıya məsləhət bilir ki, ən yaxşı ziyarətə gələnlərin diqqətini cəlb eləyəndi. Onu yazın. H.Cavidin "İblis" pyesindəndi.

İndi R.Məmmədzadə ahıl yaşdadı. Ara-sıra dövrü mətbuatda poeziya nümunələrinə rast gəlirəm. Qarabağ dərdimiz qırmızı xətt kimi keçir onun bütün yaradıcılığından...

Budur, əllərində ətirli gül-çiçək dəstələri tutmuş məktəb uşaqları gəliblər Xiyabana, ilk öncə başlığı oxuyarlar:

***"Kəssə hər kim tökülən qan izini,***
***Qurtaran dahi odur yer üzünü!".***

Sonra gülləri qoyurlar qəbirlərin üstünə, mərmərə nəqş edilən şəhid şəkillərini öpürlər... Arxaya çəkilib sıraya düzülür, xorla oxuyurlar:

*Azərbaycan! Azərbaycan!*
*Ey qəhrəman övladın şanlı Vətəni!*
*Səndən ötrü can verməyə cümlə hazırız!*
*Səndən ötrü qan tökməyə cümlə qadiriz!*
*Üç rəngli bayrağınla məsud yaşa!*
*Üç rəngli bayrağınla məsud yaşa!*

***P.S. Bu gün Azərbaycanımızın, onun bir parçası olan Biləsuvarın igid, qeyrətli oğulları müsəlləh əskərdir. 2010-cu ilin adamı Ermənistana 3 gün matəm yaşadan Milli Qəhrəmanımız Mübariz İbrahimovun adı ilə fəxr edirik, qürur duyuruq. 27 sentyabr 2020-ci il tarixdən başlayan və 44 gün davam edərək şanlı ordumuzun böyük zəfər qələbəsi ilə başa çatan Vətən müharibəsində, təkcə Biləsuvardan 70 nəfər qorxmaz, igid qəhrəman oğlumuz şəhidlik zirvəsinə yüksəldi, sözün həqiqi mənasında, "Vətən can istədi, can verdi onlar!".***

# Oxucuların şükranlığı müəllifin şükranlığıdı

**Bir mahnının bir misrasını xatırlayıram: Sev ki, sevən mərd olar. Əlisəftər Hüseynovun "Sevgimizdən usanmayaq" kitabı sevgiyə - mərdliyə çağırışın ədəbi (bədii) siluetidi, şübhəsiz. Bu sevgi Azərbaycan incəsənətinə (deməli, Azərbaycana. azərbaycançılığa) sədaqətdi. Bu sədaqətin mahiyyəti dünyəvilikdi, bəşərilikdi; "Sevgimizdən usanmayaq" bəşəriliyin kitabıdı...**

"Barmaqların hikməti"ndə könlümə yatan təhkiyyədə, faktlarda sezilən işıq kitabı ürəyinin gözüylə oxuyanlar üçün Maestro Niyazi dünyasından musiqi kəhkəşanına düşən içığın eynidi. Oxucuların bu işığı ədəbi (bədii!) işıq bilməsi müəllifin şükranlığıdı, "Barmaqalrın hikməti"ndə barmaqların hikmətini sezmək - oxucuların...

76-cı, ya 77-ci iliydi. Tbilisidə Xuraman və Fidan qasımova bacılarının iştirakı ilə konsert olacaqdı. Gürcüstan SSR Mədəniyyət Nazirliyinin təşkilatçılığıyla təşkil edilən bu kiki günlük bu konsertə rayon rəhbərrliklərinin xüsusi siyahısıyla getmək olardı. Konsertdə müxtəlif rayonlardan gəlmiş müxtəlif millətlərin nümayəndələri iştirak edirdi. Dirijor Maestro Niyazi idi!

Hər ifadan sonra Qasımova bacıları canidildən aıqışlanırdı. Bu gözəl alqışları "Maestro!", "Maestro!" nidaları tamamlayırdı. Sonda Üzeyir Hacıbəyovun duyanların duyğularına göyqurşağı bildiyim "Koroğlu" operasının uvertürası səsləndi! Yüzlərin - azərbaycanlıların, gürcülərin, rusların, yunanların, abxazların, acarların alqışı uzun çəkdi. Həm də ayaq üstə! Hamı iki heyrətin cazibəsindəydi - Üzeyir bəyin və Niyazinin!

O alqışların səmimiyyəti onda ürəyimi qürurla silələmişdi. Aradan neçə on illər keçəndən sonra Əlisəftər Hüseynovun bir xatırlatması həmin konsertin bir məqamını yenidən yaşatdı. Buna qadir olan əsərlər təbii ki, dəyərli əsərdi...

Tanınmışlar haqqında yazmaq çətindi - məlum fakt və hadisələri yenidən oxumaq usandırıcı olmazmı (bundan usanılar. sevgidən isə yox!). Oxucu məsuliyyəti ilə deyirəm ki, "Sevgimizdən usanmayaq" kitabında usandırıcı heç nə yoxdu...

Səməndər Rzayevin Kamranı ("Unuda bilmirəm") mənə - tələbə Rəşid Məmməd oğluna sevdiyi teatr sənətini daha da sevdirdi, ruhunun beşiyi olan Borçalısını daha da ululaşdırdı. Sevginin dəruniliyə çevrilməsi dialektikasının necəliyini də onda duymuşdum. Kamranın el-obasına sədaqətiylə - Kamranın daxili aləmini açmağı bacaran Səməndər Rzayev qüdrətiylə duymuşdum! Obraz kimi Kamranın Borçalıya bunca sədaqəti neçə-neçə Rəşidlərin ömrünü mənəvi ucalıqdan üzülməyə qoymadı. Görəsən başqa aktyor bunu belə aşılaya bilərdimi? Əlisəftər Hüseynovun "Özünə yenilən "kral" aktyor"məqaləsini oxuduqca qət edirsən ki, yox. Bu obraz Səməndər Rzayevin "boyuna bişilib", Səməndər Rzayev haqqında belə səmimi məqalə yazmaq Əlisəftər Hüseynovun qələminin qüdrətinə. Kamranın (Səməndər Rzayevin) "Borçalı dünyanın o başı deyil!" fikrinə çataqlı "Sevin, sevgidən bezməyin!" fikrinin işığında Əlisəftərin "Sevgimizdən usanmayaq" kitabının işığını görürəm: "Onun (Səməndər Rzayevin - R.F.) yaratdığı İbrahim sanki dahi bir rəssamın rəngarəng boyalarla ırsəyə gətirdiyi monumental bir portret idi və adam elə gəlirdi ki, Səməndər məhz belə portretlərə nəfəs vermək üçün doğulub..." ("Özünə yenilən "kral" aktyor"). Gözəl fikir gözəl də ifadə edilib - insaflılar sözümə söykək olacaq. Bu kitabı sevilənləri sevdirməyə qadir kitab kimi oxudum - dəyəri həm də bununla hesablanmalıdır: sevilənləri daha da sevdirir axı...

Azərbaycan Dram teatrının Gürcüstana qastrolunda, Bakıdan xeyli uzaqda - Qaraçöpdə Meydan tamaşasından azca sonra aktyorlara və rejissora "Gördünüzmü ki, Borşalı dünyanın o başı deyilmiş!" nidası həm Azərbaycanın tarixi keçmişinə sayğı kimi səsləndi. həm də yüzlərin könlünə ziyarət oldu. Səməndərin səsiylə eşidilən bu nida tarixə bir həqiqəti də xatırlatdı: Vətənin o başı, bu başı olmur; belə sənətkarla bağlı xatirələrlə "Sevgimizdən usanmayaq" kitabında yazılanlar arasında mənəvi-ruhi bir bağlılıq görürəm. Əlisəftərin məqaləsi belə xatirələrin kantatasına dönür...

Bütövlük anlayışının sənətşünaslığa inteqarsiyasını bəyəndim (dilimizin zənginliyinə görə Əlisəftərin təqdimatında bir daha qürurlandım), bu kəlməni "Həsənağa Turabovun bütövlüyü" məqaləsinə ricət buldim; məqalə bütövlükdə bütövlüyün oratoriyası kimi səslənir. "O, (Həsən Turabov - R.F.) hansı obrazı yaradırsa - müsbət ya mənfi, əsas, ya epizodik, tarixi, ya müasir - fərqi yoxdur - onu bütöv yaradırdı...". Əlisəftər bu fikri Həsən Məmmədova həsr etdiyi "Əksliklərin vəhdəti" məqaləsində başqa formatda təqdim edib: "...Zaman bu obrazın bədii bütövlüyünə zərrə qədər də xələl gətirə bilməmişdir. Obrazın (həm də xarakterin - R.F.) mahiyyəti bütün süjet boyu təzadlı qütblərin toqquşmasında açılır. Abbasqulu bəy əməl fəaliyyətinin strateji yönünə görə - bolşevik ruhuna, mənəviyyatına. davranış etiketinə görə isə - bəydir. Aktyor obrazı səciyyələndirən xüsusiyyətləri məhz bu əksliklərin vəhdətində tapmış, onların toqquşmasından yaranan effekti axıra qədər qoruyub saxlaya bilmişdir..."...

Anarın "Dantenin yubileyi"ni oxumuşdum. Kəbirlinski obrazı az-çox ədəbi (bədii) zövqü olan bir oxucu kimi mənim də düşüncələrimi tərpətmişdi. Tay-tuşlarımla kəlmələşəndə yan-yörəmizdəki Kəbirlinskiləri görüncə "Kəbirliski" - təyinini də işlədirdik. Aradan illər keçəndən sonra "Segimizdən usanmayaq" kitabında oxuduğum kəlmələr - Həsən Turabovun yaratdığı Kəbirli obrazı haqqında Əlisəfərin dedikləri mənə qədərincə doğma göründü və mənə elə gəlir ki, Əlisəftər duyumuyla, təxəyyülüylə çoxlarının fikrini bədii telepatiya formatında ümumiləşdirib: "Onun Kəbirlinskisi tamaşaçını ömrün mənası, insanın həyatdakı missiyası ilə bağlı dərin düşüncələrə daldırır..."...

Əmir Teymur İranı fəth etdikdən sonra "Şahnamə"də türkləri aşağılayan Firdovsinin məzarına gələn, ayağını məzarın üstünə qoyaraq: "Ey Firdovsi, qalx, qalx da, hər sətrində aşağıladığın "məğlub türkü" indi gör! Qalx da küfr etdiyin, küsümsədiyin türkə bax!" deyən Əmir Teymurun Əmir Teymurluğunu "Nəsimi" bədii filmində daha möhtəşəmliklə yaşadıq. Onu bizə müqtədir aktyor Yusif Vəliyev yaşatmışdı. Əlisəftər Hüseynovun "Sevgimizdən usanmayaq" kitabında bu böyük sənətkar haqqında "Yusif Vəliyevin xarizması" məqaləsini oxuyandan sonra faktı ədəbiyyata bunca duyğusallıqla gətirdiyinə görə Əlisəftərə təşəkkür etməklə Yusif Vəliyevi tanımayan (tanımamaq öz yerində, onun kimliyini bilməyən!) məmura sənətkara və sənətə münasibətinin cılızlığına görə yazığım gəldi. Məqalə (kitab!) belə məmurlara Mirzə Cəlil sözünün qüdrətindən rişələnən sözün cavabıdı və bu gözəl cavab Azərbaycan incəsənətinin cavabıdı!. Həm də bircə kəlmə ilə: bədbəxt!..Və zamanında Yusif Vəliyevin əlini sıxa bilməməyin təəssüfünü indi də yaşadım; Əlisəəftər Hüseynovun "Sevgimizdən usanmayaq" kitabı yaşatdı...

"Sevgimizdən usanmayaq" kitabının bədii (və tarixi!) dəyəri həm də tanınmışları yenidən tanıtma missiyasındadı...

**"Eldəniz Zeynalov paradoksu" məqaləsində Əlisəftər yazır ki, "Eldəniz yaratdığı obrazların ardınca getmirdi. əksinə, onları öz ardınca aparırdı". Bu tezisi müəllifin özünə də şamil etmək olar: sənətşünaslıq üzrə fəlsəfə doktoru Əlisəftər Hüseynov yazdığı mövzuların ardınca getmir, əksinə, belə mövzular ahənrübalaşaraq onu özünə çəkir...**

**Rəşid Faxralı**

Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

№ 52 (2233) 20 may 2021-ci il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Ağcabədi inkişaf yollarında

**Azərbaycanın kənd təsərrüfatı rayonlarından biri olan Ağcabədi özünün sosial-iqtisadi inkişaf tempinə görə respublikada diqqətçəkən bir məqamda qərar tutub. Belə ki, bu rayonun istər kənd təsərrüfatı, istər sənaye, istərsə də digər sosial sahələri planlı şəkildə inkişaf etdirilir. Təbii ki, bu məsələdə əsas söz sahibi ölkə prezidenti cənab İlham Əliyevin birbaşa tapşırıqları, qərarları və bir də onun imzaladığı Regionların İnkişafına Dair Dövlət Proqramıdır.**

Bu gün Azərbaycanın həm hərbi, həm də iqtisadi sahədki uğurları təkcə ölkə daxilində deyil, onun hüdudlarından kənarda da qəbul edilir. Ölkə rəhbərliyinin apardığı uğurlu siyasətin nəticəsidir ki, Azərbaycanda, o cümlədən də Ağcabədidə fermerlərin, sahibkarların, şəxsi təsərrüfat sahiblərinin öz planlarına uyğun şəkildə, təbii ki, ölkə iqtisadiyyatına töhfə verəcək bir şəkildə təsərrüfatlarını qura bilirlər. Necə deyərlər, fərdi, həm də kollektiv şəkildə görülən işlərin son nəticəsi öncə Ağcabədinin, sonra da bütün Ağcabədinin iqtisadi həyatda özünü göstərir. Bu mənada Ağcabədinin yerləşdiyi coğrafi ərazi də kənd təsərrüfatının inkişafı üçün münbit sayılır. Bu rayonun əkin sahələri özünün bərəkəti ilə həmişə diqqəti çəkib. Elə ona görə də rayonda təkcə pambıqçılıq, üzümçülük deyil, eləcə də bağ-bostan, tərəvəz məhsulları, həmçinin heyvandarlığın inkişafına da bütün zamanlarda böyük diqqət göstərilir. Bunun nəticəsidir ki, bu gün Ağcabədidə rayon əhalisinin 73 min nəfərə yaxın nümayəndəsi məşğul əhali siyahısına daxildir. Bu da o deməkdir ki, rayonda həm iş yerlərinin olması, həm də bu iş yerlərinin məhsuldarlığı , ailə büdcəsinə gətirdiyi gəlir ağcabədililəri təsərrüfata, əmək sahəsinə birmənalı şəkildə bağlayıbdır. Adamlar öz alın tərləri hesabına yaratdıqları, qurduqları təsərrüfatdan kifayət qədər gəlir götürə bilirlər. Deməli, qazancın maya dəyərini üstələməsi adamların həyat səviyyəsinin yüksəlməsinə işıq yandırır.





Regionların İnkişafına Dair Dövlət Proqramına uyğun olaraq bu gün Ağcabədidə istehsalla məşğul olan məhdud məsuliyyətli cəmiyyətlər də fəaliyyət göstərir. Onlardan biri də "Atena" MMC-dir. Rayon icra hakimiyyətinin saytından əldə etdiyimiz bilgiyə görə, faktiki olaraq bu gün "Atena" MMC-də 200 nəfər çalışır. Bu da öz növbəsində 200 ailə deməkdir. Deməli, daimi iş yeri olan 200 ailə özünün sosial həyatını təmin etmək imkanı qazanıbdır. Rəqəmlərə üz tutsaq onda görərik ki, bu gün Ağcabədidə kənd təsərrüfatı sahəsində 33 minə yaxın, tikintidə 400 nəfərə yaxın insan çalışır. Əgər həmin rəqəmlərin sırasını artırsaq buraya təhsil, mədəniyyət, səhiyyə, bədən tərbiyəsi, idarəçilik və digər sahələri də əlavə etməli olarıq. Məhz bu əlavələr də rayondakı əmək resurslarının göstəricisi olar.

Ağcabədi rayonu özünün pambıqçılığı, üzümçülüyü ilə hər zaman Azərbaycan iqtisadiyyatının əsas sütunlarından birini təşkil edir. Rayon ərazisində pambıq emalı zavodu, üzümün ilkin emalı zavodu da fəaliyyət göstərir. Bu gün də hmin sahələrin daha geniş şəkildə bərpa olunması tarixi zərurətdir. Çünki bu həm iş yeri deməkdir, həm də iqtisadi gücün artması. Elə bu səbəbdəndir ki, artıq son illərdə Ağcabədidə ayrı-ayrı şəxslər, fermerlər, sahibkarlar pambıq əkininə maraq göstərməyə başlayıblar. Doğrudur, Sovet dönəmi ilə müqayisədə bu göstərici çrx kiçik olsa da amma sahəyə yenidən qayıdışın özü önəmlidir.

Ağcabədidə heyvandarlığın inkişafı üçün də normal şərait var. Elə "Atena" MMC-nin fəaliyyəti həmin heyvandarlıqla bağlı söylədiyimiz fikirlərin əyani təsviridir. Azərbaycan bazarına çıxarılan Ağcabədi heyvandarlarının məhsulları özünün çeşid və keyfiyyəti ilə hər zaman alıcılarda maraq doğurur. Bu maraq da tələbatın artmasına gətirib çıxarır. Bax bu mənada Ağcabədidə heyvandarlığa əlavə resursların ayrılması, örüş sahələrinin ayrılması həmişə diqqətdə saxlanılmalıdır. Çünki heyvandarların ən böyük problemi örüş təminatı, bir də yem tədarükü sayılır. Yeri gəlmişkən, onu da xatırladaq ki, Ağcabədi Azərbaycan tarixində öz arxeoloji abidələri ilə maraq doğuran bir bölgədir. Bu ərazidə tunc dövründən üzü bəri neçə tarixi zaman kəsiyinin nümunələri mövcuddur. Aparılan arxeoloji qazıntılar, eləcə də tapılan nümunələr də rayonun məskunlaşma tarixinin ən uzaq əsirlərə gedib çıxdığını göstərir.

Bu gün Ağcabədidə təhsilin, səhiyyənin inkişaf perspektivləri də böyükdür. Doğrudur, dünyanı bürüyən pandemiyanın yaratdığı çətinliklər üzündən digər bölgələr kimi Ağcabədidə də təhsildə onlayn sisteminə üstünlük verilib. Amma buna baxmayaraq, ötən illərin nəticələrinə görə



Ağcabədidə orta məktəbi əla və müvafiq qiymətlərlə bitirən ali məetəblərə qəbul olunan tələbələrin sayı xeyli artıbdır. Bu da onu göstərir ki, rayondakı 62 ümumtəhsil məktəbinin, 1 texniki peşə məktəbi və digər təhsil müəssisələri öz işini günün tələbləri səviyyəsində qurmağa müvəffəq olubdur. Burada onu da xatırlatmaq yerinə düşər ki, Ağcabədidə Pedaqoji Universitetin filialı fəaliyyət göstərir. Bu da öz növbəsində rayonun ictimai-siyasi həyatına önəmli təsir göstərir.

**Azərbaycanın qədim yaşayış məskənlərindən olan Ağcabədinin bugünki mənzərəsi həqiqətə ürəkaçandır. İstər bugünki rayon rəhbərliyinin, istərsə də öncəki rəhbərliyin bünövrəsini mükəmməl qoyduğu tikinti bərpa, abadlıq işləri Ağcabədini müasir yaşayış məskənləri səviyyəsinə gətirib çıxarıbdır. Rayondakı mehmanxanaların, sosial-məişət obyektlərinin, küçə və yolların abadlığı, müasirliyi bir daha göstərir ki, Ağcabədi uğurlu inkişaf yolundadır. Bu yolun bütün uğurları isə Azərbaycan Prezidentinin siyasəti ilə bağlıdır. Həmin siyasəti Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı və onun komandası böyük əzmlə yerinə yetirir.**

***Əbülfət MƏDƏTOĞLU***

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Sözlə "davranmağı" bacaran şair





**Söyləməyə əsasım var ki, deyəm, Aydını bineyi-qədimdən, hələ əski yurd yerini təxəllüs götürməmişdən çox-çox erkən, ötən yüzilliyin 80-ci illərindən tanıyıram. Onda teatrşünaslığı yenicə bitirən, adda-budda şeirləri ölkə mətbuatında (Sovet dövründəki çap məhdudiyyəti səbəbindən) görünən müəllif gənclik həvəsiylə coşub-daşır, yazıb-yaradırdı. "Azərbaycan" jurnalında işlədik, dostlaşdıq, yaxınlaşdıq və mən söhbətimizin birində Aydının rəssam atasını - Cabbar müəllimi qiyabi surətdə tanıdım. Eyni zamanda Qərbi Azərbaycanın Zəngibasar rayonunda (Uluxanlı mahalı, Zəhmət kəndi) məskunlaşan, zatı-kökü çox-çox dərinlərə gedib çıxan bir soyun şəcərəsindən müfəssəl məlumat topladım.**

O çağlardan illər ötüb, fırça ustası Cabbar Quliyev, ömür-gün sirdaşı Sara ana qədim yurd yerlərindən didərgin düşdülər, Mehdiabadda (Binəqədi rayonu) yaşadılar, ürəkləri sızlaya-sızlaya kənd-kəsəkləri üçün burunlarının ucu göynədi, elə nisgilli-nisgilli də (Sara xanımın hələ heç ili çıxmayıb) həyata "vida" dedilər, Abşeronda torpağa tapşırıldılar. Bu faciəvi tale fırça ustası ata Cabbarın, eyni zamanda şair oğlu Aydın Uluxanlının yazdıqlarından dönə-dönə keçir.

Aydının ilk şeirlərini "Azərbaycan", "Ulduz" dərgilərindən, "Ədəbiyyat qəzeti"ndən, sonra "Ədalət"dən oxumuşam və hiss etmişəm ki, 80-cilər ədəbi nəslinə mənsub bu şair sözlə "davranmağı", nazıyla oynamağı bacarır. Onun "Vektor" Beynəlxalq Nəşrlər Evində yaxınlarda çapdan çıxan "Ana" şeirlər və poemalar kitabı son illərin ədəbi uğuru sayılmağa layiqdi. Məni ən çox çəkən isə bu poeziya toplusunda şair Aydın Uluxanlının fərdi dəst-xətti, özünəməxsus yazı üslubuna meyl etməsidir.

Əlbəttə, heç bir çağdaş şairin bütün yazılarını indiki dövrdə "bəh-bəhlə" qəbul etmək mümkün deyil, ünvanına "aydan arıdı, sudan durudu" söyləmək olmaz. Aydının yeni kitabındakı bədii nümunələr də eləcə...

Ancaq Aydın Uluxanlının qələmə aldığı əksər irili-xırdalı əsərlərində qoyduğu məslək, qayə, əqidə-amal məsələsi millətinə, mənsub olduğu xalqına sevgisindən yaranıb. Kitabda bir nəfər jurnalistə, əslində isə hamıya ünvanlanan "Bizim günümüz" şeirini təhlil edərkən söylədiyimiz nəticəni görə bilərik. Doğrudur, məlum mövzuda başqa müasir şairlərimiz də qələm işlədiblər. Məsələn, Bəxtiyar Vahabzadənin çox yanğılı bir şeiri var və demək olar, mövzu müəllifin mövzusuyla eynidir. Lakin poeziyada həmişə sələf-xələf təsiri mövcuddur. Və burda qeyri-adi heç nə yoxdur. Digər tərəfdən, kəskin vəzn-üslub fərqi var, Bəxtiyar müəllim heca vəznində yazıb əsərini, Uluxanlı isə tam sərbəst vəzni mövzusuna hədəf seçib.

***Bilirsənmi, adaşım,***
***mən daha çox haqlıyam,***
***həm Şəkiliyəm, həm Şirvanlıyam,***
***həm də Qarabağlıyam.***
***Bilirsənmi, bilmirəm,***
***Təbrizliyə, Xoyluyam,***
***Həmədan türküyəm mən.***
***Anadolu oğluyam,***
***İstanbul uşağıyam.***

Yalançı xalq qəhrəmanlarını, yerlibazları, zonabazları, məmləkəti parçalayanları damğalayan bu tutarlı şeirdə hər kəsin dərsi verilib. Müəllifin çağırışı, hayqırtısı bəllidir, bütün türk ellərinədir, bütöv Turanadır. Bu məqamda o, XX yüzilliyin otuzuncu illərində Bakıdan didərgin düşmüş Almas İldırımın "Qara dastan" əsərində qoyduğu problemi sanki qabardır və Aydının Turançılığı ilə Almas İldırımın türkçülüyü səsləşir, üst-üstə düşür, bizləşir. Müqayisə naminə mərhum şairin "Qara dastan"ından bir bəndi misal çəkək:

***Türk elləri bir-birinə yadlanır,***
***Qazax, qırğız, türkmən, özbək adlanır.***
***Azəri türk yanır, içdən odlanır,***
***Ana yurdun içdən halı duman, hey,***
***Qoca türkün düşdüyü dərd yaman, hey!***

Bu da Aydın Uluxanlıdan seçdiyimiz "Bizim günümüz" şeirinin sonrakı davamından parça:

***Qaraçay-çərkəzliyəm,***
***Sibirli, Altaylıyam,***
***Tuvada göz qıymışam.***
***Saxada və Qarşı yaxada***
***boya-başa çatmışam.***
***Bilirsənmi, bilmirəm.***
***Adaşım, mən əlli iki mənəm.***

Müəllifin "Çəmən", "Bizi bir-bir basdırıblarmış", "Böyük bəy", "Bir daha dönəlim", "Babalarımın dünyası", "Ana, məni bir də doğ", "Bir qapı açılacaq", "Böyüyür", "İçimdə daşıdığım Vətən", "Gördüm", "Gözəlim Vətən", "Əclafların şairi", "Deyil", "Çobanyastığı", "Kimsən, orda?", "İtirirəm günlərimi", "İrəvanım-babalarımın şəhəri", "Şəhər mənzərələri", "Qıfılbənd", "Qapılar", "Pıçıldayan yarpaqlar", "Mən söz mühəndisiyəm", "Ürəyim qaçır məndən", "Tanrının unutduğu dünya", "Söz ovçusu", "Sirlərim", "Səslərin qəbiristanlığı", "Yol ayrıcında" və başqa şeirlərində, eyni zamanda "Qaçqınlar", "Meydan" poemalarında yer-yurd, torpaq, vətənə məhəbbət, türkçülük ideallarına sədaqət nümayiş etdirir, müşahidələrini poeziya dilinə çevirir, şair "mən"ini təsdiqləmək üçün ənənəvi, qeyri-ənənəvi şeirimizin müxtəlif qatlarına baş vurur. Belə bir təcrübədən çıxmış söz var: "sən zəhmət çəkirsənsə, əziyyətin heç vaxt boşa getməyəcək". Şübhəsiz, yeni poeziya toplusunda Aydının uğurları kifayət qədərdir və təəssüf ediləcək haldır ki, bu maraqlı, yenilikçi şairin yaradıcılığı indiyəcən ədəbi tənqidin diqqətindən kənardır.

Əgər mənə təklif eləsələr, Aydın Uluxanlının kitabından bir uğurlu, bəyəndiyin şeirini seç. Gözüyumulu 73-cü səhifəni açaram və "Çəmən" şeirini göstərərəm. Nə üçün? Şair doğma Vətəninin xəritəsini cızmaq üçün "səni sevirəm, canım sənə qurbandır" kimi patetik, ritorik sözlərdən istifadə etmir, müxtəlif poetik detallarla torpağının rəsmini çəkir.

***Dağ çəməndə yaşamıram,***
***Çəmən buludlarda yaşamıram,***
***Çəmən buludlar məndə yaşayır.***
***Çəmən yarpaqlarda yaşamıram,***
***Çəmən yarpaqlar məndə yaşayır.***
***Çəmən biçənəklərdə yaşamıram,***
***Çəmən yaşıllıqlar məndə yaşayır...***

Qürurla demək olıar ki, bu poetik mətndə Azərbaycan torpağının bütün rəngləri, çalarları var. Oxuduqca qədim məmləkətimizin uca dağları, gen düzləri, bollu-bərəkətli çölləri, zəmiləri, üzümlü-meyvəli bağları, laləli-kəpənəkli yamacları, buz nəfəsli çeşmələri, bulaqları, çaylarının zümzümələri, Xəzərinin şahə qalxan dalğaları, xınalı kəkliklərinin, turaclarının notsuz nəğmələri adamı valeh edir, təsir dairəsinə salır. Bəxtəvərcəsinə torpğıyla öyünən şair "Çəmən"i maraqlı sonluqla bitirir:

***Evimizdə-eşiyimizdə***
***Təndirimizdə, beşiyimizdə yaşamıram,***
***Çənə beşiyimiz məndə yaşayır.***
***Soruşurlar, Azərbaycandamı yaşayıram,***
***Azərbaycan məndə yaşayır.***

Konyalı dahi türk filosofu və şairi, "Qurani-Kərim"in mahir bilicisi Cəlaləddin Rumi deyirdi: "bu dünya alınca nəfəsindi, qalınca qəfəsin". Olum-ölüm eləcə də Şekspirdən tutmuş bütün çağdaş dünya poeziyasını yaradanların baş mövzusu olaraq qalır. Aydın Uluxanlının da bu haqda xeyli sayda şeiri var. Ancaq şairin bu əzəli-əbədi mövzuya yanaşma tərzi fərqlidi. O, "ölü doğulur saatlarım, saniyələrim, dəqiqələrim" - deyir. "Ürkək-ürkək, oğrun-oğrun, torpağı sarı baxır mənə sabahlarım" pıçıldayır, ehmalca təsəlli tapır: "üzümü qoyuram danüzünə mən, anamın üzünə oxşayır danüzü". Şairin, "Ölü günlərin sahibi" adlandırdığı bu şeir nə qədər bədbin notları təlqin eləsə də, bir müəllif mənasız ötən saatları, günləri, həftələri hədəf seçir və onların bihudəliyinin ağrı-acısını çəkir, duyğularını bölüşür.

Digər bir "Ölüm yoxdu ölümə qədər" elegiyasında köhnə hisslərini təkrarlamır. Oxşarlıq yalnız mövzunun zahiri əlamətlərindədi, yəni eyni sözlərin düşülüşündə, misraların hərəkətində. Yerli-yataqlı münasibət dediyimiz kimi fərqlidi.

***Ölüm yoxdu ölümə qədər,***
***qalım yoxdu qalıma qədər,***
***itim yoxdu itimə qədər,***
***ölüm-itim yoxdu, ölüm-itimə qədər.***

Aydın Uluxanlı bu maraqlı şeir üçün qəribə, orijinal forma tapıb. Bəli, yeni forma da kəşfdi. Yəni poeziyanın min illik tapdağından sapmaq, qaçmaqdı. Bənd-bənd hörülmüş heca şeirinin ön misraları doqquzluqdu, son misralar isə ənənəvi onbirlik. Əvvəldən-axıradək şeir bu ahəngdədir və adda-budda qafiyələr bəndlərə həzinlik qatır.

***Torpaq yoxdu torpağa qədər,***
***Günəş yoxdu Günəşə qədər,***
***Nəfəs yoxdu nəfəsə qadər,***
***Səs yoxdu səsə qədər,***
***Sən yoxdun sənə qədər.***

"Ölümdən sonrakı ölüm", "Ölümünə" şeirləri də həssas şair ürəyinin müdhiş ölümə meydan oxumasından yaranıb. Xoşbəxtlikdən, Aydının bu "ölüm" nəğmələrində qətiyyən həyat sönməyib, bir şam işığı boyda şölə uzaqdan da olsa, nurunu göstərir, oxucunu ovqata kökləyir. "Bir ümid var, yaşıllıqların üstündə, yaşıllıqların işığında bir ümid var" şair inamı təkcə təskinlik deyil, həm də nikbin ovqatın bərpasıdır.

"Ana" poeziya buketinə Aydın Uluxanlı müxtəlif mövzularda qələmə aldığı üç irihəcmli poemasını daxil edib. Ən çox diqqətimi cəlb edən isə "Qaçqınlar" əsəri oldu. Atalar məsəlidi: "başına gələn başmaqçı olar" - deyiblər. Onların da ailəsi yüzminlərlə azərbaycanlı kimi əsrin 80-ci illərinin sonlarında Ermənistandan zorla qovuldu. Çıxan çıxdı, qaçan qaçdı, zərrəcə müqavimət göstərənlər isə döyüldü, söyüldü, təhqirlərə məruz qaldı. Halbuki o zaman hələ SSRİ var idi, qırmızı imperiyanın milisi, ordusu görə-görə məsələyə qarışmadı, hələ bir qovulanlar üçün şərait yaratdılar, Qərbi Azərbaycanı - əzəli dədə-baba yurdlarını daha tez tərk etsinlər. Bu ağrını hər kəs yaşadı, ancaq köklü-köməcli əski torpağını itirən şair Aydın isə min yol yandı-yaxıldı, həsrətindən qovruldu, qıvrıldı, ilan kimi qabıq qoydu, cənnətməkan Uluxanlı məmləkəti, boya-başa çatdığı Zəhmət kəndi zaman-zaman gözünün qabağından getmədi. Nəhayət, şair taleyini yazdı, yurdunun faciəsini kağıza kçürtdü - "Qaçqınlar" poeması ərsəyə gəldi, nəfəs dərib bir qədər yüngülləşdi...

***Gizlədir, ört-basdır edirdi***
***Tanrı üzünü dağların, təpələrin arxasında.***
***Əli uzalı qalırdı qaçqınların***
***Tanrının qarasına.***
***Əlləri dizlərinə,***
***dizlərindən də aşağı enirdi***
***yapa-yapa qarıların,***
***topa-topa kişilərin.***
***Sırsıra və ümidsizlik sallanırdı***
***lopa-lopa bığlarından cavanların.***

Poemada özünəməxsus ritm, bənzərsiz bir ahəng mövcuddur ki, əvvəldən axıradək bu qeyri-adilik diqqət çəkir. Əsərə etnoqrafik ruh hakimdir: oxuya-oxuya sətir və misralarda at ayaqlarının tappıltısını, qoyun-quzu sürülərinin mələşməsini, quşların civiltisini, çoban itlərinin hürüşməsini eşidirsən. Eyni zamanda bu köşhaköçdə, qaçhaqaçda nənələrin ağı-bayatı zümzümələri, babaların holavar, kotan-xış nəğmələri, gəlinlərin laylaları qulaqları oxşayır. Amma toxdaqlıq-arxayınlıq üçün əsas yoxdur, yurd yerləri müvəqqəti də olsa, itirilib, tarixi faciə baş verib. Qısaca hazırlaşmaq gərək! Müəllif hamını inandırır ki, ey dili qafil, gün gələr, igidlər kimliyini mənfur millətə qandıracaqlar:

***...Yaşayacaqdılar, çarpışacaqdılar***
***bir daha dönmək üçün.***
***Dil deyib çağıracaqdılar***
***dədələrin, babaların ruhunu***
***eşidəcəkdi Vətən onların səsini.***

Gün gəlib yetişibmi, Aydın Uluxanlı! Bizcə, hə, o gün çatıb. İkinci Qarabağ Savaşında şanlı Azərbaycan ordusunun göstərdiyi şücaət, zəfər inamımızı artırıb, ümidimizi sönməyə qoymayıb. Poemanın ikinci hissəsini yazmağa hazırlaş, ruhunu köklə, şair qardaşım!

**Ağacəfər Həsənli**



*Səadət Sultan*
*Yazıçı-publisist*

## "Eurovizion 2021"-də Azərbaycan bayrağına edilən hörmətsizlik

*Samirə Əfəndi heç də "əfəndi"lərə layiq hərəkət etmədi...*

*Mayın 18-də "Evrovision-2021" Beynəlxalq mahnı müsabiqəsinin I yarımfinalında Azərbaycanı 14-cü sırada təmsil edən Samirə Əfəndi "Mata Hari" mahnısı ilə çıxış etdi. Mahnının musiqisi və sözləri Amy van der Wel, Josh Earl, Luuk Beers, Tony Cornelissen-ə aiddir. Qeyd edək ki, bu xanım Azərbaycanı Evrovision-2020-də "Kleopatra" mahnısı ilə təmsil edəcəkdi. Lakin məlum pandemiya səbəbilə yarışma təxirə salındı. Keçək əsas mətləbə...*

*Torpaqlarımızın işğaldan azad olunma sevinci hələ damarlarımızdan getməyib. "Xarıbülbül" Musiqi Festivalının sevinc göz yaşları hələ qurumayıb. Hamı bu sevincin dadını çıxararkən, "Eurovision" kimi beynəlxalq səviyyəli musiqi festivalında da bunun iz və çalarlarının əks olunmasını səbrsizliklə gözləyirdik. Bəs onda "Mata Hari" nədir? Axı, Mata Hari kimdir? Əsl adı Marqarita Gertruda Zelle olan bu hollandiyalı qadın Mata Hari təxəllüsü ilə dövrünün məşhur rəqqasəsi olsa da, əslində Almaniyanın casusu idi. Hətta Almaniyanın Lörrax şəhərindəki kəşfiyyat düşərgəsində xüsusi məktəbdə casusluğun sirlərini də öyrənmişdi. Onun adı Almaniya kəşfiyyatında "H21" kodu ilə qeyd edilmişdi. O məlumat toplamaq üçün yüzlərlə kişi ilə "oturub-duran" kurtizanka idi. Bunun bizə nə dəxli var? Hamımız bilirik ki, "Eurovision" musiqi müsabiqəsi olsa da, əslində həm də siyasi bir tədbirdir. Belə bir möhtəşəm səhnədə öz qələbəmizi dünyaya çatdirmaqdan gözəl nə ola bilərdi? O qələbəni ki, 44 günlük müharibədə igidlərimiz canları və qanları bahasına əldə etdilər. Bu azmış kimi, azərbaycanlı iştirakçı Azərbaycanın bayrağını ayaqları arasında saxlayır. Bu adi təsadüf ola bilməz. Bu elə erməni düşmənçiliyi kimi bir şeydi. O bayrağın səmada dalğalanması üçün Şuşanı yalın əllə alan oğlanlar olub. O bayraq uğrunda gözünü qırpmadan sinəsini güllə qabağına verən oğlanlarımız olub. Belə olan surətdə bayrağı ayaqları arasında saxlamaq təkcə bayrağı təhqir olunmasıl deyil, Azərbaycan kimi möhtrəşəm xalqın qəhrəman xalqın namusunun ayaq altına atılması deməkdir.*

*"O, olmasın, bu, olsun!" filmininin finalında Məşədi İbad yanındakılardan soruşur ki, "Bu gəlini gətirəndə baxmadınız ki, bu arvaddı ya kişi?" Bayrağımızı ayaqları arasında saxlayanı ora göndərənin də erməni ya da azərbaycanlı olması məni çox düşündürür.*

*Gəlin birlikdə düşünək...*

## "Qarabağ"dan şəhid azarkeşi ilə bağlı həssas addım



**"Qarabağ" şəhid azarkeşi Məhəmmədəli İbrahimli ilə bağlı həssas jest edib.**

Qol.az-ın əldə etdiyi məlumata görə, Ağdam klubu Peşəkar Futbol Liqasına göndərdiyi medal alacaq komanda üzvlərinin siyahısına M.İbrahimlinin də adını salıb.

**Beləliklə, M.İbrahimli "Qarabağ" komandasının üzvü kimi ölümündən sonra Azərbaycan Premyer Liqasının medalına layiq görüləcək. Qeyd edək ki, M.İbrahimli ikinci Qarabağ müharibəsi zamanı qəhrəmancasına şəhid olub.**

## *NEKROLOQ*



*Əzizimiz, doğmamız Bahadur Əbdül oğlu Zahidovun unudulmaz, əziz xatirəsinə ürək ağrısıyla yazılan oxşamalı ağı…*

**Ataman Əbdülün son beşik oğlu,**
**Azəri xalqımın məğrur, mərd dağlı,**
**Sən elinə bağlı, biz sənə bağlı.**
**Bizə dayaq duran arxa sən idin,**
**Övladla, doğmaynan daim şən idin.**

**Aydın, Əzizağa, Ramiz tez köçdülər dünyadan.**
**Heç nə ummadılar doğmadan, yaddan,**
**Sən bizdən doymadın, biz də ki, səndən.**
**Doğruya, düzgünə haqla tən idin,**
**Övlad, bacılarnan daim şən idin.**

**Bacılar Raisə, Xeyransa, Bəyim,**
**Sonuncu bacınız Rəna köməyin,**
**O qədər ağrı var, hansını deyim.**
**Doğruya-düzgünə haqla tən idin,**
**Övladnan, doğmaynan daim şən idin.**

**Getdin, bu gedişin son səfər oldu,**
**Qəmdən ürəyimiz saraldı, soldu,**
**Bizim diləyimiz min rəhmət oldu.**
**İndii rahat uyu Haqq dərgahında,**
**Sənə rəhmət olsun O Allahım da.**

*Allah rhəmət eləsin!*
*Qəbri nurla dolsun!*

**Dərin kədər motivləri ilə**
**bacın Xeyransa Əbdül qızı**

# Beynəlxalq Muzey Günü: Azərbaycanda muzeylərin yaranma tarixi

**"Muzey"- yunan sözü olub, "muzalar məbədi" deməkdir. Muzalar qədim yunan mifologiyasında incəsənət və elm ilahələri hesab olunurdular. Sonralar maddi və mənəvi mədəniyyət abidələrini komplektləşdirən, saxlayan, nümayiş etdirən, tədqiq və təbliğ edən elmi müəssisələr bu adla adlandırılbdır.**

Hər il mayın 18-ni dünya mədəni ictimaiyyəti Beynəlxalq Muzey Günü kimi qeyd edir. Bu gün 1977-ci ildə Beynəlxalq Muzeylər Şurasının 11-ci konfransında Sovet nümayəndə heyətinin təklifi ilə təsis olunub. 1978-ci ildən etibarən bu bayram hər il 150-dən çox ölkədə qeyd olunur. Həmin gün Rusiyanın bütün muzeylərində "açıq qapı" elan olunur. Bütün arzu edənlər pulsuz olaraq sərgi və ekspozisiyalara tamaşa edirlər.

### *Azərbaycanda muzeylərin yaranma tarixi*

Azərbaycanda muzey işinin tarixi çox da qədim deyil. XX əsrin əvvəllərində Bakı ticarət məktəbi nəzdində Sənaye, Xalq məktəblərinin Bakı-Dağıstan müdiriyyəti nəzdində Pedaqoji, Rus texniki cəmiyyəti Bakı şöbəsi nəzdində Texniki muzeylər fəaliyyət göstərmişdir.



İlk milli muzeyin yaradılması isə Azərbaycan Xalq Cümhuriyyəti dövrü ilə bağlıdır. 1919-cu il dekabrın 7-də "İstiqlal" muzeyi fəaliyyətə başladı. Muzeyin təsisi ilə əlaqədar "Azərbaycan" qəzeti (1919, 23 sentyabr) yazırdı: "Sənələrdən bəri bəslədiyimiz bir arzu var ki, o da vətənimiz Azərbaycanda bir milli muzey təsisidir. Sabiq Rusiya zamanında təsis edəcəyimiz muzeyin adını "milli muzey" qoymaq fikrində idiksə də, bu gün fərdimizin köksünü qabardan istiqlal şüarı olmasına görə "İstiqlal muzesi" olmasını əhəmiyyətli görürüz". Muzeydə tariximizi, milli-mənəvi dəyərlərimizi əks etdirən eksponatlar - məişət əşyaları, silahlar və əlyazmalar toplanmışdı. Muzeyin təşkili və fəaliyyəti ilə bağlı bütün xərclər Azərbaycan Parlamenti Rəyasət Heyətinin hesabına idi. Aprel işğalından sonra "İstiqlal" muzeyinin eksponatları yeni təşkil olunmuş Azərbaycan dövlət muzeyinə verildi. Sonralar eksponatların bir hissəsi (o cümlədən, Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı, "İstiqlal Bəyannaməsi"nin əsli, Azərbaycan Parlamentinin materialları və s.) Moskvadakı İnqilab muzeyinə aparıldı.

Sovet hakimiyyəti illərində Respublikada muzey şəbəkəsi daha da genişlənmişdi: Nizami adına Ədəbiyyat muzeyi, L. Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənət Dövlət Muzeyi, Azərbaycan Tarixi muzeyi, Xalq Maarifi muzeyi, əksər rayon və şəhərlərdə tarix, diyarşünaslıq muzeyləri, elm və mədəniyyət xadimlərinin ev muzeyləri və s. bu qəbildəndir. İftixar hissi ilə qeyd olunmalıdır ki, Azərbaycan Xalçası və Tətbiqi Sənət Dövlət Muzeyi dünyada yeganə belə muzeydir. Bu muzey həm də Azərbaycanda yeganə muzeydir ki, öz virtual muzeyi vardır.

Azərbaycan həm də açıq səma altında yerləşən muzeylər ölkəsidir. Bunu Qobustanda, İstisuda (Kəlbəcər) və Gəmiqayada (Naxçıvan) qayalar üzərindəki təsvirlər sübut edir. Məşhur Norveç alimi və səyyahı Tur Heyerdal Qobustanda olarkən buranı obrazlı şəkildə "səma altında muzey" adlandırmışdır.

### *İlk muzey və məşhur muzeylər*

Qeyd edək ki, dünyada ilk muzey Ellin dövründə qədim Misirin paytaxtı İsgəndəriyyə şəhərində yaradılb. Burada 40.000-dən artıq eksponatlar - sikkələr, heykəllər, sarkofaqlar, gil qablar, papiruslar və birbirindən gözəl təsviri sənət nümunələri toplanmışdır. Bu eksponatlar qədim misirlilərin həyatı, məişəti, mədəniyyəti, eləcə də yunan-roma mədəniyyətləri haqqında zəngin məlumatlar verir.

**İndi dünyada muzeylər çoxdur. Onlardan ən məşhurları Parisdə Luvr muzeyi (Fransa), Londonda Viktoriya və Albert muzeyi (Böyük Britaniya), İstanbulda Topqapı muzeyi (Türkiyə) və Sankt-Peterburqda Ermitajdır (Rusiya).**

**Əntiqə Rəşid**

# "Meyxana vərdişdir bəli. İstedadın varsa, seçiləcəksən"

*Meyxanaçı Rüfət Nasosnu Adalet.az saytına müsahibə verib.*

**- Rüfət, meyxanadan əvvəl söhbətə Tarixlə başlayaq. İxtisasca tarixçisən və bir müddət də Tarix müəllimi işləmisən...**

- Bəli, elədir. Tarix üzrə təhsilim var. Lənkəran Dövlət Universitetini bitirmişəm.

**- Meyxanalarında tarix havası hiss olunmur amma..**

- Elədir. Meyxanada tarix havası duyulub hiss olunmasa da, mənim oxumağım köməyimə çox çatıb. Tarix ixtisasında təhsil alaala həm də ədəbiyyat öyrənmişəm, elmlənmişəm. Amma Tarix üzrə oxumağımın köməyi televiziyada, tədbirlərdə hiss olunub, olunur.

**- Bəs niyə müəllim kimi davam eləmədin?**

- Müəllim kimi davam etməməyimə çox səbəb var. Bəzilərini deyim. Müəllimə hörmətin olmamasıdır məsələn. Mən müəllim işlədiyim dövrdə müəllimə diqqət ümumiyyətlə yox idi, normal maaş yox idi. Heç guya indi necədir ki? Mən universitetdə oxuyanda Komitə sədri rüşvət alırdı, bir müəllim də var idi, Tarix Dostuyev, o rüşvət almırdı deyə, 4 il eyni kostyumda gördüm onu. Kostyum da nə kostyum? Bəlkə məndən də əvvəl 4-5 il idi ki, onu geyinirdi.

**- Deyirsən ki, savadlanmışam, ədəbiyyat öyrənmişəm, həm elə təhsilin də var. Amma qıraqdan tənqidlər var ki, meyxanalar ancaq kriminal aləm, narkotikadan bilirlər. Sənin də bəzi meyxanalarında var bu cür meyxanalar. Tənqidləri haqlı görürsənmi?**

- Bizdə sənətlə həyat tərzini qarışdırırlar. Mən yaxşı meyxanalar çox deyirəm. Məsələn, Mübariz İbrahimovdan, Polad Həşimovdan deyirəm, bunu görmürlər o narkotiki görənlər? Məsələn, bir porno aktyor kiminlə gəldi yatmalı deyil, amma hamı o cür düşünür. Bir yanğınsöndürən evə girən kimi əlinə su şlanqı götürüb nəsə eləmir ki. İş başqadır, həyat tərzi başqa. Kimlərsə narkotik çəkirsə, bu da üzdə olursa, o demək deyil ki, hər kəs belədir. O vaxt bir Axund tutmuşdular narkotiklə. İndi o deməkdir ki, bütün axundlar belədir? Narkotika insanın öz ağılsızlığından, iradəsizliyindən irəli gələn bir şeydir. Bu məsələdə çox adam günahkardır. Məsələn, elə jurnalistlər. Ancaq eşitdiklərini yazırlar, onu da yarımçıq. Çoxu bilmir meyxana nədir, narkotika ilə əlaqəsi varmı, amma nə gəldi yazır, bu cür göstərir, təbliğ edirlər. Reytinq xatirinə çox şey edirlər. Bu da gətirir bu kimi söhbətlərə çıxardır.

**- Meyxanaçıların hazırda çoxu narkotikdən istifadə etməsə də, narkoman olmasa da, qıraqdan belə görüntü yaranıb. Yaxud da, əvvəl istifadəçisi olan bir çox məşhur meyxanaçılara görə. Məsələn, narkotikdən uzaq biri narkotikadan meyxana deyirsə, görüntü də pozulur. Bəlkə elə günahkar həqiqətən**



**sizlərsiniz? Bu cür meyxanalar deməyinizdir?**

- Qərbdə belə fikir yaranmışdı ki, bütün müsəlmanlar terroristdir. Biz uşaq vaxtı elə bilirdik ki, bütün yaponlar karateistdir. Əvvəllər meyxana deyənlərin bəziləri narkotikdən istifadə edib deyənə, elə fikir formalaşıb ki, narkotiksiz meyxana mümkün deyil. Bir ara meyxana çox sıxışdırıldı. Dövlət tərəfindən dəstəklənmədi, Sovet dövründə qadağa var idi, meyxananı da xalq saxladı ayaqda. Ən çox harda deyirdilər? Palatka toylarında. O vaxt da gizli deyil ki, narkotikdən istifadə edilirdi və yayılırdı. O vaxt meyxana deyənlərə də elə kriminal kimi baxırdılar. Mən meyxana şairi olmaq istəyəndə, deyəndə atam da razı deyildi. Meyxana bir az həyat tərzidir. Söyüş olurdu deyə qadın olmurdu. Gecədən səhərə kimi deyirdik. Amma meyxana bunlardan ibarət deyil ki. Meyxanada hər şey var. Baxır, kim necə görür, nə görür, nə görmək istəyir.

**- Deyirsən, meyxana şairi olmağa qərar verəndə. Bu, qərarla olur ki? Yəqin, universitet vaxtı şeir yazırdın, sonradan gördün belə bir istedadın var. Məsələn, indi deyirlər, meyxana vərdişdir, nə var onu deməyə. Düz deyirlər? Sən özün də demişdin ki, mən Bayram Kürdəxanlıya baxıb öyrənmişəm.Bu cür deyənlər düz fikirləşir? İstənilən adam meyxana meydanlarında olub vərdiş eləməklə deyə bilər?**

- Mən Bayrama baxıb öyrənmək yox, həvəsə gəlmişəm demişəm. Professional demirdi o. Öz yolu var idi. Allah rəhmət eləsin. Meyxana vərdişdir bəli. İstedadın varsa, seçiləcəksən. Yəni, çox adam deyə bilər, amma hamı meyxanaçı ola bilmir ki. Sözü satmaqdan çox şey asılıdır. İstedadlı adamlar var ki, ifadə edə bilmirlər özünü tam olaraq. Nəinki Universitet vaxtı, heç indi də yazdıqlarıma şeir demirəm. Mən həvəskar şairəm. Oturub yazsam, bilirəm ki, alınar. Meyxana və ədəbiyyat şeiri başqa-başqa şeylərdir.

**- "Elə istedadı olanlar var ki, özlərini göstərə bilmirlər" sözün diqqətimi çəkdi. Xüsusi ilə son dövrlər bunun söhbəti getdi ki, hazırda meyxana ustası sayılan adamların bəziləri gənclərin qabağını alır müxtəlif yollarla(onların olduğu toyda iştirak etməməklə məsələn) Hətta konkret adlar çəkilir. Sizlərdə bu nədən asılıdır? Paxıllıq, konflikt, yoxsa başqa nəsə?**

- Kimlərin adı çəkilir məsələn? Denən, mən də onlar üzərindən danışım...

**- Məsələn, Rəşad Dağlı.**

- Ümumi olaraq toylardan deyə bilərəm ki, baxın, görün cavan uşaqlar neçə yekəbaşlıq edirlər. Elə bilirlər, 3-4 təfilə ilə ustad olacaqlar. Meyxana idarə eləməkdir həm də. Meyxana tək efir üçün deyil ki. Toyda meyxana həm də şoudur. Materialı təqdim etməlisən, xiridarı zövqünə uyğun olmalıdır, onun istədiyini demək lazımdır. Elə meyxana deyən var əla deyir, amma bir dəfə toya gedirsən, sonra çağırmırlar. Çünki təqdim edə bilmir. Məsələn, belə deyim, həkimlərin məclisində həkimlərdən deməlisən də. İdarə eləməlisən məclisi. Traxtristlərin məclisinə gedib ancaq həkimdən desən olmaz axı. Məclisin atmosferini tutmaq lazımdır. Qaldı Rəşada Dağlıya, mən buna inanmıram. Belə şey olmaz. Bu söhbətlər uşaqlıqdır. Rəşadın rəqibi uşaq-muşağlar ola bilməz axı. Bu fikiri deyənlər həqiqətən uşaqlardı. O gənclərin çoxu özünü göstərə, təqdim edə bilmirlər. İstedadlı adamı Rəşad özü qabağa çəkər elə. Rəşadın borcu deyil e, bu. Amma yenə də baxma da. Rəşad dursun kiminsə qarşısını almağa çalışsın, olası söhbət deyil bu. Mən illərnən meyxana dedim, çox dəyişildim, istedadım var idi ki, qanacağım var idi ki, qabağa çıxa bildim. İndi hansı gənc belədirsə, o da gedəcək qabağa. Onun qabağını heç kim ala bilməz, Rəşad heç almaz.

**- Rüfət, son dövr müasir Azərbaycan ədəbiyyatı nümayəndələri meyxanaya qarşı iddialar səsləndirirlər, pisləyirlər. Bəziləri deyir, meyxana ciddi sənət deyil, meyxanaçılar da bunun əksini deyir. Yazıçıların belə etməyinə bir çox səbəb var, amma həm də bəzi meyxanaçılar deyir ki, onlar paxıllıq edir, oxunmular, biz qədər pul qazana bilmirlər deyədir. Həqiqətən belədir?**

- O məsələlərdən biri də elə maliyyədir. İkinci məsələ isə şöhrətdir. Meyxanaçılar nisbətən çox və tez tanınır, populyar olur, amma yazıçı-şair üçün bizdə o səhnə yoxdu ki, tez də populyar olsunlar. Toya çağırıb, əsərə qulaq asmayacaqlar ki. Yaxud da, elə şairi. Az-az çağırarlar. Meyxana isə gündəlik həyatımızda olan toylarda, tədbirlərdə kütlə tərəfindən qəbul olunub, qulaq asılır deyə, daha rahatdır tanınmaq. Bu da bəzi insanlarda qısqanclıq yaradır. Biri var, başqasının hesabına gedəsən qabağa, biri də var özünün. Ədəbiyyatda da ata-oğul söhbətləri var. Bu elə meyxanada da var. Ağamirzə Ağasəlimin hesabına tanınıb. Sonradan da öz hesabına olub. Elə yazıçılar var ki, yaxşı əsərləri var, amma meyxana deyən onu bəyənmir. Belə şeylər də var. Yazıçı gərək irad eləməsin e, meyxana deyənə. Öz işinlə məşğul ol da. Ciddi baxmırsan? Baxma da. Əsərini yaz. Mənim poemadan xoşum gəlmirsə, niyə onu yazanı tənqid etməliyəm? Deməli, maraqlıdır da.

**- Müsahibə üçün təşəkkür edirik.**

- Çox sağ olun, mən də.

**Söhbətləşdi;**
**Orxan Saffari**

## *Akif Əhmədgil ədəbi mükafata layiq görülüb*



**Şair, tərcüməçi Akif Əhmədgil Qazaxıstan Respublikasının "Alaş" beynəlxalq ədəbi mükafatına layiq görülmüşdür. Akifə bu mükafat Oljas Süleymenovun "Tanrının təbəssümü" (2016) və Uluqbəy Esdövlətin "Uluqbəy küçəsi" kitablarında çap olunan şeirlərin tərcüməsinə görə verilmişdir.**

## *"Ruslan və Lyudmila" filmindəki "Çernomor" vəfat etdi: Bu gün dəfndir...*



**Ötən gün Rusiyanın məşhur teatr və kino aktyoru Vladimir Fyodorov vəfat edib.**

Adalet. az xəbər verir ki, bu barədə mərhum aktyorun tanışı İvan Şablov "Facebook" səhifəsində yazıb:" "Qısa boylu böyük adam. Sənətçi, nüvə fiziki, vətəndaş və İnsan! Qızıl əlləri və parlaq düşüncəyə sahib idi", deyə Şablov vurğulayıb. 82 yaşında dünyasını dəyişən aktyorun ölüm səbəbi isə hələlik açıqlanmayıb.

Vladimir Fyodorov "Ruslan və Lyudmila" filmindəki "Çernomor" obrazı ilə məşhurlaşıb. 40-dan çox filmdə çəkilib. "Turançoks" obrazı da ona uğur gətirmişdi. Bundan əlavə, Fyodorov "On iki stul" və "Kin-dza-dza!" filmlərində də çəkilib. Aktyor ixtisasca nüvə fiziki idi. O, 50-dən çox elmi işin və ixtiranın müəllifidir.

Qeyd edək ki, aktyor bu gün dəfn ediləcək.

## *Nura Suridən təhsillə bağlı status: 8 saat maskayla uşaqlara əziyyət verməkdə məqsəd...*



**Bildiyiniz kimi Azərbaycan Respublikası Təhsil Nazirliyinin qərarı ilə 17 may tarixində orta məktəblərdə dərslər başlayıb. Qərara əhali arasında bir mənalı qarşılanmadığı qənaətindəyik.**

Buna misal olaraq, müğənni Nura Suri sosial şəbəkədə yazdığı statusu göstərmək olar. Sənətçi məktəblərin açılmasından gileylənib:"Çox maraqlıdır, kim düşünüb məktəbləri yay tətilinə çıxmasına 20-30 gün qalmış "Formula"ya görə bağlanmış şəhərimizi nəzərə almayaraq açmağı?". Xanım müğənni fikrinə bu sözləri də əla: "Uşaqlar güc-bəla ilə onlayn dərslərə öyrəşiblər. İmtahan bir tərəfdən, səhər saatlarla və dərsdən qayıdanda tıxacda... Ağızlarında səhərdən 8 saat maskayla bu uşaqlara bu əziyyəti verməkdə məqsəd nədir? Adi insanları düşünən var? Camaat işə necə gedib-gəlsin? Bu isti havada insanlar niyə əziyyət çəksin? 2020-nin martından əziyyət çəkirik də onsuz da".

Qeyd edək ki, Təhsil Nazirliyi Kollegiyasının müvafiq qərarına əsasən, Bakı, Sumqayıt, Gəncə və Şəki şəhərlərinin, Abşeron rayonunun ərazisində yerləşən ümumi və məktəbdənkənar təhsil müəssisələrində 17 may 2021-ci il tarixindən əyani tədris forması qismən bərpa edilib və cəmi 21 gün dərs olacaq.

**Əntiqə Rəşid**


Astara rayonu Ərçivan kənd sakini Nəhmətov Dilarə Əli qızı Astara rayonu Aqrar İslahat Komisiyası tərəfindən 24 noyabr 2003-cü il tarixində 06 saylı qərar ilə verilmiş torpaq sahəsinin plan və ölçüsü (AN 491863) itdiyi üçün etibarsız sayılsın.

***

Quba rayonu Aqrar İslahat Komissiyasının 1997-ci il 01 noyabr tarixli 14 nömrəli qərarı ilə Quba rayonu Kələbağ kənd sakini Kərimov Hacıbaba Mursəli oğlunun adına verilmiş Azərbaycan Respublikası Torpaq Mülkiyyət Hüququna dair JN-120 Kod 30321168 Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

***

Daşınmaz Əmlakın Dövlət Reyest xidməti idarəsi tərəfindən Lənkəran rayonu Şürük kəndində yaşayan Əzizzadə Mirnəhmət İmaməli oğluna verilmiş (qeydiyyat № 2219005145 reystr № 80201307943) dövlət reystrindən çıxarış və torpaq sahəsinin plan və ölçüsü (AN 387287) itdiyi üçün etibarsız sayılsın.

***

Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi Abdullayev Əhməd Alı oğlunun adına Ağcabədi rayon Aqrar İslahat Komissiyasının 21 noyabr 2006-cı il tarixli 02 №-li qərarı ilə Dövlət Torpaq Kadastrı kitabından 23 iyul 2013-cü il tarixdə 3946 nömrə ilə uçota alınıb №282007 itdiyi üçün etibarsız sayılır.


Aqil Abbas Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi
**Şəkər xanım Məmmədovanın**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun qohumlarına dərin hüznlə başsağlığı verir.

Nəbi Muxtarov və Əbülfət Mədətoğlu ailə üzvləri ilə birlikdə Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi
**Şəkər xanım Məmmədovanın**
vaxtsız vəfatından kədərləndiklərini bildirir və mərhumun qohumlarına dərin hüznlə başsağlığı verirlər.

Aslan Mehdiyev, Binnət Məmmədov, Sabir Abdin, Azər Səlimov və Allahverdi Atayev Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi
**Şəkər xanım Məmmədovanın**
vaxtsız vəfatından kədərləndiklərini bildirir və mərhumun qohumlarına dərin hüznlə başsağlığı verirlər.

Süleyman İsmayılov və Faiq Qismətoğlu Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi
**Şəkər xanım Məmmədovanın**
vaxtsız vəfatından kədərləndiklərini bildirir və mərhumun qohumlarına dərin hüznlə başsağlığı verirlər.


**Təsisçi və baş məsləhətçi:**
**Aqil ABBAS**

**Baş redaktor:**
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 2000**
**Sifariş: 96**
Çapa imzalanmışdır: 19.05.2021